AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2022, 2 (35)

BAKI-2022

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 2 (35), 2022

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA RİYAZİYYAT ELMİ

***Aybəniz Osmanova***
*AMEA-nın Elm Tarixi İnstitutu*

***Açar sözlər:*** *Heydər Əliyev, riyaziyyyat elmi, müharibə, böhran*

Məqalədə İkinci Dünya müharibəsindən sonra Azərbaycan elmində, o cümlədən riyaziyyat sahəsində gedən proseslər təhlil edilmişdir. Müəllif Azərbaycan riyaziyyat elminin inkişafının iqtiadiyyada baş verən proseslərlə sıx vəhdət təşkil etdiyini göstərmişdir.

Məqalədə 60-cı illərdə respublika rəhbərliyinin buraxdığı nöqsanların iqatisadıyyat və elmdə geriləmələrə səbəb olmasından danışılır.

Müəllifin göstərdiyi bu buraxılan nöqsanlar elmin nailiyyətlərinin iqtiadiyyatda tətbiqinə maneələr törədir, aparılan elmi nailiyyətlərin bir çox hallarda kağız üzərində qalmasına səbəb olurdu.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə gəlməsindən sonra Azərbaycan elmində ciddi nailiyyətlər əldə edildi. Riyaziyyat elmində əldə edilən nailiyyətlər ölkənin müxtəlif sahələrində geniş tətbiq edilməyə başladı.

Məqalədə göstərildiyi kimi müstəqilliyin ilk illərində Azərbaycanda hökm sürən iqtisadi və siyasi böhran riyaziyyat elminin vəziyyətinə də mənfi təsir göstərdi. Lakin Heydər Əliyevin hakimiyyətə qayıtması elmin inkişafının yenidən bərpasına səbəb oldu.

## ГЕЙДАР АЛИЕВ И МАТЕМАТИЧЕСКАЯ НАУКА В АЗЕРБАЙДЖАНЕ

***Айбениз Османова***

***Ключевые слова:*** *Гейдар Алиев, математическая наука, война, кризис*

В статье проанализированы процессы, происходящие в научной сфере, в том числе математической науке Азербайджана.

Как указывает в своей статье автор, развитие математической науки во многом зависела от ситуации в экономике республики.

В статье рассказывается об ошибках допущенных руководством Азербайджана 1960 годах и об их влиянии на развитие и науки и экономики.

Как показывает автор, допущенные ошибки препятствовали внедрению в экономике успехов достигнутых в сфере науки. Многие научные результаты оставались не внедренными на бумаге.

С приходом к власти в Азербайджане Гейдара Алиева в научной сфере были достигнуты огромные успехи. Началось широкое внедрение научных достижений в сфере математики.

Как было указано в статье, царящий в стране экономический и политический кризис в начале независимости отрицательно повлиял и на развитие математической науки. И только возвращение Гейдара Алиева к власти привело к восстановлении научных исследований.

## HEYDAR ALIYEV AND MATHEMATICAL SCIENCE IN AZERBAIJAN

***Aybaniz Osmanova***

***Keywords:*** *Heydar Aliyev, mathematical science, war, crisis*

In this article analyzes the processes taking place in Azerbaijani science after World War II, including in the field of mathematics. The author showed that the development of Azerbaijani mathematical science is closely integrated with the processes taking place in the economy.

The article discusses the shortcomings of the republic’s leadership in the 1960s, which led to drawbacks in economics and science.

These shortcomings pointed out by the author hinder the application of the achievements of science in the economy, and in many cases caused the scientific achievements to remain on paper.

After Heydar Aliyev came to the political leadership in Azerbaijan in 1969, serious achievements were made in Azerbaijani science. Achievements of mathematical science began to be widely applied in various fields of the country.

As shown in the article, the economic and political crisis in Azerbaijan in the first years of independence had a negative impact on the state of mathematics. However, the return of National Leader Heydar Aliyev to power brought about the restoration of the development of science.

Totalitar mahiyyət daşımasına baxmayaraq SSRİ-də və müttəfiq respublikalarda sovet dövründə elmin inkişaf etdirilməsi və təşkili sahəsində zəngin təcrübə qazanılmışdır, hətta bir çox ölkələrdə Sovet İttifaqında elmə dövlət rəhbərliyi sahəsində mövcud təcrübə bu gün də öyrənilir. Hər halda keçmiş SSRİ-də ucqarlarda yaşamış millətlərin və xalqların mədəni-təhsil səviyyəsinin qaldırılması, onların maarifə çıxış əldə etmələri faktı danılmazdır

və bu müvəffəqiyyətlərin əldə edilməsində müttəfiq və muxtar respublikalarda təbiətşünaslıq və ictimai elmlər sahəsində elmi-tədqiqat müəssisələrinin geniş şəbəkəsinin yaradılması, yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanması mühüm rol oynamışdır. Əlbəttə, bütün bunlar birinci növbədə, milli respublikalarda iqtisadiyyatın, məhsuldar qüvvələrin hərtərəfli inkişaf etdirilməsi, xalqın sosial və mədəni tərəqqisi vəzifələri ilə şərtlənirdi. Bütün bunları biz sovet dövründə Azərbaycanın timsalında da görə bilərik. Buna görə də Azərbaycanın sovet dövrü tarixinə obyektiv yanaşılmalı, həmin dövrdə xalqımızın taleyində faciəvi hadisələrlə yanaşı, mütərəqqi prosesləri də qeyd etmək lazımdır.

II dünya müharibəsində sonraAzərbaycanda riyaziyyat sahəsində müxtəlif istiqamətlər üzrə uğurlu tədqiqatlar aparılmasına başlanıldı. Akademik Z.İ.Xəlilovun rəhbərliyi və fəal iştirakı ilə neft qatlarında quyuların ən əlverişli şəkildə yerləşdirilməsinin riyazi öyrənilməsinin böyük əhəmiyyəti var idi. Mingəçevir su qovşağı inşaatçılarının müraciətinə cavab olaraq, Azərbaycan Dövlət Universitetinin riyaziyyatçıları Mingəçevir Su-Elektrik Stansiyasının su altındakı borularının təzyiqini müəyyənləşdirmək üçün tədqiqatlar aparırdılar. Azərbaycan fizikləri yarımkeçiricilərin düzləndirici və digər elektrik xassələrini, habelə mayelərin, başlıca olaraq neftin və neft məhsullarının mikrostrukturunu, fiziki, termodinamik və optik xassələrini öyrənmək sahəsində maraqlı işlər görürdülər. Respublikanın fizik və riyaziyyatçıları tərəfindən kvant fizikasını və kosmoqoniyanı öyrənmək sahəsində vacib işlər aparılırdı. Beləliklə, Azərbaycanda qədim Şamaxıda Sovet İttifaqı üzrə ən böyük astrofizika rəsədxanalarından birinin bünövrəsi qoyuldu. Riyaziyyat üzrə tədqiqat işləri Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda və Hesablama Mərkəzində, habelə ali məktəblərin 20-dən artıq riyaziyyat kafedrasında aparılırdı.

50-ci illərdə Xruşşovun hakimiyyətə gəlməsindən sonra başlanan mülayimləşmə dövründə elmin nüfuzu çox qalxmışdı və bu riyaziyyatın coşğun inkişafında özünü göstərmişdi. Eləcə də, Qərb ölkələri ilə SSRİ arasında başlanan soyuq müharibə elmi rəqabətə ciddi stimul vermişdi.

Respublika riyaziyyatçıları öz tədqiqatlarını funksional təhlil problemi, inteqral tənliklər nəzəriyyəsi sahəsində aparırdılar. Onlar həmçinin tətbiqi xarakterli məsələləri araşdırırdılar. 1954-cü ildə qazın və qazlı neftin süzülməsinin riyazi məsələləri tədqiq olunurdu. A.X. Mirzəcanzadə tərəfindən tətbiqi əhəmiyyəti olan sahələrdə zəif və isti plastik mayelərin hərəkəti haqqında mürəkkəb riyazi məsələlər həll edilmişdi [7 s.11-15]. Lakin fizika-riyaziyyat elmlərinin vacib nəticələri istehsalatda ləng tətbiq olunurdu.

Bütövlükdə 1945-1970-ci illərdə Azərbaycan sosial-iqtisadi, mədəni-mənəvi inkişaf baxımından, elmin və təhsilin tərəqqisi baxımından böyük uğurlara imza atsa da, bu illərdə inkişafın bir çox göstəricilərinə görə

respublikada nəzərəçarpacaq mənfi meyllər də özünü göstərməyə başlamışdı. İkinci Dünya müharibəsindən sonra vüsət alan dinc quruculuq işləri Azərbaycanda sənayenin, kənd təsərrüfatının, mədəniyyətin, maarifin inkişafına gətirib çıxardı. Lakin sənayedə nominal göstəricilər artsa da, inkişaf sürəti ləngiməyə başlamışdı. Belə ki, əgər 1951-1960-cı illərdə məhsul istehsalı 104 faiz artmışdısa, 1961-1970-ci illərdə bu göstərici cəmi 94 faiz olmuşdu. 60-cı illərin sonlarında sənayenin yüksəlişi, həmçinin ictimai əməyin məhsuldarlığının artım sürətinə görə Azərbaycan SSR müttəfiq respublikalar arasında axırıncı yerlərdən birini tuturdu. Bu geriliyin əsas səbəblərindən biri dövlət intizamının pozulması, köhnə sahələrin yenidən qurulması və modernləş-dirilməsi proseslərinin həyata keçirilməməsi idi. Sənaye istehsalında artım sürətinin aşağı düşməsi neft və qaz hasilatının azalması, maşınqayırma sahəsində inkişafın ləng getməsi, yeni istehsal obyektlərinin yaradılmasına lazımi əhəmiyyət verilməməsi ilə bağlı idi. Respublika iqtisadiyyatına rəhbərlikdəki ciddi nöqsanlar, ölkə miqyasında planlaşdırmada hökm sürən volyuntarizm və Azərbaycanda iqtisadiyyatın bir sıra sahələrinin inkişafına qarşı yaradılmış süni maneələr də sənayenin inkişafını ləngidirdi. Sənayedə və sosial sahədə potensialın gücləndirilməsi işində əldən verilmiş imkanlar respublikanın 60-cı illərdə sosial-iqtisadi cəhətdən geri qalmasının başlıca səbəbləri idi. Nəticədə bütün əsas sosial-iqtisadi göstəricilərə görə, Azərbaycan getdikcə başqa müttəfiq respublikalardan geri qalır, onun böyük təbii-istehsal imkanları aşağı səviyyədə istifadə olunur, iqtisadiyyatın ümumi səmərəliliyi aşağı düşürdü. 60-cı illərdə respublika iqtisadiyyatı dərin böhran keçirmək ərəfəsində idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, müharibədən sonrakı beşilliklər ərzində Sovet Azərbaycanının keçdiyi tarixi yolun əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, 1960-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi meyllər də özünü göstərməyə başlamışdı. Azərbaycan milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə görə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geri qalırdı. İqtisadiyyatdakı çatışmazlıqlar sosial sahədə əməkçilərin maddi rifah halının yaxşılaşmasındakı problemlərin həllinə mənfi təsir göstərirdi... Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi[3,səh.18].

Bütün bunlar elmin inkişafına öz mənfi təsirini göstərir, elmlə təcrübə arasında əlaqələrin zəifləməsinə, elmin qabaqcıl nailiyyətlərinin istehsala tətbiqinin ləngiməsinə gətirib çıxarırdı.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə gəlməsindən sonra respublikamızın tarixində mütərəqqi dəyişiklikləri əsası qoyuldu. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə bu illər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur.

Heydər Əliyev respublikamıza rəhbərliyə gəldiyi ilk gündən elmin inkişafıns diqqət göstərmiş, elm sahəsndə duran problemlərin həllndə aktiv iştirak etmişdr. Heydər Əliyev bu problemlər haqqında bunları demişdir: "Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər... Dissertasiyaların heç də hamısı lazımi nəzəri səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir... Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər..." [8].

Bir məsələni də qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyev elmi kadrların hazırlanmasına da kifayət qədər diqqət yetirirdi. Onun sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır [1].

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır. Həmin illərdə sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, kənd təsərrüfatında 1,8 dəfə artmışdı. Həmin illərdə sosial-iqtisadi inkişafın əksər göstəricilərinə görə Azərbaycan SSR SSRİ respublikaları arasında ön yerlərə çıxmışdı. Azərbaycan sənayesinin inkişafında müəyyənedici amillərdən biri də elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq edilməsi olmuşdur. 1971-1985-ci illər ərzində 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı; 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanılmışdı; istehsalın texnoloji proseslərini idarə etmək üçün 94 avtomatlaşdırılmış sistem işə salınmışdı. 1982-ci ilin

əvvəllərində sənayedə 73 elm-istehsal və istehsal birliyi yaradılmışdı ki, bunların da tərkibində 264 iri müəssisə vardı. Real məhsulun ümumi həcmində bunların payı 1969-cu ildəki 0,29 faizdən artaraq, 26 faizə çatmışdı. Sənaye inkişafının, ilk növbədə elmi-texniki tərəqqini müəyyən edən sahələrdə sürətləndirilməsi sənayenin ümumi məhsulunun xüsusi çəkisinin 1970-ci ildəki 22 faizdən 1985-ci ildə isə 28 faizə çatmasına səbəb olmuşdur. Bu illər ərzində milli gəlirin ümumi həcmi 2,5 dəfə artmışdı.

70-80-ci illərdə respublika əhalisinin sosial-siyasi, milli strukturunda, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizi yaxşılaşmışdı. Respublikada sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı isə üç dəfə artmışdı. Bu 14 ildə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə, əvvəlki 50 ildəkinə bərabər idi. Elektron maşınqayırması, radio sənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıqların istehsalı kimi yeni mütərəqqi sənaye sahələri Azərbaycana məhz həmin illərdə "ayaq açmışdı". Bu illərdə yüksək peşəkar səviyyəli kadrların hazırlığına da ciddi fikir verilirdi. Həyatın bütün sahələrində belə əsaslı dönüş yaratmaq üçün ilk növbədə, yüksək ixtisaslı kadrlara ehtiyac duyulurdu.

70-80-ci illərdə Azərbaycanda 703 min yerlik 1058 ümumtəhsil məktəb binası tikilib istifadəyə verilmişdi [2,səh.17]. 1991-ci ildə respublikada 4356 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi[4,s.159]. Ümumtəhsil məktəblərində hər il orta hesabla 1,4 milyona qədər şagird təhsil alırdı. Müxtəlif fənlər üzrə dərinləşmiş proqramlarla təlim verən təmayüllü internat məktəblər, o cümlədən fizika-riyaziyyat təmayüllü məktəb fəaliyyət göstəririd i.

70-80-ci illərdə Azərbaycanda ali təhsil daha da inkişaf etdi. Yeni ali təhsil ocaqları fəaliyyətə başladı. 80-ci illərin sonlarında respublikada 17 ali məktəb fəaliyyət göstərirdi[6. səh.86]. 80-ci illərin axırlarında respublikanın ali məktəblərində 8,5 min nəfər, o cümlədən 612 professor, akademik (onların 581-i elmlər doktoru), 3021 dosent dərs deyirdi[5,səh.159]. Ali məktəblərdə avtomatik idarəetmə sistemi, elektrotexnika, biokimya, rabitə texnikası kimi istehsalın və elmi texniki tərəqqinin tələb etdiyi yeni sahələr üzrə mütəxəssislər hazırlanmağa başlanmışdı. Respublika ali məktəblərinin flaqmanı olan Azərbaycan Dövlət Universitetində (indi Bakı Dövlət Universiteti) 13 min tələbə təhsil alırdı. Onların təlim-tərbiyəsinə 1200 professor-müəllim cəlb olunmuşdu [6, səh. 88]. Ali məktəblərdə hər il 100 mindən artıq tələbə təhsil alır, 17-18 min gəncə ali təhsilli mütəxəssis diplomu verilirdi [5,səh.159].

Azərbaycanın daxilində hazırlanan ali təhsilli mütəxəssislərlə yanaşı, bu ehtiyacı ödəmək üçün Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocağına 3500 azərbaycanlı oğlan və qız göndərilmişdi [6]. Hər il ali təhsil almaqdan ötrü respublikadan kənara 800-dən

artıq tələbə göndərilməsi artıq yaxşı bir ənənə şəklini almışdı. Heydər Əliyevin rəhbərliyi illərində bu iş daha da genişləndi. 70-80-ci illərdə SSRİ-nin 50-dən çox şəhərində 135 mülki, 105 hərbi ali məktəbdə respublika üçün 17 mindən çox mütəxəssis kadr hazırlanmışdı. Bütün bunlar əhalinin təhsil səviyyəsinin artmasına öz müsbət təsirini göstərirdi. 80-ci illərin sonlarında yaşı 15-dən yuxarı olan əhalinin hər 1000 nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-nı natamam orta təhsilli idi[5,səh. 135]. Həmin illərdə Azərbaycan elmi də böyük inkişaf yolu keçmişdir. Bütövlükdə 70-80-ci illər Azərbaycan elminin inkişaf tarixinə mühüm dövr kimi daxil olmuşdur. Həmin illərdə elmi müəssisələrin (ali məktəblər də daxil olmaqla) sayı 142-dən 151-ə, o cümlədən elmi-tədqiqat institutları və onların filiallarının sayı 73-dən 85-ə çatmışdı. Elmi tədqiqatla məşğul olan işçilərin sayı 17 min nəfərdən 32,3 min nəfərədək artmışdı. Onların sırasında elmlər doktorlarının sayı 1,8 dəfə artıb 1186 nəfərə, elmlər namizədlərinin sayı isə 1,7 dəfə artıb 8905 nəfərə çatmışdı.. Yüksək ixtisaslı elmi kadrlar hazırlanmasında elmi müəssisə və ali məktəblərin aspirantura və doktoranturaları əhəmiyyətli rol oynayırdı. 1990-cı ildə respublikada 1340 nəfər (o cümlədən 597 nəfər əyani) aspirant vardı. 1990-cı ildə 13 elmi müəssisədə və 3 ali məktəbdə doktorantura fəaliyyət göstərir, onlarda 36 nəfər tədqiqat işləri ilə məşğul olurdu [5. səh 162-165].Böyük elmi-texniki potensiala malik olan Azərbaycan Elmlər Akademiyası təbiət, ictimai və humanitar elmlər sahəsində fundamental araşdırmaların iri mərkəzinə, respublikada aparılan elmi işlərin əlaqələndiricisinə çevrilmişdi. Elmlər Akademiyasının altı bölməsində fizika-texnika və riyaziyyat, Yer haqqında elmlər, biologiya, kimya elmləri, tarix və iqtisadiyyat, fəlsəfə, dilşünaslıq, ədəbiyyat və incəsənət), iqtisadi və mədəni quruculuğun elm qarşısında qoyduğu mürəkkəb və mühüm məsələlər həll olunurdu. Hər il orta hesabla 350-400 nəfərdən çox gənc elmi tədqiqat işlərinə cəlb edilirdi. Azərbaycan alimləri elmin inkişafına, xalq təsərrüfatının aktual problemlərinin işlənib hazırlanmasına, elmi araşdırmaların səmərəsinin artmasına öz töhfəsini verirdilər. Azərbaycan alimlərinin bir çox işləri, xüsusən neft sənayesi ilə bağlı tədqiqatları, neft-kimya, geologiya, riyaziyyat və biologiya sahəsindəki araşdırmaları respublikanın hüdudlarından kənarda da tanınırdı. Riyaziyyat və mexanika sahəsində tanınmış elmi məktəblər yaradılmışdı. Həmin dövrdə İbrahim İbrahimov, Zahid Xəlilov, Əşrəf Hüseynov və Fərəməz Maqsudovun riyaziyyatın inkişafında böyük xidmətləri olmuşdu. 80-ci illərdə elmin inkişafı sahəsindəki xidmətlərinə görə Azərbaycan Elmlər Akademiyasının 5 alimi Lenin mükafatı laureatı adına, 14 alimi isə SSRİ Dövlət mükafatına layiq görülmüşdü.

Müstəqilliyin ilk illərində Azərbaycanda hökm sürən iqtisadi və siyasi böhran elm sahəsinə də özünün mənf təsirini göstərdi. Elmi tədqiqatlrın aparılması demək olar ki, dayandırıldı. Bir çöx elm nümayəndələri öz fəliyyətlərini xaricdə davam etdirməyə məcbur oldular. Yalnız Heydər Əliyevin yenidən

hakimiyyətə qayıtması Azərbaycanda elmi tədqiqatların aparılmasının bərpasına səbəb oldu.

## Ədəbiyyat

1.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm).
2 Azərbaycan tarixi. Yeddi cilddə. VII cild 1941-2002-ci illər. Bakı: Elm, 2008. 570 səh.
3. Heydər Əliyev. 2001-c il, Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı. 2001.
4. Mərdanov M. Azərbaycan təhsil tarixi. II cild. (1920-1991-ci illər). Bakı: Təhsil, 2011. 702 səh. səh. 96-104;
5. Müstəqil Azərbaycan 10 il. Statistika məcmuəsi. Bakı: 2001.159 səh.
6. Народное образование и культура в Азербайджанской Республике. Стат. сборник. Баку: 1992.- стр.86.
7. Развитие науки в Советском Азербайджане. Баку: 1967.
8.(https://science.gov.az/az/news/open/3639

# XX ƏSRİN II YARISI – XXI ƏSRİN ƏVVƏLLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA AZƏRBAYCANIN ORTA ƏSR ŞƏHƏRLƏRİNƏ DAİR TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

**Aydın Məmmədov**
Bakı Dövlət Universiteti
aydin.mmmdov.67@ mail.ru

***Açar sözlər:****Azərbaycan tarixşünaslığı, əhali məsksunlaşması, əhali artımı, orta əsrlər, şəhər əhalisi, tarixi demoqrafiya.*

XX əsrin ikinci yarısı Azərbaycan tarixşünaslığında bir tərəfdən dövrün ictimai-siyasi şəraiti, məhdudiyyət və qadağaları ilə, digər tərəfdən isə, ideoloji tələbləri ilə sıx şəkildə bağlı olaraq orta əsrlərdə şəhər əhalisinə dair tədqiqat əsərlərinin məhdud sayda olmasını müşahidə edə bilərik. Həmin dövrdə ictimai elmlər üzərində sərt nəzarətin olması, başlicası isə tarixi nailiyyətlərimizin üzərindən çox zaman sükutla keçilməsi, yaxud təhrif olunması Vətən tariximizin elmi-obyektiv müstəvidə işıqlandırılmasına ciddi əngəllər törətmişdi. Lakin mövcud çətinliklərə baxmayaraq,həmin dövrdə Azərbaycan tarixşünaslığında orta əsrlər şəhər əhalisinə dair bir sıra qiymətli tədqiqat əsərləri işıq üzü görmüşdür. Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra tarix elmi üzərində ideoloji buxovların, məhdudiyyətlərin aradan qaldırılması ilə,xüsusən XXI əsrin əvvəllərində Azərbaycan tarixşünaslığındaorta əsrlər dövrünə, o cümlədən sözügedən dövrün şəhər əhalisinə dair daha sanballı, elmi-obyektiv tədqiqat əsərləri meydana gəlmişdir. Bütövlükdə XX əsrin ikinci yarısı – XXI əsrin əvvəllərində Z.Bünyadov, M.Şərifli, Ə.Əlizadə, C.İbrahimov, Y.Mahmudov, K.Şükürov və bir çox başqa tarixçilər orta əsrlər dövrünün müxtəlif mərhələlərinə, o cümlədən orta əsr şəhərlərimizdə baş vermiş sosial-siyasi, iqtisadi hadisələrin, əhali məskunlaşmasına, onun təbii və mexaniki artımına, ümumiyyətlə, nəsil artımına təsirini elmi-obyektiv müstəvidə araşdırmağa və tarixi demoqrafik mühiti ətraflı təsvir etməyə nail olmuşdular.

## ВОПРОСЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ В ИССЛЕДОВАТЕЛЬСКИХ РАБОТАХ ПО СРЕДНЕВЕКОВЫХ ГОРОДОВ АЗЕРБАЙДЖАНА В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ ВО ВТОРОЙ ПОЛОВИНЫ XX ВЕКА – НАЧАЛА XXI ВЕКА

**Айдын Мамедов**

***Ключевые слова:*** *историография Азербайджана, народонаселения, рост населения, средние века, городское население, историческая демография.*

В азербайджанской историографии во второй половине XX века можно наблюдать ограниченное количество исследований городского населения в средние века, тесно связанных с общественно-политическими условиями, ограничениями и запретами того времени, с одной стороны, и идеологические требования, с другой. В то время жесткий контроль над общественными науками, нередко замалчивание или искажение наших исторических достижений серьезно мешали научному и объективному освещению истории нашей страны. Однако, несмотря на существующие трудности, в то время в азербайджанской историографии был опубликован ряд ценных исследовательских работ по средневековому городскому населению. После восстановления независимости Азербайджана, со снятием идеологических оков и ограничений с исторической науки, в начале XXI века в Отечественной историографии появились более значимые, научно-объективные исследования средневекового городского населения этого периода. В целом, во второй половине XX века – начале XXI века многие азербайджанские историки, такие как З.Буньядов, М.Шарифли, А.Ализаде, Дж.Ибрагимов, Я.Махмудов, К.Шукюров и другие, смогли изучать на научно-объективном плоскости влияние общественно-политических, экономических факторов на таких демографических процессов какнародонаселения, а также естественный и механический прирост населения в наших средневековых городах.

## ISSUES OF HISTORICAL DEMOGRAPHY IN RESEARCH WORKS ON THE MEDIEVAL CITIES OF AZERBAIJAN IN MOTHERLAND HISTORIOGRAPHY IN THE SECOND HALF OF XX - BEGINNING OF XXI CENTURIES

**Aydin Mammadov**

***Key words:*** *historiography of Azerbaijan, population, population growth, Middle Ages, urban population, historical demography*

In Azerbaijani historiography in the second half of the 20th century, one can observe a limited number of studies of the urban population in the Middle Ages, closely related to the socio-political conditions, restrictions and prohibitions of that time, on the one hand, and ideological requirements, on the other. At that time, strict control over the social sciences, often hushing up or distorting our historical achievements seriously interfered with the scientific and objective coverage of the history of our country. However, despite the existing difficulties, at that time a number of valuable research works on the

medieval urban population were published in Azerbaijani historiography. After the restoration of the independence of Azerbaijan, with the removal of ideological shackles and restrictions from historical science, at the beginning of the 21st century, more significant, scientifically objective studies of the medieval urban population of this period appeared in the Motherland historiography. In general, in the second half of the 20th century - the beginning of the 21st century, many Azerbaijani historians, such as Z. Bunyadov, M. Sharifli, A. Alizade, J. Ibrahimov, Y. Mahmudov, K. Shukurov and others, were able to study on a scientific-objective plane the influence of socio-political, economic factors on demographic processes such as population settlement, natural and mechanical population growth, and etc. in our medieval cities.

Vətənimizin əlverişli geostrateji mövqedə yerləşməsi, zəngin təbii resurslara o cümlədən, ilk istehsal sahələrindən olan, bol qida ehtiyatı üçün etibarlı zəmin yaradan maldarlığın və əkinçilyin inkişaf etdirilməsi üçün geniş imkanlara malik olması insanların bu ərazidə qalaraq yaşamalarına səbəb olmuşdur. Son Tunc dövründən başlayaraq ticarətin müstəqil sahəyə çevrilməsi, üzərində şəhərlərin əmələ gələcəyi tranzit əhəmiyyətli yolların ölkəmizin ərazisindən keçməsi burada məskunlaşma prosesisnin daha da güclənməsinə təkan vermiş oldu. Məhz bu amillər alimlərimizə Azərbaycanda yaranması və məskunlaşması orta əsrlərə aid edilən şəhərlərimizin tarixinin əslində daha qədimlərə gedib çıxması fikrini konkret faktlarla sübut etmək imkanlarını verir. Məsələn, İ. Əliyevin F. Qədirovla yazdıqları “ Qəbələ” adlı kitabda müəlliflər Qəbələ şəhərinin Sasani hökmdarı I Qubadın dövründə salınması faktı ilə barışmırlar: “ Qəbələdən keçən qədim karvan yolu qalıqları sübut edir ki, Qəbələ şəhəri e. ə. III-b.e. III əsrlərində Qərb və Şərqin bir çox ölkələri, o cümlədən Roma, Parfiya və Sasani imperiyalarına daxil olan vilayətlərlə geniş ticarət əlaqələrində olmuşdur” [4, s.12]. Müəlliflər həmçinin burada Makedoniyalı İskəndərin, Selevki, Yunan-Baktriya, Parfiya çarlarının, Roma imperatorlarının, Sasani şahlarının adlarından kəsilən çoxlu sayda pul dəfinələrinin tapılmasına istinad edərək: “Lakin yuxarıda verilən məlumatlardan göründüyü kimi, Qəbələ I Qubaddan xeyli əvvəl mövcud olmuşdur. Ona görə də şəhərin bu İran şahı tərəfindən əsasının qoyulması fikri ilə razılaşmaq olmaz” [4, s.13].

Qəbələ şəhərinin salınma tarixi ilə bağlı məsələyə M. Şərifli də eyni mövqedən yanaşır: “ Qəbələ Albaniyanın qədim şəhərlərindən biridir. Məşhur yunan alimi Klavdiy Ptolemey Albaniya şəhər və qəsəbələrinin adlarını sadaladığı zaman Qəbələnin adını çəkmişdir.” Məhz bu fakta istinad edən M. Şərifli ərəb tarixçisi Yaqut Həməvinin: “Qəbələ qədim şəhərdir, Qubad şah tərəfindən Dərbənd yaxınlığında bina edilmişdir.” fikri ilə razılaşmır və: “ Bu məlumatdan göründüyü kimi Qəbələ miladın əvvəllərində mövcud olmuşdur” – deyə, yazır [8, s.293].

Özünün də qeyd etdiyi kimi, atası Bakıda doğulan orta əsrlərin tanınmış alimi Əbdürrəşid əl-Bakuvinin XV əsrin əvvəllərində yazdığı " Abidələrin xülasəsi və Qüdrətli hökmdarın möcüzələri " adlı əsərində Azərbaycanın şəhər və digər məskunlaşma yerləri haqqında son dərəcə qiymətli məlumatlar verilmişdir.Qeyd etmək yerinə düşərdi ki, görkəmli alim Ə.Bakuvinin Azərbaycan dilində 1992- ci ildə ilk dəfə işıq üzü görən bu əsərini ərəb dilindən tərcümə edən, ona müqəddimə və şərhlər yazan Z.Bünyadovun: "...xüsusilə Bakı haqqında olan dəqiq məlumatlar, bu ölkə ilə yaxşı, bəlkə də şəxsi tanış olmasına işarədir" fikrində böyük həqiqət vardır. Çünki, elə Z. Bünyadovun təbirincə desək, ancaq Bakıda yaşayan, ya da hər halda atasının vətənində olan bir insan gördüyü, sevdiyi, ona doğma olan şəhər haqqında belə geniş, maraqlı məlumat verə bilər [2, s.3].

Lakin sözügedən əsərdə diqqəti cəlb edən başqa bir məqam müəllifin Azərbaycanın orta əsrlər şəhərsalma mədəniyyətinə, xüsusən də mühüm demoqrafik proses olan şəhərlərdə əhali məskunlaşmasına dair verdiyi məlumatlardır. Əbdürrəşid əl-Bakuvinin şəhərlərin salınmasının məskunlaşma üçün yararlı ərazilərlə, təbii- coğrafi baxımdan əlverişli yerlərlə bilavasitə bağlı olması,eyni zamanda şəhərlərin salınmasını Allahın iradəsi kimi təqdim etmişdir: "Allah Təala insanlara divar, xəndək və hasar tikməyi təlqin edib.Beləliklə, şəhərlərlər, kəndlər və məntəqələr əmələ gəldi. Və keçmişin padşahları müdrik adamların məsləhətiylə özləri üçün ölkədə ən yaxşı vilayəti, bu vilayətdə ən yaxşı yeri və bu yerdə, dəniz və çay sahilində, dağlarda və şimal küləyindən qorunan mahalı seçirdilər" [2, s.9].

Buradan müəllifin orta əsr şəhərlərində əhalinin məskunlaşmasının təkcə təbii deyil, eləcə də antropogen amillərdən asılılığını ön plana çəkməsi, bununla da onun şəhərsalma mədəniyyətinə son dərəcə gözəl bələd olması məlum olur.Axı, müharibələrin, aclıq, quraqlıq o cümlədən kütləvi epidemiyaların tez-tez baş verdiyi orta əsrlərdə qəfil düşmən hücumlarından qorunmaq üçün həm möhkəm müdafiə divarları, həm də qorxulu, sürətlə yayılan xəstəlikər zamanı əhalinin sıx toplaşmaması üçün qabaqlayıcı tədbirlər görülməli, zəruri şərtlər əvvəlcədən nəzərə alınmalı idi: "Onlar şəhər ətrafına möhkəm divar çəkir, divarların içində çoxlu qapı-darvazalar açırdılar ki, insanlar gediş-gəliş vaxtı toplaşmasınlar" [2, s.9].

Tariximizdə baş verən bütün mühüm siyasi hadisələr, təbəddülatlar demoqrafik proseslərə ciddi təsir göstərmişdir. VII əsrdən başlayaraq: "Ərəb istilası ilə əlaqədar tarixi Azərbaycan ərazisində aparılan hərbi əməliyyatlar şəhər və kəndlərə böyük ziyan vurdu. Yaxın Şərqdəki bir çox şəhərləri nisbətən asanlıqla, "iqtisadiyyata ciddi zərər yetirmədən" tutan ərəblər Azərbaycan şəhərlərinin əksəriyyətində kəskin müqavimətlə rastlaşdılar. Şəhər təsərrüfatına dəyən böyük zərər nəticəsində bir sıra şəhərlər tənəzzül etdi" [6, s.105-106]. Lakin sonralar ərəblərin Bizansın Qara dənizdən keçən əsas ticarət yolunun

istiqamətini dəyişərək, onu Şərqə-Xəzər dənizi sahillərinə yönəltməsi Azərbaycan şəhərlərinin yenidən canlanmasına səbəb oldu. Ərəb mənbələrində, xüsusən də IX-X əsr ərəb müəllifləri –İbn Xordadbeh, Əl İstəxri, əl-Müqəddəsi və b. əsərlərində Azərbaycanın çoxlu sayda şəhər və kəndlərinin, yaşayış məntəqələrinin adları çəkilir.

IX əsrin ikinci yarısında Ərəb xilafətinin zəifləməsilə bağlı Azərbaycanda Sacilər, Salarilər, Şirvanşahlar, Şəddadilər, Rəvvadilər kimi güclü feodal dövlərlərin yaranması ilə Vətən torpaqlarının yenidən vahid dövlət daxilində birləşməsi baş verdi. Bu ilk növbədə ölkənin müdafiə qabiliyyətinin artması, xaricdən olan dağıdıcı hücumların qarşısının qətiyyətlə alınması, əhalinin təbii artımı və məskunlaşması üçün zəruri olan siyasi sabitliyin əldə olunması demək idi. Bu həm də: "Şəhərlərin inkişafı, şəhər həyatının yüksək tərəqqisi o cümlədən, Yaxın Şərq regionu ilə əlaqələrinin canlanması demək idi" [11, s.51].

Azərbaycanın XX əsrin ikinci yarısı, XXI əsrin əvvəlləri tarixşünaslığında orta əsr şəhərlərinə dair tədqiqat əsərlərini nəzərdən keşirdikdə də bu qənaətə gəlmək olur. Belə ki, sözügedən problemlə bağlı tarixçi alimlərimzin tədqiqat əsərlərində Azərbaycanın orta əsrlər şəhərlərində məskunlaşmanın heyrətamiz dərəcədə yüksək səviyyədə olmasının şahidi oluruq. Görkəmli tarixçi Ə. Əlizadə "XIII-XIV əsrlərdə Azərbaycanın ictimai-iqtisadi və siyasi tarixi" adlı məşhur əsərində XIII əsrin anonim müəllifinin "Əcaib əd-dünya" əsərinə istinadən Azərbaycan şəhərlərini abad, hər cür həyat vasitələrilə gen-bol təchiz edilmiş, bu səbəbdən də yaxşı məskunlaşmış yaşayış məskənləri kimi təsvir edir.

Tarixçi alimlərimiz şəhərlərin salınması ilə bağlı demək olar ki, bütün mövcud, yerli və xarici mənbələri müqayisəli təhlil yolu ilə nəzərdən keçirir, məskunlaşmanın yüksək səviyyədə olmasını şərtləndirən obyektiv amilləri diqqətdən kənarda qoymamağa çalışırlar. R.Göyüşov "Qarabağın keçmişinə səyahət" adlı əsərindəBərdə şəhərinin salınması ilə bağlı hələ də cavabını gözləyən suallara münasibətini belə bildirir: "Bütün orta əsrlər boyu qocaman Şərqin ən möhtəşəm şəhərlərindən biri olan Bərdə nə vaxt və kimlər tərəfindən salınmışdır? Bu suala indiyə kimi dəqiq cavab tapılmamışdır". Müəllif şəhərin salınması ilə bağlı VII əsr tarixçisi M. Kalankatlının Bərdənin Albaniya hökmdarı Vaçe tərəfindən Sasani hökmdarı Firuzun dövründə (459-484) bina edilməsi fikrini başqa bir mənbənin məlumatı ilə tutuşdurur: "Fars tarixçisi Həmdullah Qəzvini isə şəhərin tikilmə tarixini daha qədimlərə aparır. Onun fikrincə bu şəhər ilk dəfə Makedoniyalı İsgəndər tərəfindən tikilmiş, sonralar isə Sasani hökmdarı Qubad tərəfindən genişləndirilmişdir" [5, s.38].Lakin, müəllif: "Əlbəttə, bu fikir yanlışdır. Ona görə ki, tarixi faktlar nəticəsində qəti müəyyən olunmuşdur ki, Makedoniyalı İsgəndər heç vaxt Azərbaycanda olmamışdır" – deyə, sözügedən mənbəyə tənqidi münasibətini bildirir. R.Göyüşov Bərdə şəhərinin salınması ilə bağlı mövcud olan mənbələrin demək

olar ki, hamısını müqayisə etməyə cəhd göstərərək, bu dəfə də nəzərlərini ərəb müəlliflərinə yönəldir: " Şəhərin tikilməsi tarixi haqqında ərəb müəllifi əl-Bəlazurinin fikri diqqəti daha çox cəlb edir. O, yazmışdır ki, "Sasani hökmdarı Qubad (484-531) Arranda bütün ölkənin baş şəhəri olan Bərdəni tikdirdi" [5, s.38].

Müəllif bu dəfə də mənbənin məlumatı ilə razılaşmır, haqlı olaraq hesab edir ki, Sasanilər ölkənin paytaxtını Bərdəyə köçürəndə artıq Bərdə şəhəri mövcud idi. Digər tərəfdən müəllif Bərdədən arxeoloji qazıntılar nəticəsində antik dövrə dair zəngin mədəni təbəqənin aşkar olunması faktını israrla irəli sürərək, şəhərin guya Əbdül Məlik ibn Mərvanın (685-705) dövründə Məhəmməd Maraği və yaxud 704-cü ildə Əbdül Əziz ibn Hatəm adlı şəxslər tərəfindən tikilməsi faktlarının da tarixi reallıqla heç bir əlaqəsi olmadığını qətiyyətlə bildirir. Beləliklə, tədqiqatçı sözügedən şəhərin tikilməsi tarixi haqqında yazılı mənbələrdəki məlumatları yazıyaqədərki arxeoloji maddi mədəniyyət nümunələri ilə müqayisəli şəkildə təhlil edərək, Bərdə şəhərinin artıq antik dövrdən sıx məskunlaşmaya malik möhtəşəm şəhər, yaşayış yeri olması qənaətinə gəlir [5, s.39]. Bu Azərbaycanda orta əsrlər şəhərsalma mədəniyyətinin sirf mənsub olduğu zaman kəsiyində deyil, özündən daha qədim tarixi dövrlərdə formalaşdığını aydin şəkildə göstərir. Və yaxud, Azərbaycanda olsun ki, hələ orta tunc dövründən, yəni tarixən ilkşəhərlərin meydana gəldiyi vaxtlardan üzü bəri məskunlaşma prosesi eyni yaşayış yerlərində arasıkəsilmədən, fasiləsiz olaraq davam etmişdir.

M.Şərifli yazır ki, bir sıra Azərbaycan şəhərlərinin, xüsusilə, Bərdə, Şamaxı, Şabran, Dərbənd, Görkərə, Məsqət, Beyləqan, Qəbələ və s. şəhərlərin Sasani şahlarının, xüsusilə, Ənuşirəvanın dövründə bina edilməsi haqqında yazaraq, bu şəhərlərin artıq III-VII əsrlərdə mövcud olduğunu nəzərə çatdırır[8, s.291].

Burada Azərbaycanın görkəmli memarı Davud Axundovun Bakı şəhərinin tarixi ilə baglı fikirlərini xatırlamamaq olmur. Onun fikrincə Bakıdakı məşhur Qız Qalasının yaşı XII əsrə deyil, e.ə.VIII-VII əsrlərə aiddir [10, s.98]. D.Axundov bir sıra tədqiqatçıların Bakının qədim adlarından birinin, yaşı ən azı üç-dörd min il olan Xunsar və yaxudXunzar olması fikri ilə barışır [10, s.73].O, belə hesab edir ki, Abşeronda artıq e.ə. VIII-VII əsrlərdə tarixi hələ e.ə. II, yaxud ola bilsin ki, III minilliklərə gedib çıxan neft mədənləri mövcud imiş. Bu fakta istinadən müəllif burada məskunlaşma prosesinin tarixini III-II minilliklərə aid edir: "Arxeoloji qazıntılar nəticəsində əldə olan nəticələrə görə, Abşerondakı yaşayış məskənlərinin böyük əksəriyyəti III-II minilliklərə aiddi." [10, s.98].

Müəllif bütün bu amilləri nəzərə alaraq, Azərbaycanın orta əsrlərə dair şəhərlərində məskunlaşmanin yüksək səviyyədə olması qənaətinə gəlir. Elə R.Göyüşov da Bərdə ilə bağlı mülahizələrində sözügedən dövrdə şəhərin sıx

məskunlaşması faktını xüsusi olaraq vurğulayır: “Mənbələrin verdiyi məlumata görə VII-IX əsrlərdə Bərdə şəhərinin uzunluğu 5-6 km olub, ətrafına möhkəm qala divarları çəkilmişdir. Dəmirdən böyük darvazaları olan bu qala divarları o dərəcədə möhtəşəm olubdur ki, ciddi təhlükələr zamanı nəinki şəhərin öz əhalisi, hətta bütün ətraf ərazinin əhalisi də düşməndən müdafiə olunmaq üşün buraya pənah gətirirlərmiş. Həmin dövrdə Bərdədə 100 mindən çox adam yaşayırmış” [5, s.39].Gətirilən iqtibasdan məlum olur ki, şəhərdə əhalinin sıx məskunlaşması səbəblərindən biri müharibələrin tez-tez baş verdiyi orta əsrlərdə qəfil, yaxud aramsız düşmən hücumlarından, uzun sürə biləcək mühasirələrdən qorunmaq üçün Bərdənin möhkəm müdafiə divarlarına malik olması imiş. Lakin, təkcə bu amil orta əsr şəhərlərində məskunlaşmanin yüksək səviyyədə olması üşün yeganə səbəb ola bilməzdi.

Sözügedən dövrdə şəhərlərin sıx məskunlaşması hər an kütləvi insan tələfatı ilə nəticələnə biləcək epidemiyaların qarşısının alınması üçün sanitar qaydaların yaradılması, şəxsi gigiyena qaydalarına əməl edilməsini də qətiyyətlə tələb edirdi. Digər tərəfdən sıx məskunlaşma şəhər infrastrukturunun da inkişafını zəruri edirdi. Ona görə də orta əsr şəhərlərində çoxlu ictimai tikililər o cümlədən ticarət obyektləri olurdu: “Şəhərdə (Bərdədə - A.M.) 4 böyük bazar, xüsusi sənətkarlıq məhəllələri, bir neçə hamam və Şərq memarlığı üslubunda tikilmiş çoxlu dini və ictimai binalar mövcud olmuşdur”. Yuxarıda haqqında bəhs etdiyimiz Əbdürrəşid əl-Bakuvi də sözügedən əsərində böyük şəhərlərdən bəhs edərkən: “Şəhərlərin ən yaxşı məhəllələrində hakim üçün məclislər, adi və cümə məscidlər, bazarlar, karvansaralar və hamamlar üçün yer ayırırdılar. Başqa yerləri isə insanların özləri üçün saxlayırdılar” [2, s.9].

Z.Bünyadov yazır ki, XI əsrdə Azərbaycan Atabəylər dövlətinin yaranması da Azərbaycanın orta əsr şəhərlərinin inkişafina müsbət təsir göstərdi: “Azərbaycan Atabəylərinin hakimiyyət dövrü ölkədə şəhər həyatının çiçəklənməsi əsridir. Bu dövrdə Azərbaycanın bir çox şəhərləri orta əsr sənətlərinin bütün növlərini özündə toplamış iri yaşayış məntəqələri idi” [3, s.185].

Azərbaycanın orta əsr şəhər və kəndlərində əhalinin məskunlaşması, dinc yaşayışının təmin olunması müdrük dövlət xadimlərini də narahat edirdi. Səlcuq sultanlarından Alp Arslanın və onun oglu Məlikşahın vəziri olmuş, bir neçə ölkəni özündə birləşdirən əzəmətli Səlcuq dövlətinin otuz il ərzində, demək olar ki, bütün ixtiyaratını öz əlinə keçirmiş yüksək idarəetmə məharəti ilə böyük şöhrət tapmış Xacə Nizamülmülk Həsən ibn Əliyə görə,dövləti idarə edən Şah əhalinin dinc asayişini, rahat yaşayışını, məskunlaşmasını təmin etmək üçün ən zəruri tədbirləri həyata keçirməlidir.Başqa sözlə desək, Nizamülmülkə görə Şah-dünyanın abadlıgı ilə məşğul olmalı, kəhrizlər çəkdirməli, arxlar qazdırmalı, böyük çaylar üzərində körpülər saldırmalı,kəndləri abad etməli, qalalar ucaltmalı,yeni şəhərlər saldırmalı, yüksək binalar, gözəl malikanələr tikdirməli, böyük cadələrdə (karvan yollarında) karvansaralar yaradılmasına

əmr etməlidir [6, s.107].Nizamülmülk məmurların xalqla mədəni rəftarına da yüksək diqqət yetirmişdir: "İqtası olan iqtadarlar bilməlidirlər ki, onların rəiyyət üzərindəki haqqları yalnız ondan ibarətdir ki, onlara həvalə edilmiş vergiləri rəiyyətdən xoşluqla alsınlar.Aldılarmı, onların canları, malları, arvad-uşaqları əmin-amanlıqda olmalıdır. Ev-eşiklərinə dəyilməməlidir. İqtadarlar onların yolu üzərində maneə olmamalıdırlar".

Bundan basqa Nizamülmülk əhalinin məskunlaşdıgı yerləri tərk etməməsi üçün, məmurlara tövsiyə edərərək yazırdı ki, rəiyyətdən biri yoxsullasıb, öküzə, toxuma ehtiyacı olsa, ona əl tutub borc vermək, yükünü yüngülləşdirmək lazımdır ki, yerində qalsin, evini tərk edib, qürbət vilayətlərə getməsin. Rəiyyətdən nə isə artıq alınsa, onu dərhal geri qaytarmaq və rəiyyətə vermək lazımdır.

Məhz bu səbəbdən də sözügedən dövrdə şəhərlər ənənəvi olaraq sənət və ticarət mərkəzləri kimi yenidən tərəqqi edir, əhalinin təbii artımında heyrətamiz yüksəliş baş verirdi: "Şəhərlər həm daxili, həm də xarici ticarətin mərkəzi rolunu oynayırdı. Əgər Naxçıvan, Beyləqan, Təbriz və Şamaxıda 100 min və daha artıq, Gəncədə isə yarım milyona qədər əhali yaşadığını nəzərə alsaq, onda aydındır ki, bu inkişaf kənd yerlərindən şəhərlərə əhali axınını tələb edən yüksək inkişaf etmiş çoxsahəli kustar sənayedə çalışan adamların sayının artması hesabına yaranırdı" [3, s.185].Görkəmli tarixçi alimimiz Z. Bünyadovun əhali məskunlaşması probleminə belə yanaşması əslində Azərbaycanın orta əsr şəhərləində əhalinin kəndlərdən axını hesabına urbanizasiya prosesinin nə qədər yüksək tempdə getdiyini aydın şəkildə göstərir. Deməli, orta əsrlərdə əhalinin kəndlərdən şəhərlərə axını təkcə Avropa ölkələrində deyil, Azərbaycanda da baş vermişdir. Əgər Avropada urbanizasiya manufakturaların yaranması ilə bağli idisə, Azərbaycanda bu proses yüksək inkişaf etmiş çoxsahəli kustar sənaye sahələrinin geniş yayilması və işçi qüvvəsinə böyük tələbatı ilə bağlı olmuşdur.

Təbii ki, Azərbaycan tarixinin müharibələrlə müşayət olunan dövrlərində orta əsr şəhərlərimizdə əhalinin kəskin azalması halları daolmuşdur. Xüsusən yurdumuza monqol qoşunlarının hücumları şəhərlərimizin yerlə yeksan edilməsi, təbii və mexaniki artımın kritik həddə enməsi ilə nəticələnmişdir: "Ərdəbil və Beyləqan şəhərləri 7-8 il ərzində əhalidən məhrum olmuş, viran edilmiş vəziyyətdə qaldı" [1, s.57].Azərbaycanda möhkəmlənmək uğrunda Qızıl Orda dövlətinin Hülakülərlə apardığı amansız mübarizə nəticəsində yurdumuzu hərbi əməliyyatlar meydanına çevirdi. Təbii ki, hərbi əməliyyatların ağır nəticələri demoqrafik proseslərdən də yan ötmədi. Sözügedən dövrün tanınmış tədqiqatçısı Ə.Əlizadənin təbirincə desək: "Şəhərlər və kəndlər dağıdılır və qarət edilir, əkin sahələri tapdağa məruz qalaraq zay edilir, bir sıra hallarda isə memarlıq abidələri uçurdulurdu". Və yaxud sözügedən dövr və problemlə bağlı, yəni monqol işğallarından sonra Azərbaycanın orta əsr şəhərlərində əhalinin olduqca azaldığını göstərmək üçün başqa bir tədqiqat əsərində

oxuyuruq: “XIII əsrin sonuna kimi Naxçıvandan Məhəmməd Naxçıvaninin dediyinə görə hər on evdən altısında adam yaşayırdı” [7, s.52].

Sözügedən dövrün demoqrafik mənzərəsilə Azərbaycanın XXI əsrin əvvəllərində işıq üzü görən tədqiqat əsərlərində də rastlaşmaq olur. R.Məmmədovun “Şimali Azərbaycan şəhərləri VII-XIV əsrlərdə” adlı əsərində oxuyuruq: “ Xalq içərisində monqolların çəyirtkə kimi hər yerə daraşdıqlarından danışılırdı. Əhali dövlətə və feodallara qırxadək vergi verir, mükələfiyyət daşıyırdı”[13, s.288].

Məlumdur ki, hər bir dövrdə əhalinin təbii artım səviyyəsi siyasi sabitliklə bahəm, birinci dərəcəli, vacib təbii nemətlərin dolanışıq və artım üçün bəs edəcək zərurimiqdarda istehsalı ilə də bağlıdır. Monqolların əkin sahələrini örüşlə əvəz etmələri əhalinin iqtisadi və deməli demoqrafik vəziyyətinə də olduqca mənfi təsir göstərdi. R.Məmmədov haqlı olaraq köçəri həyat sürən monqolların dağıdıcı fəaliyyəti sayəsində Azərbaycanın vaxtı ikən əhali ilə sıx məskunlaşmış şəhərlərinin tənəzzülə uğrayaraq bir qisminin öz əhəmiyyətini itirərək kiçik yaşayış məntəqələrinə çevrildiyini, bir qisminin isə tamamilə yox olduğunu yazır [13, s.288].

Azərbaycanın şəhərlərinin orta əsrlərdə düşmənlərin hücumları nəticəsində bəzən yox olmaq, yaxud tamamilə dağılmaq təhlükəsilə üzləşdiyini dövrün mənbələrinə istinadən Xəzərlərin 626-627-ci illər hücumlarından bəhs edərəkR.Hüseynzadə yazır: “626-cı ilin sonlarında Xəzərlər Azərbaycana soxulub Kürə qədər irəliləyərək xeyli qənimət: əsir, mal, qızıl qablar, bahalı paltarlar ələ keçirdilər. ...627-ci ildə Dərbəndə hücüm edərək şəhəri özülünə qədər dağıtdılar,nə cavana, nə qadına, nə kişiyə, nə də ki, qocalara belə aman verməyərək hamısını bir ucdan qırdılar” [12, s.167].

Müəllifin istinad etdiyi mənbəXəzərlərin hücumunu qamışlığa düşən oda bənzədir. Bu isə əhalinin təbii artım səviyyəsinin də aşağı düşməsindən xəbər verir. Digər tərəfdən burada sağ qalan yerli əhalinin başını götürüb qaçması, məcburi miqrasiya prosesinə məruz qalması faktının da şahidi oluruq: “Dərbəndin aqibətini eşidən Qafqaz Albaniyasının əhalisi paytaxt Bərdəyə, oradan da Qarabağin dağlarına qaçdılar. Lakin düşmən onlardan bir qismini dağın ətəyində haqlaya bildi” [12, s.167].

XXI əsrin əvvəlləri Azərbaycan tarixşünaslığında bir sıra tədqiqat əsərində, o cümlədən K.Şükürovun (Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). B., Elm, 2004, 974 s.), Y.Mahmudovun (Азербайджан: краткая история государственности. Б., Тахсил, 2005, 160 с.); Azərbaycan diplomatiyası. B., Təhsil, 2006, 416 s.), F.Abasovun (Гарабагское ханство. Б., Тахсил, 2007, 278 с.), X.Qasımovun (Orta əsrlərdə Azərbaycan mədəniyyəti. B., Aspoliqraf, 2008, 448 s.), F.Bağırovun (Переселенческая политика царизма в Азербайджане (1830 – 1914 гг.). М., Маросейка, 2009, 704 с.), E.Əlibəyovanın (Вопросы древней истории Азербайджана в российской историографии XIX – начала XX вв. Б.,

Təhsil, 2009, 224 c.), N.Bayramovanın (Şamaxı xanlığı. B., Təhsil, 2009, 396 s.), N.Vəlixanlının (Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. B., Elm və təhsil, 2016, 480 s.), Ş.Fazilin (Quba tarixi. B., TEAS Press, 2016, 700 s.) və d. tarixçi-alimlərin monoqrafiyalarında Azərbaycanın orta əsr şəhərlərində əhalinin məskunlaşması, təbii və mexaniki artımı, miqrasiyası kimi demoqrafik proseslər geniş şəkildə öz əksini tapmışdır.

Gətirilən nümunələrdən bir daha aydın olur ki, Azərbaycanın orta əsr şəhərlərində istərəhalinin azalması,istərsə də artması ölkəmizdəsözügedən dövrdə cərəyan edən siyasi hadisə və proseslərdən bilavasitə asılı olmuşdur.Bütün bu məlumatlar Azərbaycanın orta əsrlər şəhərsalma işinin yüksək səviyyədə, elmi bilgilərə əsaslanaraq təşkil olunduğunu o cümlədən, orta əsr şəhərlərində əhalinin sıx məskunlaşmasının obyektiv səbəblərini aydın şəkildə göstərir.

**Ədəbiyyat**

1. Azərbaycan tarixi. 7 clddə. III cild. Bakı, Elm, 2007.592 s.
2. Bakuvi Ə. Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Bakı, Şur, 1992, 176 s.
3. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, Elm, 1984, 268 s. s185.
4. Əliyev İ., Qadirov F. Qəbələ. Bakı, Elm, 1985, 88 s.
5. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, Azərnəşr, 1993, 83 s.
6. Məmmədov A. Tarixi demoqrafiya. Bakı, ADMİU, 2019, 231 s.
7. Muradov V. Orta əsr Azərbaycan şəhərləri. Bakı, Maarif, 1983, 157 s.
8. Şərifli M. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, Elm, 1978, 343 s.
9. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, АН СССР, 1956, 420 с.
10. Ахундов Д. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, Азернешр, 1986, 311 с. С.98
11. Бретаницкий Л., Веймарн Б. Искусство Азербайджана IV-XVIII веков. Москва, Искусство, 1976, 271 с. 51.
12. Гусейн-заде Р.А. Тюрки дешт-и-кипчака и окружающий мир: симбиоз кочевой степи и оседлого оазиса. Баку, Афполиграф, 2019, 248 с.
13. Мамедов Р.А. Города северного Азербайджана VII–XIV вв. (социально-экономическая и культурная история). Баку, Elm və Təhsil, 2015, 480 с.

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ SSRİ-DƏ QARAÇAYLARIN VƏ BALKARLARIN DEPORTASİYASI

**Balamirzə Məmmədli**
Bakı Dövlət Universiteti
*balamirza.mammadli@bsu.edu.az*

***Açar sözlər:*** *SSRİ, İkinci Dünya müharibəsi, qaraçaylar, balkarlar, deportasiya.*

İkinci dünya müharibəsi zamanı SSRİ-də xalqların deportasiyası problemi hələ də tam tədqiq edilməmişdir və buna görə də hazırda bir çox tarixçilərin tədqiqat obyektidir. Sovet tarixşünaslığında xalqların deportasiyası probleminə uzun illər birtərəfli və səthi yanaşılmış, yalnız Sovet İttifaqının süqutundan sonra məxfi arxiv fondlarının açılması sayəsində problemin öyrənilməsinə elmi-obyektiv yanaşma mümkün olmuşdur. Nasist Almaniyası ilə müharibə şəraitində SSRİ-də deportasiya olunan çoxsaylı xalqlar içərisində Qafqazın türk mənşəli etnik qrupları olan qaraçaylar və balkarlar diqqəti cəlb edir. Məqalədə, müharibə illərində qaraçayların və balkarların siyasi, sosial-iqtisadi vəziyyəti, ön və arxa cəbhədə iştirakı, onların hansı səbəblərdən və necə deportasiya olunması, habelə köçürülənlərin sonrakı taleyi araşdırılmışdır.

## ДЕПОРТАЦИЯ КАРАЧАЕВЦЕВ И БАЛКАРЦЕВ В СССР В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

**Баламирза Мамедли**

***Ключевые слова****: СССР, Вторая мировая война, карачаевцы, балкарцы, депортация.*

Проблема депортации народов в СССР в годы Второй мировой войны еще не до конца изучена и поэтому является предметом исследования многих историков. Долгие годы проблема депортации народов трактовалась в советской историографии однобоко и поверхностно, и только после распада СССР, благодаря открытию секретных архивов, стал возможен научно-объективный подход к изучению проблемы. Среди многих народов, депортированных в СССР во время войны с нацистской Германией, обращают на себя внимание карачаевцы и балкарцы, тюркские этносы Кавказа. В статье рассматривается политическое, социально-экономическое положение карачаевцев и балкарцев в годы войны, их участие на фронте и в тылу, причины и способы их депортации, а также судьба «спецпереселенцев».

# DEPORTATION OF KARACHAYS AND BALKARS IN THE USSR DURING WORLD WAR II

**Balamirza Mammadli**

***Key words:*** *USSR, World War II, Karachays, Balkars, deportation.*

The problem of the deportation of peoples to the USSR during the Second World War has not yet been fully studied and therefore is the subject of research by many historians. For many years, the problem of the deportation of peoples was treated in Soviet historiography one-sidedly and superficially, and only after the collapse of the USSR, thanks to the opening of secret archives, a scientific-objective approach to studying the problem became possible. Among the many peoples deported to the USSR during the war with Nazi Germany, Karachays and Balkars, the Turkic ethnic groups of the Caucasus, attract attention. The article discusses the political, socio-economic situation of Karachays and Balkars during the war years, their participation at the front and in the rear, the reasons and methods for their deportation, as well as the fate of "special settlers".

***Giriş***. Qaraçaylar və balkarlar bir-birlərinə son dərəcə yaxın xalq olub, Şimali Qafqazda yaşayan müsəlman etnik qruplarıdır. Şimali Qafqazın türk mənşəli yerli xalqları olan qaraçaylarvə balkarlar çoxəsrlik tarixə malikdirlər. Qərb tarixçisi V.Komins-Riçmond yazır ki, Qafqazın ən qədim xalqlarından olan qaraçaylar və balkarlar XIII-XIV əsrlərdə monqol istilalarına, daha sonra isə Teymur yürüşlərinə məruz qalan ən böyük türk mənşəli xalqlardan biri olmuşdular. Bu yürüşlər nəticəsində onların əraziləri və sayları xeyli azalmış, buna baxmayaraq XV əsrdə onlar müstəqil etnomədəni qrup kimi birləşmişdilər [1, s.431]. Uzun müddət çarizmin idarəçiliyi altında qalan qaraçaylar və balkarlar sovet hakimiyyətinin qurulmasından sonra – 1921-ci ilin yanvarından Dağlı Muxtar Sovet Sosialist Respublikasının tərkibində yaşamış, 1 il sonra 1922-ci il yanvarın 12-də Qaraçay-Çərkəz muxtar vilayəti yaradılmışdı. 1926-cı il aprelin 26-da həmin muxtar vilayət iki yerə bölünmüşdü: Qaraçay muxtar vilayəti və Çərkəz milli dairəsi. Qaraçay muxtar vilayəti 1937-ci ildən Orconikidze diyarının (1943-cü ildən Stavropol diyarı adlanır – B.M.) tərkibinə daxil edilmişdi.Balkarlar isə, sovet hakimiyyətinin bərqərar olmasından sonra, 1922-ci ildə Kabarda muxtar vilayəti və Balkar milli dairəsinin birləşdirilməsi yolu ilə təşkil edilmiş Kabarda-Balkar muxtar vilayətində yaşayırdılar. 1936-cı ilin 5 dekabrından həmin muxtar vilayət muxtar respublikaya çevrilmişdir. RSFSR-in tərkibinə daxil olan Kabarda-Balkar MSSR-in inzibati mərkəzi Nalçik şəhəri idi.

***Qaraçayların deportasiyası***. 1939-cu ilin ümumittifaq əhali siyahıyaalmasına görə, SSRİ-də 75763 nəfər qaraçay var idi ki, onların da 70301 nəfəri Qaraçay muxtar vilayətində yaşayırdı. Muxtar vilayətin əhalisi 150 min nəfərdən çox olduğundan, qaraçaylar ümumi əhalinin 46,8%-ni təşkil edirdilər [24, s.17]. 1941-ci ildə nasist Almaniyasının SSRİ-yə hücumundan dərhal sonra, Sovet İttifaqının digər əraziləri kimi Qaraçay muxtar vilayətində də səfərbərlik elan olunmuş, qaraçay xalqının 15600 nümayəndəsi ön cəbhəyə, 3000 nəfər isə əmək ordularına səfərbər edilmişdi [2, s.336]. Arxa cəbhədə qalanlar müdafiə tikililərinin inşasında çalışır, maddi vəsait və əşyalar toplayaraqön cəbhəyə göndərirdilər. Müharibə illərində muxtar vilayətin sakinləri cəbhəyə 6 vaqondan artıq fərdi və kollektiv bağlamalar, habelə 68650 ədəd müxtəlif geyimnövləri – keçə çəkmələr, xəz-dəri paltarlar, yapıncı plaşlar, yun papaqlar və s. göndərmişdilər. Təkcə müharibənin ilk ilində qaraçayların ön cəbhəyə göndərdiyi bağlama və hədiyyələrin həcmi 5 milyon rubldan çox təşkil edirdi. Bundan başqa, 1941-ci ilin iyunundan 1943-cü ilin noyabrına qədər Qaraçay muxtar vilayətinin əhalisi 50 milyon rubldan çox vəsait toplayaraq Milli müdafiə fonduna köçürmüşdülər. Müqayisə üçün, 1943-cü ildə bir ədəd T-34 tankının istehsalı 135 min rubla başa gəlirdi ki, qaraçayların topladığı vəsaitə 370-dən çox belə tank istehsal etmək olardı [10, s.161-162].

1942-ci ilin iyununda sovet ordusunun Xarkov döyüşlərindəki uğursuzluğundan sonra almanlar sürətlə Qafqaz istiqamətində irəliləməyə başlamışdılar. Qafqaz uğrunda gərgin döyüşlərin gedişində, 1942-ci ilin avqustunda alman ordusu qaraçayların da yaşadığı Orconikidze diyarına daxil olmuşdu. Bu zaman qaraçay xalqının arxa cəbhə zəhmətkeşləri düşmənə qarşı partizan savaşına başlamış, ümumilikdə təqribən 1200 nəfərdən ibarət olan çoxsaylı partizan dəstələri yaratmışdılar [16, s.49; 19, s.45]. Bununla belə, nasist işğalının ilk vaxtlarındansözügedən bölgə xeyli insan və maddi resurs itkilərinə məruz qalmış, təkcə qaraçaylar deyil, bölgədə yaşayan bir çox xalqların nümayəndələri – ruslar, osetinlər, abazinlər və s. həlak olmuş, təqribən 150 min baş mal-qara məhv olmuş, çoxlu sayda tikili yerlə-yeksan edilmişdi[13, s.8-9]. İşğaldan dərhal sonra almanlar bölgə ərazisində “yeni nizam” tətbiq etmişdilər: komendant saatı elan edilmiş, rublla yanaşı alman reyxsmarkları tətbiq olunmağa başlanmış, yaşayış məntəqələrinin və qurumların adları alman və rus dillərində yazılmış, kütləvi təbliğat vasitələri – qəzetlər, jurnallar, broşurlar çap olunmuş, “işğaldan azad edilmiş rayonlarda alman hökumətinin artıq kolxozları ləğv etməsi” haqqında kəndlilərə ünvanlanan vərəqələrpaylanmışdı. Bu fərdi torpaq mülkiyyət formasına keçid olunması demək idi ki, bunun da sayəsində almanların vədlərinə görə, kəndlilər kolxozlarla müqayisədə daha yaxşı yaşayış şəraiti imkanı əldə edəcəkdilər [18, s.15]. Bölgə təqribən 5 ay yarım nasistlərin işğalı altında qaldı. Nasist işğalı müharibə illərində onsuzda gərgin olan vəziyyəti daha da mürəkkəbləşdirdi. Alman qoşunlarının Qafqazda irəliləməsi

Stalin hökumətinin regionda daha sərt siyasət həyata keçirməsinə, xüsusilə orada yaşayan xalqlara qarşı yeni repressiyalar həyata keçirməsinə səbəb oldu. Bunun nəticəsi idi ki, vaxtilə vətəndaş müharibəsi illərində bolşeviklərə qarşı vuruşmuş, varlı təbəqədən olan bir sıraadamlar, antisovet hərəkatında iştirak edən şəxslər, mülklərindən məhrum edilmiş qolçomaqlar, eləcə də onların ailə üzvləri kollaborasionistlər sırasına daxil olur, almanların köməyi ilə mövcud nizamın dəyişdirilməsinə ümid edərək onlar ilə əməkdaşlığa razılıq verirdilər. Məhz belə bir sosial mühitin nümayəndələri nasist komandanlığının təşkil etdiyi "Qaraçay milli komitəsi"ndə birləşmişdilər[2, s.303-314].Bu komitə Almaniyanın Moskvadakı keçmiş hərbi attaşesi general Ernst Köstinqin himayəsi altında idi [19, s.45].Sovet rəhbərliyinin qaraçayları deportasiya etməklə bağlı qərar verməsinə əsas səbəb kimi də əhalinin bir hissəsinin kollaborasionizm və quldurluqda ittiham olunması idi. Lakin, deportasiyanın miqyasını nəzərə aldıqda görürük ki, Stalin rəhbərliyi uşaqlar və yeniyetmələr də daxil olmaqla bütün qaraçay xalqının üzərinə kollektiv məsuliyyət qoymuşdu. Bununla belə, təkcə nasist işğalı zamanı yuxarıda adı çəkilən "Qaraçay milli komitəsi"nin mövcudluğu faktı sovet rəhbərliyinə bütün qaraçay xalqının məcburi köçürülməsi qərarını əsaslandırmağa kifayət edirdi. Qeyd etmək lazımdır ki, qaraçayların total deportasiyası bu xalqın kişi əhalisinin böyük əksəriyyətinin Qırmızı Ordu sıralarında xidmət etdiyi, ön cəbhədə vuruşduğu bir vaxtda həyata keçirilmişdi [19, s.46].SSRİ Ali Soveti Rəyasət Heyətinin 12 oktyabr 1943-cü ildə təsdiq etdiyi "Qaraçay muxtar vilayətinin ləğvi və onun ərazisinin inzibati quruluşu haqqında" 115/13 nömrəli fərmanın mətnində deyilirdi: "Qaraçayların bir çoxu özünü xaincəsinə aparmış, sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün almanların təşkil etdiyi dəstələrə qoşulmuş, Zaqafqaziyadakı aşırımlarla irəliləyən alman qoşunlarını müşayiət edərək onlara yol göstərmiş, işğalçılar qovulduqdan sonra Sovet hakimiyyətinin gördüyü tədbirlərə qarşı çıxmış, almanların bölgədə tərk etdiyi casusları hakimiyyətdən gizlətmiş, onlara fəal kömək göstərmişlər" [15, s.476-477].Təbii ki, bütün qaraçay xalqına qarşı belə bir ittihamların həqiqətə uyğun olması şübhə doğurur. Çünki:birincisi, qaraçaylar əvvəldə qeyd edildiyi kimi, müharibə başladığı andan ön və arxa cəbhədə fədakarlıqlar göstərmişdilər; ikincisi, total şəkildə ittiham olunan qaraçay əhalisinin təqribən yarısı uşaqlar və yeniyetmələr idi. Ona görə də, bütün qaraçay xalqının total şəkildə deportasiyası haqqında sözügedənfərmanəslində özbaşınalığa sadəcə olaraq qanuni don geyindirmək üçün idi və nəinki beynəlxalq hüquqa, həm də SSRİ-nin öz konstitusiyasına zidd idi.Bir sıra tarixçilərin fikrincə, deportasiyanın məqsədi geniş mənada, cəmiyyəti stalinizmin mümkün və potensial düşmənlərindən təmizləmək idi [7, s.13]. SSRİ-nin dağılmasından sonra Rusiyada yaradılan qaraçay xalqının reabilitasiyası üzrə komissiya dövlət müharibə komissiyalarının aktlarını, mərkəzi, diyar və vilayət arxivlərinin

materiallarını, arxiv sənədlərini araşdırdıqdan sonra 1993-cü ildə akt dərc etdi. Burada göstərilirdi ki, qaraçayların deportasiyası 12 oktyabr 1943-cü il tarixli fərmandan xeyli əvvəl planlaşdırılmış və onun əsl səbəbi əslində qaraçay xalqının "xəyanəti" deyildi. Bu akta görə, dağlı xalqların, o cümlədən də qaraçayların məcburi köçürülməsi SSRİ Xalq Daxili İşlər komissarı L.Beriyanın özünün də gizlətmədiyi kimi Gürcüstan ərazisinin genişləndirilməsi problemini həll etməyə yönəlmişdi. Belə ki, ÜK(b)P-nın Kabarda-Balkar üzrə vilayət komitəsinin birinci katibi Z.D.Kumexov ilə söhbətində Beriya belə deyirdi: "...Elbrus rayonunun Gürcüstana verilməsi təklifi var, çünki Qafqaz silsiləsinin şimal yamaclarında Gürcüstanın müdafiə xətti olmalıdır" [17, s.14]. Qeyd etmək lazımdır ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 12 oktyabr tarixli sərəncamına qədər də, qaraçaylar arasında müəyyən şəxslərin deportasiya edilməsi haqqında qərarlar verilmişdi. Belə ki, 1943-cü il aprelin 15-də SSRİ Xalq Daxili İşlər Komissarlığı (NKVD) və SSRİ Prokurorluğunun 52/6927 nömrəli direktivində göstərilirdi: "Üsyançı rəhbərlərin ailə üzvlərindən 573 nəfərin köçürülməsi müəyyən edilib. Lakin, 67 quldur dəstə başçısı sovet hakimiyyətinə təslim olduğu üçün deportasiyaya məruz qalan ailələrin sayı 110 nəfərə qədər azaldılıb". Bu direktivə uyğun olaraq, 1943-cü ilin avqustun 9-da onlar Qaraçay muxtar vilayətindən məcburi şəkildə köçürülmüşdü[3, s.8-9].Lakin, göründüyü kimi çox keçmədən deportasiya qərarı bütün qaraçay xalqına şamil olundu. SSRİ XDİK-nın məlumatına görə, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 12 oktyabr tarixli 115/13 nömrəlifərmanına və iki gün sonra, SSRİ Xalq Komissarları Sovetinin (XKS) 1943-cü il 14 oktyabr tarixli 1118-342ss nömrəli qətnaməsinə uyğun olaraq, 62842 nəfər qaraçay əhalisinin Qazaxıstan və Qırğızıstan SSR-ə köçürülməsi nəzərdə tutulmuşdu [3, s.8-9]. Tezliklə, bu qərarların icrasına başlanıldı. 1943-cü il 12 oktyabr tarixli fərman ilə, Qaraçay muxtar vilayəti ləğv edildi, onun inzibati mərkəzi olan Mikoyan-şəhərin (indiki Qaraçayevsk şəhəri – B.M.) adı dəyişdirilərək Kluxori şəhəri adlandırıldı. Muxtar vilayətin ərazisi sonradan qonşu subyektlər arasında bölüşdürüldü.

Deportasiya əməliyyatının həyata keçirilməsi üçün çoxlu saydamilis, dövlət təhlükəsizlik əməkdaşları, daxili qoşunlara aid hərbi qulluqçulardan ibarət böyük bir kontingent cəlb olunmuşdu. Rusiya tarixçiləri N.Buqay və A.Qonovun hesablamalarına görə, qaraçayların deportasiyası əməliyyatının həyata keçirilməsi məqsədilə cəlb edilən ordu birləşmələrinin ümumi sayı 53327 nəfər idi [4, s.128]. Deportasiya əməliyyatı ərəfəsindəmilislər və dövlət təhlükəsizlik əməkdaşları kütləvi həbslərə başlamış, 900-dən çox qaraçay həbs edilmişdi. Qaraçayların məskunlaşdığı hər bir yaşayış məntəqəsindən əhalinin boşaldılması üçün minimum müddət (3-6 saat) müəyyən edilmişdi [9, s.715]. 1943-cü ilin noyabrın 2-də, gecə saat 2:00-da SSRİ XDİK-in göstərişi ilə qaraçayların məskunlaşdığı aullar mühasirəyə alındı, muxtar vilayətin giriş-

çıxış yolları bağlandı və əhali stansiyalara gətirilərək vaqonlara yerləşdirildi.Qaraçay əhalisinin deportasiyası məqsədilə hər birində 58 vaqon olan 34 eşelon ayrılmışdı. Hər eşelona 2000-2100 nəfər adam yerləşdirildi və noyabrın 5-də sonuncu eşelonlar Mərkəzi Asiya istiqamətində yola düşdü. Daha əvvəldə qeyd etdiyimiz kimi, 62842 nəfərin köçürülməsi planlaşdırılsa da, 2 noyabr 1943-cü ilin qeydiyyatına görə, onların sayı 69 min nəfərdən çox təşkil edirdi. Deportasiya olunan qaraçayların əksəriyyəti Qazaxıstan və Qırğızıstan SSR-ə, qalan hissəsi İrkutsk vilayəti və Uzaq Şərqəköçürüldü. 1943-cü ilin dekabrına qədər 45501 nəfər (12342 ailə) Qazaxıstan SSR – əsasən də Cənubi Qazaxıstan və Cambul vilayətlərində, 22900 nəfər qaraçay Qırğızıstan SSR-də məskunlaşdırıldı [5, s.62-66].1943-cü ilin dekabrında NKVD generalı V.Çernışev Beriyaya göndərdiyi "Qaraçayların köçürülməsi ilə bağlı əhval-ruhiyyə haqqında" arayışda yazırdı: "Qaraçay xüsusi köçkünlərinin əhval-ruhiyyəsi sakit tərzdə davam edir. Ötən müddət ərzində nə qaraçaylar, nə də yerli əhali tərəfindən asayişin pozulması halı baş verməyib. Kolxozların, eləcə də sovxozların əhəmiyyətli bir hissəsində əmək qabiliyyətli qaraçaylar pambıq toplamaq, çuğunduru yığmaq, suvarma sistemlərinin təmizlənməsi kimi kənd təsərrüfatı işlərinə cəlb olunurlar. Qazaxıstan SSR-in Cambul vilayətində qaraçayların mal-qara, inəklər və qoyunlar əldə etməsi ilə bağlı xeyli sayda fakt qeydə alınıb" [3, s.96]. Qeyd etmək lazımdır ki, sonradan daha 329 nəfər qaraçay müəyyən edilərək öz yaşadığı yerdən deportasiya edilmişdi. Bundan əlavə, 3 mart 1944-cü ildə SSRİ Dövlət Müdafiə Komitəsinin 0741 nömrəli əmri ilə, Qırmızı Ordudan təxris olunan 2543 nəfər qaraçay milliyyətli hərbi qulluqçu öz evinə deyil, xüsusi komendanduralara (спецкомендатуры) göndərildi [4, s.129]. Onların arasında 238 nəfər zabit, 495 nəfər çavuş var idi [6, s.70].

Mərkəzi Asiyaya köçürülən qaraçay "xüsusi köçkünlərini" (спецпереселенцы) nəzarətdə saxlamaq məqsədilə Qazaxıstan SSR və Qırğızıstan SSR-də yüzlərlə xüsusi komendaturalar yaradılmışdı. Xüsusi komendatura komendantının icazəsi olmadan "xüsusi köçkünlər"yaşadıqlarıərazini tərk etmək bilməzdilər. Bu rejimi pozanlar 100 rubl cərimə və ya 5 sutkaya qədər azadlıqdan məhrum etmə ilə inzibati və ya cinayət məsuliyyətinə cəlb edilirdilər. Deportasiya edilmiş əhalinin həyat şəraiti son dərəcə qeyri-qənaətbəxş idi. Belə ki, onlar əsasən yaşayış üçün yararsız yerlərdə, klub binalarında, müvəqqəti kazarmalarda, uçuq-sökük evlərdə və s. yerləşdirilirdi. SSRİ XDİK-nın 5 sentyabr 1944-cü il tarixli arayışında göstərilirdi ki, "həyata keçirilən tədbirlər nəticəsində xüsusi köçkünlərin məişət şəraitində xeyli yaxşılaşma baş versə də, ümumilikdə vəziyyət ağır olaraq qalmışdı" [11]. Ümumiyyətlə, Şimali Qafqazdan deportasiya edilmiş xüsusi köçkünlərin əksəriyyətinin ayaqqabıları və isti paltarları belə yox idi. Qış geyimləriilə təchizata ehtiyacı olan xüsusi köçkünlərə mümkün qədər pambıq-parça ayrılması və onları heç olmasa ən sadə ayaqqabılarla təmin etmək zərurəti yaranmışdı. SSRİ XDİK-nın yuxarıda

adı çəkilən arayışında da göstərilirdi ki, SSRİ XKS-nin xüsusi köçkünlərin ehtiyaclarını ödəmək üçün gördüyü tədbirlər buna kifayət etmirdi [11]. Bu kimi hallar demoqrafik vəziyyətə son dərəcə mənfi təsir göstərirdi. Ümumiyyətlə, 1943-1944-cü illərdə deportasiyaya məruz qalan bütün Şimali Qafqaz xalqları (çeçenlər, inquşlar, balkarlar, qaraçaylar) arasında yüksək ölüm nisbəti müşahidə olunur. Xüsusən də, xüsusi yaşayış məntəqələrində məskunlaşmanın ilk illərində, uyğunlaşma prosesinin çətinliyi nəticəsində ölüm nisbəti doğum nisbətini əhəmiyyətli dərəcədə üstələmişdi. Rusiya tarixçisi V.Zemskovun hesablamalarına baxdıqda aydın olur ki, 1943-cü ildən 1948-ci ilə kimi qaraçay xüsusi köçkünlərinin say dinamikası aşağıdakı mənfi demoqrafik tendensiya ilə davam etmişdir[14, s.114-124]:

| Tarix | Ailələr | Kişilər | Qadınlar | Uşaqlar | Cəmi |
|---|---|---|---|---|---|
| 08.12.1943 | 15987 | 12500 | 19444 | 36670 | **68614** |
| 01.10.1944 | — | — | — | — | **64017** |
| 28.12.1948 | 15425 | 29284 | | — | **56869** |

Deportasiya olunmuş qaraçaylar üzərində məhdudiyyətlərin aradan qaldırılması, onların öz vətənlərinə geri qayıtması, milli muxtariyyətlərinin bərpası yalnız Xruşşov "mülayimləşməsi" dövründə baş vermişdir. Belə ki, SSRİ Ali Soveti Rəyasət Heyəti 1956-cı ilin 16 iyulunda "Böyük Vətən müharibəsi illərində köçürülmüş çeçenlər, inquşlar, qaraçaylar və onların ailə üzvlərinə xüsusi yaşayış məntəqələrində qoyulan məhdudiyyətlərin aradan qaldırılması haqqında" fərman imzalamışdı. 9 yanvar 1957-ci il tarixli başqa bir fərman ilə RSFSR-in Stavropol diyarının tərkibində Qaraçay-Çərkəz muxtar vilayəti bərpa olundu. Qeyd etmək lazımdır ki, öz yurdlarına geri qaytarılan qaraçayların ilk eşelonu 1957-ci il mayın 3-də vətənə çatmışdı ki, həmin gün hazırda "Qaraçay xalqının dirçəliş günü" hesab edilir.Artıq 1959-cu ilin ümumittifaq siyahıyaalınmasına əsasən, SSRİ-də qaraçayların sayı 81403 nəfər təşkil etmişdi.

***Balkarların deportasiyası.*** Balkarların kompakt halda yaşadığı Kabarda-Balkar MSSR-in əhalisi 1939-cu ilin ümumittifaq əhali siyahıyaalmasına görə, 359219 nəfər təşkil etmişdi[24, s.8]. Lakin, muxtar respublikasının əhalisinin böyük hissəsi kabardinlərdən və ruslardan (ümumilikdə 78%-dən çox) ibarət olduğundan, ümumi sayı 40 mindən çox olan balkarlar muxtar respublika əhalisinin cəmi 11,3%-ni təşkil edirdilər. 1941-ci ilin 22 iyununda Almaniya-SSRİ müharibəsi başlayan kimi, Sovet İttifaqının digər xalqları kimi balkarların da əmək qabiliyyətli, əli silah tutan bütün nümayəndələri ön və arxa cəbhəyə səfərbər edildilər. 1942-ci ilin əvvəlinə qədər muxtar respublika zəhmətkeşləri SSRİ müdafiə fonduna 3300000 rubldan çox vəsait köçürmüş, 4389000 rubl

dəyərində dövlət istiqrazları almışdılar. Muxtar respublikanın kolxozlarından külli miqdarda ərzaq məhsulları, geyimlər orduya göndərilmişdi. Məsələn, 1942-ci ilin 12 sentyabrında Kabarda-Balkar MSSR-in kolxoz və sovxozlarından 45 min baş qoyun və 3500 baş iribuynuzlu mal-qara 9-cu ordunun şəxsi heyətinə qida təchizatı kimi göndərilmişdi. Bir ay sonra, 1942-ci il oktyabrın 8-də daha 90 min baş qoyun və 5 min baş iribuynuzlu mal-qara dövlətə təhvil verilmişdi [10, s.524-525]. Lakin, Qafqaz uğrunda gərgin döyüşlərin gedişində, 1942-ci ilin avqustunda vermaxt qoşunları Kabarda-Balkar MSSR-in beş rayonunu işğal etdi, iki ay sonra – oktyabrın sonlarında onun inzibati mərkəzi Nalçik şəhəri də ələ keçirildi. Sovet ordusu geri çəkilərkən, avadanlıqları ilə birlikdə çoxlu sayda sənaye müəssisələri, habelə 314,9 min baş qoyun, 45,5 min baş iribuynuzlu mal-qara, 25,5 min at tərk edilmişdi [21]. Sözügedən ərazi 1943-cü ilin əvvəllərinə kimi nasist işğalı altında qalmış və həmin müddətdə muxtar respublikaya böyük maddi ziyan dəymişdi.

Müharibədən əvvəlki illərdə SSRİ-nin digər bölgələrində olduğu kimi, stalinist repressiyalar dalğası Kabarda-Balkar MSSR-dən də yan keçməmiş, 17 min nəfər siyasi motivlərə görə həbs edilmiş, onlardan 9547 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş, 2184 nəfər güllələnmişdi. Repressiya qurbanlarının içərisində çoxlu sayda balkarlar var idi [22]. Müharibə vaxtı balkarların yaşadığı ərazilərin bir neçə ay işğal altında qalması, SSRİ-də onlara qarşı daha sərt repressiv siyasətin həyata keçirilməsinə zəmin yaratdı. SSRİ XDİK rəhbəri L.Beriyanın dediklərinə görə, balkarların deportasiya edilməsinə rəsmi səbəblər kimi, işğalçılara qarşı mübarizədə balkar xalqının “kiçik töhfəsi” («малый вклад»), “xəyanətkarlığı”, habeləElbrusu müdafiə edə bilməməsi göstərilirdi. 1944-cü ilin yanvarında balkarların köçürülməsinin mümkünlüyü məsələsinin ilkin müzakirəsi baş tutdu, Dövlət Müdafiə Komitəsinə “bu məsələ ilə bağlı fikir bildirmək” tövsiyə olundu [12]. 1944-cü ilin fevralın 23-də ÜK(b)P-nin Kabarda-Balkar vilayət komitəsinin birinci katibi Z.D.Kumexov tərəfindən Beriyaya “Kabarda-Balkar MSSR-in balkar rayonlarının vəziyyəti haqqında arayış” təqdim edildi. Arayışda muxtar respublikanın ərazisində balkarlardan ibarət quldur birləşmələrinin fəaliyyəti və sayı təsvir edilir, həmin dəstələrin almanlarla fəal əməkdaşlıq etməsi, Sovet hakimiyyətinə qarşı çıxmaq məqsədilə düşməndən silah və ərzaq alması kimi iddialar göstərildi. Kabarda-Balkar MSSR XDİK (NKVD) və NKQB-nin əməliyyat uçotuna görə, onların sayı 1737 nəfər təşkil edirdi [20]. Arayışın sonunda yazılırdı: “Yuxarıda deyilənlərə əsaslanaraq, balkarların Kabarda-Balkar MSSR hüdudlarından kənara köçürülməsinin mümkünlüyü məsələsini həll etməyi zəruri hesab edirik”.Rusiya tarixçisi Hacı-Murad Sabançiyev yazır: “Həmin dövrdə adətən ölkənin müxtəlif bölgələrindəki vəziyyətlə bağlı qəsdən yalan məlumatlar formalaşdırılır, inandırıcılıq naminə bu məlumatlar cüzi həqiqəti ehtiva edir, gözdən düşmüş xalqın ünvanına çoxlu böhtanlar atılırdı. Alman işğalı zamanı Kabarda-Balkariyadan

respublika əhalisinin bir hissəsinin sovet hakimiyyətinə qarşı çıxması faktları ilə bağlı gələn xəbərlər axınında əvvəlcə balkarlar xüsusilə seçilməsə də, 1944-cü ildən əsas diqqət balkarlara yönəldilir. Bu işdə Kabarda-Balkar MSSR Xalq Daxili İşlər və Dövlət Təhlükəsizliyi komissarları K.P.Bziava və S.İ.Fialtov xüsusi canfəşanlıq göstərirdilər. Beləliklə, balkar əhalisinin ümumi davranışını saxtalaşdıran mənfi qiymətləndirmələr ilə bağlı respublikadan gələn xəbərlər bütün xalqın cəzalandırılması üçün hüquqi əsas rolunu oynadı" [22]. Deportasiya əməliyyatının başlama tarixi 1944-cü ilin 10 martına təyin edilsə də, o daha erkən həyata keçirildi. Belə ki, martın 8-də sübh tezdən balkar əhalisinə yola hazırlaşmaq əmri verildi. Balkarların yaşadıqları ərazidən çıxarılması əməliyyatı iki saat çəkdi və istisnasız olaraq bütün əhali: Böyük Vətən müharibəsi iştirakçıları, müharibə əlilləri və onların ailələri, hətta sovet partiya və dövlət orqanlarının rəhbərləri belə deportasiyaya məruz qaldılar. Muxtar respublikanın hər yerindən balkarları ABŞ istehsalı olan, Lend-liz proqramı üzrə SSRİ-yə göndərilmiş "Studebakers" yük maşınları vasitəsilə Nalçikdəki dəmiryol vağzalına aparırdılar. Deportasiyanı həyata keçirmək üçün hər birində 56 vaqon olmaqla ümumilikdə 14 eşelon ayrılmışdı. Hər vaqona 40-45 nəfər yerləşdirilirdi. Balkarların olduğu eşelonlara "Şimali Qafqaz – 455" kod adı verilmişdi [3, s.116]. 1944-cü il martın 11-də Beriya Stalinə məruzə edərək bildirirdi ki, 37103 balkar köçürülüb. Bütün balkar xalqının öz doğma yurdundan məcburi şəkildə köçürülməsi onlarda dərin məyusluq hissi yaratmış, çoxlarını çaşqınlıq içində qoymuşdu. Xüsusilə, cəbhədə vuruşan balkar döyüşçüləri sovet dövlətinin bu ağlasığmaz tədbirini böyük təəccüblə qarşılamışdılar: onlar cəbhələrdə vətənləri uğrunda vuruşur, uzaq arxa cəbhədəki ailələri isə məcburi köçürülməyə məruz qalıblar. Məsələn, həmin hadisələri milliyətcə balkar olan müharibə veteranı Məhəmməd Sozayev öz xatirələrində belə təsvir edir: "Mən Leninqrad blokadasını yarmış qoşunların tərkibində olmuşam, iki dəfə yaralanıb, kontuziya ilə hərbi hospitala düşmüşəm. Hospitaldan evə bir neçə məktub yazsam da, hamısı "ünvanı tərk ediblər" yazısı ilə geri qaytarıldılar. Bu zaman təəccübümün həddi-hüdudu yox idi. ...Nəhayət sonradan mən Oş bölgəsində öz qohumlarımı tapdım. Orta Asiyada yaxınlarımın çoxu dünyasını dəyişmişdi" [8, s.74]. Balkarlar əsasən Qazaxıstan SSR (16684 nəfərdən ibarət 4660 ailə) və Qırğızıstan SSR-ə (15743 nəfərdən ibarət 9320 ailə) olmaqla Mərkəzi Asiya ərazisinə köçürüldü [13]. Bütün "xüsusi məskunlaşanlar" (спецпереселенцы) xüsusi komendaturalarda qeydiyyata alındılar. Komendantın icazəsi olmadan rayonu tərk etmək qadağan edilmişdi ki, bu qaydanı pozmaq inzibati və cinayət məsuliyyətinə səbəb olurdu. Deportasiyanın balkar etnik qrupunun bir hissəsinin fiziki məhvi, balkarların siyasi, sosial-iqtisadi və mədəni strukturlarının zorakılıqla məhv edilməsi, onların dövlətçiliyinin ləğvi və s. kimi bir çox mənfi nəticələri oldu. Balkarların deportasiyası bütövlükdə Kabarda-Balkar MSSR-in iqtisadi inkişafına ziyan vurdu: orada

qalan əhali könüllü və məcburi əsaslarla boş torpaqları mənimsəməyə, əkib-becərməyə məcbur edildi [23]. Statistik faktlar göstərir ki, 1944-cü ilin martında 1948-ci ilin oktyabrına qədər balkarların sayında mənfi demoqrafik tendensiya davam etmiş, onların sayı 31,7 min nəfərə kimi azalmışdı[25, s.218-240]:

| **İllər və aylar** | 1944, mart | 1944, mart | 1944, dekabr | 1945, oktyabr | 1946, oktyabr | 1948, oktyabr |
|---|---|---|---|---|---|---|
| **Balkarların sayı, min nəfərlə** | 38,3 | 37,2 | 33 | 33,3 | 32,9 | 31,7 |

Balkarlar üzərində məhdudiyyətlərin aradan qaldırılması, onların öz vətənlərinə geri qaytarılması və milli muxtariyyətlərinin bərpası yalnız 50-ci illərin ikinci yarısındakı destalinizm dövründə baş vermişdi. Belə ki, SSRİ Ali Soveti Rəyasət Heyəti 1956-cı ilin aprelin 28-də "Krım tatarlarının, balkarların, türklərin – SSRİ vətəndaşlarının, kürdlərin, hemşillərin və onların ailə üzvlərinin hüquqi statusuna qoyulan məhdudiyyətlərin aradan qaldırılması haqqında" fərman imzalamışdı. 1956-cı ilin noyabrın 24-də Sov.İKP MK "Kalmık, qaraçay, balkar, çeçen və inquş xalqlarının milli muxtariyyətinin bərpası haqqında" fərman qəbul etmiş, bu fərmanda deportasiya aktı özbaşınalıq və qanunsuzluq kimi tanınmışdı. 1957-ci il yanvarın 9-da SSRİ Ali Soveti Rəyasət Heyəti "Kabarda MSSR-in Kabarda-Balkar MSSR-ə çevrilməsi haqqında" fərman verdi. Bundan sonra, balkarların kütləvi şəkildə vətənlərinə geri qaytarılması prosesi başlandı.

***Nəticə.*** Beləliklə, İkinci Dünya müharibəsi illərində SSRİ-də total deportasiyaya məruz qalan Qafqaz xalqlarından biri də qaraçaylar və balkarlar oldular. Müharibə zamanı hər iki xalqın ön və arxa cəbhədəki rəşadətli əməyinə baxmayaraq onların yaşadığı ərazilər müvəqqəti nasist işğalı altına düşdü. Həmin ərazilər azad olunduqdan sonra, Stalin hakimiyyəti əvvəlcə qaraçayları, daha sonra balkarları işğalçılar ilə əməkdaşlıq etmək – kollaborasionizm, sovet hakimiyyətinə qarşı çıxmaq, quldurluq ittihamları ilə deportasiya etmək qərarı verdi və bütövlükdə 100 mindən çox qaraçay-balkar əhalisi Mərkəzi Asiyaya köçürüldü. Məcburi köçkünlər "xüsusi məskunlaşma" adlanan ağır şəraitdə yaşamağa məcbur oldu ki, bu da çoxsaylı ölüm halları ilə müşayiət olundu. Yalnız Stalinin ölümündən sonra, 50-ci illərin ikinci yarısında qaraçaylar və balkarlar vətənlərinə geri qaytarılmağa başlandı,muxtariyyətləri bərpa olundu, onlara tam bəraət verilməsiisə, ancaq SSRİ-nin mövcudluğunun son illərində baş tutdu.

**Ədəbiyyat**


1. Comins-Richmond, Walter. The deportation of the Karachays. Journal of Genocide Research, 4 (3), 2002, pp.431–439.
2. Безугольный А.Ю., Бугай Н.Ф., Кринко Е.Ф. Горцы Северного Кавказа в Великой Отечественной войне 1941-1945 гг.: проблемы истории, историографии и источниковедения. Москва, Центрполиграф, 2012, 479 с.
3. Бугай Н. Ф. Иосиф Сталин – Лаврентию Берии: «Их надо депортировать»: Документы, факты, комментарии. Москва: Дружба народов, 1992, 288 с.
4. Бугай Н.Ф. Гонов А.М. Кавказ: народы в эшелонах (20-60-е годы). Москва: ИНСАН, 1998, 365 с.
5. Бугай Н.Ф. Л. Берия – И. Сталину: «Согласно Вашему указанию…». Москва: АИРО-XX, 1995, 323 с.
6. Бугай Н.Ф. Турки из Месхетии: долгий путь к реабилитации (1944–1994). Москва: Издательский дом РОСС,1994, 164 с.
7. Бугай Н.Ф., Гонов А.М. «По решению правительства Союза ССР...». Депортация народов: документы и материалы. Нальчик: Эль-Фа, 2003, 927 с.
8. Бугай Н.Ф., Гонов А.М. В Казахстан и Киргизию из Приэльбрусья (20-50-е годы). Нальчик: Эльбрус, 1997, 285 с.
9. Великая Отечественная война 1941–1945 годов. В 12 т. Т. 6. Москва: Кучково поле, 2013, 864 с.
10. Вклад репрессированных народов СССР в Победу в Великой Отечественной войне 1941 - 1945 гг. Том I. Элиста: НПП Джангар, 2010, 576 с.
11. ГАРФ. Ф. Р-9401. Оп. 2. Д. 86. Л. 66–77 - https://www.alexanderyakovlev.org/fond/issues-doc/1022603[Müraciət tarixi: 05.05.2022]
12. ГАРФ. Ф. Р-9479. Оп. 1. Д. 170. Л. 89 - https://scepsis.net/library/id_1237.html[Müraciət tarixi: 05.05.2022]
13. ГАРФ. Ф. Р-9479. Оп. 1. Д. 182. Л. 95-96. - https://scepsis.net/library/id_1237.html[Müraciət tarixi: 07.05.2022]
14. Земсков В.Н. Демография заключенных, спецпоселенцев и ссыльных (30-е – 50-е годы) // Мир России, Т. VIII, № 4, 1999.
15. История сталинского Гулага. Собр. документов в 7 т. Т. 1. Москва: РОССПЭН, 2004, 728 с.
16. Карачаевцы (историко-этнографический очерк). Черкесск: Кар.-Чер. Отд. Ставропольского книжного издательства, 1978, 337 с.
17. Карачаевцы: выселение и возвращение. Черкесск: «ПУЛ», 1993, 176 с.

18. Коновалова И. Немецкий режим во время оккупации Ставропольского края. Ставропольские губернские ведомости, № 15, 2015.
19. Некрич А. Наказанные народы. Нью-Йорк: Хроника, 1978, 170 с.
20. По решению правительства Союза ССР. Нальчик: Эль-Фа, 2003, 926 с.
21. Сабанчиев Х-М.А. Были сосланы навечно: депортация и реабилитация балкарского народа. Нальчик: Эльбрус, 2004, 158 с.
22. Сабанчиев Х-М.А. Выселение балкарского народа в годы Великой Отечественной войны: причины и последствия - https://adygi.ru/index.php?newsid=152[Müraciət tarixi: 13.05.2022]
23. Сабанчиев Х-М.А. Депортация, жизнь в ссылке и реабилитация балкарского народа (1940-е – начало XXI в.) : диссертация доктора ист. наук. Ростов-на-Дону, 2007, 411 с.
24. Численность населения СССР на 17 января 1939 г. Москва: Госпланиздат, 1941, 265 с.
25. Эдиев Д.М. Демографические потери депортированных народов СССР. Ставрополь: СтГАУ “Аргус”, 2003, 336 с.

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ TARİXİNDƏN (1881-1917)

**Elçin Qarayev**
AMEA A.Bakıxanov adına Tarix İnstitutu
E-mail: elchin_garayev@mail.ru

***Açar sözlər:*** *Azərbaycan, İrəvan, təhsil, müəllim, seminariya, imtahan, tələbə*

Məqalə Azərbaycanın təhsil sistemində böyük rol oynamış İrəvan müəllimlər seminariyasının tarixindən bəhs edilir. Burada müəllimlər seminariyasının yaranması, onun quruluşu, tədris olunan fənnlər, tələbələrin milli tərkibi, sayı göstərilmişdir. Bundan əlavə, məqalədə seminariyanın tərkibində fəaliyyət göstərən Azərbaycan bölməsinə də toxunulmuşdur. Bu bölmədə islam dini və Azərbaycan türkcəsi tədris olunmuşdur. Eyni zamanda məqalədə bu fənlərdən dərs deyən müəllimlərin adlarına aydınlıq gətirilmiş, onların fəaliyyətinə qiymət verilmişdir. Sonda İrəvan müəllimlər seminariyasına başçılıq etmiş şəxslərin adları göstərilmişdir.

## Из истории Ireванской учительской семинарии (1881-1918 гг.)

**Гараев Эльчин**

***Ключевые слова:*** *Азербайджан, Иреван, образование, учитель, семинария, экзамен, студент*

В статье рассматривается история Иреванской учительской семинарии, сыгравшей большую роль в системе образования Азербайджана. В нем показано создание учительской семинарии, ее структура, преподаваемые предметы, национальный состав и количество учащихся. Кроме того, в статье затрагивается азербайджанское отделение семинарии. В этом разделе преподаются ислам и азербайджанский турецкий язык. При этом в статье уточняются имена учителей, преподающих данные предметы, и дается оценка их деятельности. В конце концов были установлены имена руководителей Ереванской учительской семинарии.

## From the history of the Irevan Teachers Seminary (1881-1918)

**Garayev Elchin**

***Key words:*** *Azerbaijan, Irevan, education, teacher, seminary, exam, student*

The article discusses the history of the Iravan Teachers Seminary, which played a major role in the education system of Azerbaijan. The creation of a teachers seminary, its structure, subjects taught, national composition and number of students are shown. In addition, the article highlights the Azerbaijani branch of the seminary.Islam and Azeri Turkish are taught in this section. At the same time, the article specifies the names of teachers teaching these subjects and evaluates their activities. In the end, the names of the leaders of the Yerevan Teachers' Seminary were established.

Çar Rusiyası işğalından sonra Cənubi Qafqazda, o cümlədən İrəvan quberniyasında ənənəvi dini məktəblərlə bərabər, yeni Avropa tipli məktəblərin yaradılmasına qərara almışdı. Qeyd etmək lazımdır ki, XIX əsrin 30-cu illərin əvvəllərindən baçlayaraq Azərbaycanda və onun tərkib hissəsi olan İrəvan bölgəsində kənd və şəhərlərdə müxtəif cür dövlət məktəbləri-qəza, ibtidai sinif və seminariya tipli məktəblər fəaliyyət göstərmişdir. Belə məktəblərdən biri də, İrəvan müəllimlər seminariyası olmuşdur. Azərbaycan xalqının təhsil sistemində böyük rol oyanmış İrəvan müəllimlər seminariyası Rusiya imperiyası Dövlət Şurasının 1880-ci il oktyabrın 20-də verdiyi qərara əsasən yaradılmışdır. Bu qərara əsasən, İrəvan müəllimlər seminariyasının ümumi xərci üçün illik 28350 rubl məbləğində pul ayrılmışdır [22, s.476].Fəaliyyət göstərdiyi illərdə İrəvan müəllimlər seminariyasına çəkilən illik xərclər haqqında mənbələrdə müxtəlif rəqəmlərə rast gəlmək mümkündür. Məsələn, bu təhsil müəssisəsinə illik 1887-ci ildə 28987 rubl, 1892-ci ildə 29336 rubl 75 qəpik,1898-ci ildə 30614 rubl, 1899-cu ildə 31359 rubl, 1908-ci ildə 218339 rubl, 1909-cu ildə 246927 rubl, 1910-cu ildə 272231 rubl, 1911-ci ildə 317650 rubl 48 qəpik, 1912-ci ildə 339105 rubl 69 qəpik pul xərclənmişdir [17, s.39;19, s.75;20, s.261; 21, s.261;16, s.184]. Qeyd etmək lzaımdır ki, müəllimlər seminariyasının saxlanması üçün müxtəlif mənbələrdən pul daxil olurdu. Bu mənbələrə dövlət xəzinəsindən, zemstvodan, şəhər cəmiyyətlərindən, Kuban və Terk qoşunlarından, təhsil üçün yığılan vergilər daxil  idi [19, c.75; 16, c.85].Seminariya üçün ayrılan pullarmüxtəlif sahələrə xərclənirdi. Bu ümumi xərc başda seminariyanın direktoru olmaqla müəllim heyətinə, binanın kirayəsinə, onun təmirinə, dərs vəsaitlərinə, kitabxanaya, seminariyanın nəzdində fəaliyyət göstərəcək pansiona, ibtidai sinifinə, həkimə və müalicə dərmanlarına, xidmətçilərə sərf olunmalı idi. 1887-ci il məlumatına görə, ümumi məbləğdən binanın kirayəsinə 2600, binanın təmirinə 105, təsərrüfat xərclərinə 2550, dərs vəsaitlərinə 432, seminariyanın şəxsi heyətinin saxlanmasına 15092, əlavə maaşlara 719 rubl, 1898-ci ildə binanın kirayəsinə 3000, otaqların təmirinə 80, təsərrüfat xərclərinə 3978, dərs vəsaitlərinə 634, seminariyanın şəxsi heyətinin saxlanmasına 13525, pansionun saxlanmasına 6908, məvacibə əlavə 910, tələbələrə maddi yardım 175, xidmətçilərə maddi yardım 50 rubl xərclənmişdir [19, s.75-76].

Uzun hazırlıqdan sonra müəllimlər seminariyası 1881-ci il noyabrın 3-də İrəvan şəhərində açılmışdır. Bu seminariya 1918-ci ilə qədər fəaliyyət göstərmişdir. Seminariyanın tərkibində pansionat və hazırlıq sinifi də olmuşdur. Birinci ili seminariya bir sinifdə, 1882-ci ildə iki sinifdə, 1883-cü ildən üç sinifdə və 1898-ci ildən isə dörd sinifdəfəaliyyət göstərmişdir [22, s.518;20, s.257; 23, s.390-391]. Bundan əlavə, İrəvan müəllimlər seminariyasında tələbələrinin pedoqoji fəaliyyəti üçün nümunəvi məktəb də olmuşdur. Eyni zamanda burada seminariyanın tələbələri üçün keçirilən bağçılıq və bostançılıq sahələri üzrə əyani təcrübə üçün Sərdar bağından xüsusi torpaq sahəsi də ayrılmışdır [18, s.83, s.88]

İrəvan seminariyasının kitabxanasında fundamental kitablar və şagirdlərə məxsus dərs vəsaitləri, qurğular ilə təmin olunmuş fizika otağı da var idi. 1890-cı il məlumatına görə, seminariyanın kitabxanasında 4435 rubl dəyərində 1576 adda 2837 cilddə fundamental kitablar, 2482 rubl dəyərində 1705 adda 3954 ciliddə şagirdlərə məxsus dərs vəsaitləri, fiziki otaqda isə 3579 rubl dəyərində 318 cihaz, ümumilikdə, kitabxanalarda, fizika otağında bütün dərs vəsaitlərinin və qurğuların ümumi dəyəri 13965 rubl, 1895-ci ildə ümumi dəyəri 8972 rubl, 8320 cilddə 3896 adda kitab, fizika otağında isə ümumi dəyəri 3674 rubl olan 319 qurğu, 1896-cı ildə 8389 rubl dəyərində 3901 adda həm fundamental kitablar, həm də şagirdlərə məxsus dərs vəsaitləri, fizika otağında olan qurğuların ümumi dəyəri 15530 rubl, 1898-ci ildə 6122 rubl dəyərində 2163 adda 4205 cilddə fundamental kitablar, 3458 rubl dəyərində 2263 adda 4556 şagirdlərə dərs vəsaitləri, ümumilikdə 9580 rubl dəyərində 4426 adda 8761 cilddə kitab, fiziki otaqda isə 4393 rubl dəyərində 403 cihaz, 1899-cu ildə isə 6325 rubl dəyərində 2208 adda 4323 cilddəfundamental kitablar, 3690 rubl dəyərində 2507 adda 4610 cilddə şagirdlərə məxsus dərs vəsaitləri, ümumilikdə həmin ildə10015 rubl dəyərində 4715 adda 8933 cilddə kitabolmuşdur [20, s.259; 21, s.259; 23, s.391-392; 17, s.29-30; 17, s.32].

Seminariyada müxtəlif fənlər keçirilmişdir. Burada müsəlman, provaslav, erməni-qriqoryandini qanunları, rus dili, tarix, coğrafiya, riyaziyyat, həndəsə, hüsnü-xətt, rəsm, mahnı, tibb, Azərbaycan türk və erməni dilləri, bağçılıq və bostançılığa aid fənnləritədris edilmişdir. Tədrisdə ən çox rus dili proqramına diqqət yetirilirdi [24, s.518; 23, s.391].

İrəvan müəllimlər seminariyasına qəbul, imtahan verməklə xüsusi qaydada keçirilmişdir. Hər il qəbul imtahanı vermək üçün ərizələr qəbul edilir və onlar imtahan verirdilər. 1881-ci ildə İrəvan müəllimlər seminariyasına 64, 1882-ci ildə 58, 1884-cü ildə 47, 1885-ci ildə 51,1899-cu ildə 64, 1900-cu ildə 78 nəfər ərizə ilə müraciət etmişdir. Lakin ərizə verənlərin bəzisi imtahandan kəsilmişdir [24, c.497; 25, c.419; 26, s.1158-1159].

İrəvan müəllimlər seminariyasında birinci ili seminariyada 34, ikinci ili 60, dördüncü ili 78, beşinci ili 82tələbə oxumuşdur [24, s.497; 25, s.419; 26,

s.1158-1159].

Bundan əlavə, seminariyada dərs yükü ağır olduğuna görə, bəzi tələbələr rübdən rübə keçəndə dərslərdən geri qalırdı. Məsələn, 1882-ci ildə birinci rübdə 50 tələbə oxuyurdusa, ikinci və üçüncü rüblərdə 37, axırıncı rübdə isə 41 tələbə bütün fənlərdən yaxşı çıxmışdır [24, s.487]

İrəvan müəllimlər seminariyasının ilk tələbə buraxılışı 1884-cü ildə 5 nəfərdən ibarət olmuşdur. İkinci buraxılış 1885-ci ildə (9 tələbə), üçüncü 1886-cı ildə (14 tələbə), dördüncü 1887-ci ildə (6 tələbə), beşinci 1888-ci ildə (10 tələbə), altıncı 1889-cu ildə (13 tələbə), yeddinci 1890-cı ildə (12 tələbə) qeydə alınmışdır. Ümumiyyətlə bu illər ərzində müəllimlər seminariyasını kənd ibtidai siniflər üçün müəllim adını 69 nəfər bitirmişdir (23, s.390, s.396-397; 18, s.336).

İrəvan müəllimlər seminariyasında müxtəlif millətlərin nümayəndələri oxumuşdur. Burada oxuyan tələbələr arasında Azərbaycan türkləri də olmuşdur.Mənbələrdə seminariyada oxuyan tələbələrin sayı, milli tərkibi, sosial mənsuniyyəti haqqında ətraflı məlumat verilmişdir. Məsələn, 1884-ci ildə İrəvan müəllimlər seminariyasında ilin əvvəlində 67, ilin axırında 78 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 33, 1-i sinifdə 16, 2-ci sinifdə 8, 3-cü sinifdə 11 nəfər; bunlardan 30-u zadəgan, 8-i din xadimi, 16-ı şəhərli, 23-ü kəndli, 1-i kiçik məmur uşaqları idi. Milliyətcə 13-ü Azərbaycan türkü, 7-i rus, 3-ü gürcü, 44-ü erməni, 8-i dağlı, 3-ü Avropadan gəlmə ailəyə məxsus idi), 1887-ci ildə İrəvan müəllimlər seminariyasında ilin əvvəlində 80, ilin axırında 81 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 30, 1-i sinifdə 25, 2-ci sinifdə 15, 3-cü sinifdə 11 nəfər; bunlardan 22-u zadəgan, 7-i din xadimi, 19-u şəhərli, 32-i kəndli, 1-i kiçik məmur uşaqları idi. Milliyətcə 14-ü Azərbaycan türkü, 9-i rus, 1-ü gürcü, 48-i erməni, 4-ü dağlı, 5-i Avropadan gəlmə ailəyə məxsus idi),1891-ci ildə 66 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 27, 1-i sinifdə 19, 2-i sinifdə 16, 3-ü sinifdə 4 tələbə. Milliyyətinə görə bunlardan 11-i Azərbaycan türkləri, 6-ı rus, 3 gürcü, 39 erməni,2-i aysor, 3-ü yunan idi. Həmin il 12-i nəfər kənd ibtidai sinif müəllimi adında kursu qurtarmışdır), 1892-ci ildə 54 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 6, 1-i sinifdə 25, 2-i sinifdə 8, 3-ü sinifdə 15 tələbə. Milliyyətinə görə bunlardan 10-u Azərbaycan türkləri, 6-ı rus, 3 gürcü, 30 erməni, 2-i aysor, 3-ü yunan idi. Həmin il 4 tələbə kursu bitirmişdir), 1893-cü ildə 52 tələbə(milliyyətinə görə bunlardan 7-i Azərbaycan türkləri, 10-u rus, 5 gürcü, 21 erməni, 9-u isə digər xalqların nümayəndələri idi. Həmin il 15 tələbə müəllim rütbəsində kursu bitirmişdır), 1994-cü ildə 52 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 14, 1-i sinifdə 14, 2-i sinifdə 8, 3-ü sinifdə 16 tələbə. Milliyyətinə görə bunlardan 7-i Azərbaycan türkləri, 9-u rus, 4-ü gürcü, 21-i erməni, 3-ü aysor, 7-i yunan, 1-i osetin idi. Bunlardan 10-u zadəgan, 11-i din xadimi, 9-u şəhərli, 22-i isə kəndli uşaqları idi. Həmin il 9

nəfər kənd ibtidai sinif müəllimi rütbəsində kursu qurtarmış, 5 nəfər isə seminariyanı tərk etmişdir),1895-ci ildə 49 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 16, 1-ci sinifdə 18, 2-ci sinifdə 8, 3-ü sinifdə 7 tələbə. Milliyyətinə görə bunlardan 7-i Azərbaycan türkləri, 9-u rus, 1-i gürcü, 1-i dağıstanlı, 18-i erməni, 13-ü isə digər xalqların nümayəndələri idi. Bunlardan 9-u zadəgan, 5-i din xadimi, 7-i şəhərli, 26-ı kəndli, 1-i aşağı təbəqəyə məxsus məmur, 1-i isə əcnəbi uşağı idi. Həmin il 14 nəfər kənd ibtidai sinif müəllimi rütbəsində kursu qurtarmış, 3 nəfər isə seminariyanı tərk etmişdir),1896-ci ildə 59 tələbə (bunlar siniflər üzrə belə bölünmüşdür: hazırlıq qrupunda 21, 1-i sinifdə 16, 2-i sinifdə 15, 3-ü sinifdə 7 tələbə. Milliyyətinə görə bunlardan 8-i Azərbaycan türkləri, 13-ü rus, 2-i gürcü, 18-i erməni, 13-ü isə digər xalqların nümayəndələri idi. Bunlardan 8-i zadəgan, 5-i din xadimi, 8-i şəhərli, 35-i kəndli, 3-ü isə aşağı təbəqəyə məxsus məmur uşağı idi. Həmin il 7 nəfər kənd ibtidai sinif müəllimi rütbəsində kursu qurtarmış, 1 nəfər isə seminariyanı tərk etmişdir),1897-ci ildə 62 tələbə,1898-ci ildə 67 (bunlardan etnik tərkibinə görə 18-i Azərbaycan türkləri, 22-i rus, 1-i gürcü, 20-si erməni, 6-sı isə digər xalqların nümayəndələri idi), 1899-cu ildə 73 (etnik tərkibinə görə tələbələrdən 13-ü Azərbaycan türklərinə, 28-i rus, 2-i gürcü, 22 erməni və 8-i isə digər xalqların nümayəndələrinə məxsus olmuşdur. Sosial tərkibinə nəzər yetirdikdə müəllimlər seminariyasında oxuyan tələbələrin sayında kəndli uşaqları üsünlük təşkil etmişdilər. Belə ki, burada oxuyanlardan 7-i zadəgan, 4-ü din xadiminə məxsus, 14-ü şəhərli, 37-i kəndli, 11-i isə aşağı rütbəli məmurların uşaqları idi), 1900-cu ildə 76 tələbə, 1902-ci ildə 78 tələbə, 1903-cü ildə 70, 1907-ci ildə 71 tələbə, 1908-ci ildə 85 tələbə, 1909-cu ildə85 (onlardan 20 nəfəri Azərbaycan türk tələbələri olmuşdur), 1910-cu ildə 85 (bunlardan 4-ü irsi zadəgan, 3-ü din xadiminin, 11-i şəhərli, 54-ü kəndli, 13-ü kazak uşaqları idi) tələbə oxumuşdur [18, s.336;19, s.106, s.108;17, s.3839, s.29, s.31, s.29, s.31-32; 5, s.66; 6, s.86; 12, s.597].

İrəvan müəllimlər seminariyasının drektoru B.Dobrıninin 1915-1918-ci illər arasında seminariyada oxuyan tələbələr və onların etnik tərkibi haqqında maraqlı məlumat vermişdir. Onun verdiyi məlumata görə, 1915-1916-cı illər tədris ilində seminariyada 20 Azərbaycan türkü, 38 rus, 3 Abxaz, 38 erməni, 3 aysor, 4 yunan, 1 kürd, 1916-1917-ci illər tədris ilində 23 Azərbaycan türk, 23 rus, 5 aysor, 46 erməni, 3 abxaz, 2 yunan, 1 kürd, 1917-1918-ci illərdə isə 23 Azərbaycan türk, 20 rus, 8 aysor və 55 erməni uşaqları, ümumilikdə isə 341 nəfər təhsil almışdır [23, s.419]. Lakin “Qafqaz təqvimi”nin 1916-cı il məlumatına görə isə İrəvan müəllimlər seminariyasında 117 tələbə oxumuş, etnik tərkibinə görə bunlardan 22-i Azərbaycan türkləinə, 36-sı ruslara, 3-ü gürcülərə, 35-i ermənilərə, 3-ü dağlı xalqlarına, 17-i isə digər xalqların nümayəndələrinə məxsus tələbələr, sosial tərkibinə görə isə 11-i irsi zadəganların, 2-si ruhani, 10-u şəhərli, 82-si kəındli, 12-i isə kazak uşaqlarıolmuşdur [15, s.290-

291].

İrəvan müəllimlər seminariyasında müsəlman-Azərbaycan şöbəsi də fəaliyyət göstərmişdir. Burada şəriət və Azərbaycan türk dili tədris edilmişdi. Həmin şöbəyə Azərbaycan maarifinə töhfələr verən görkəmli xadimlər başçılıq etmiş və dərs demişdilər. Seminariyanın müsəlman şöbəsinə ilk illərdə İrəvan quberniyası ruhani məclisinin rəisi axund Məmmədbağır Qazızadə başçılıq etmiş və uzun illər seminariyada dərs demişdir(1881-1917). O, ilk dövrlərdə həm müsəlman dini qanununu, həm də Azərbaycan türk dilini tədris etmişdir. O, 1917-ci ilə qədər islam dinini tədris etsə də, Azərbaycan türk dilini 1898-ci ilə qədər demişdir. Bu din xadimi İrəvan ictimai mühütündə, təhsil sahəsində nüfuzlu və tanınmış şəxs olmuşdur [1, s.90; 2, s.73; 4, s.286;12, s.255; 13, s.273; 14, s.305; 15, s.396]. Lakin 1898-ci ildə Azərbaycan türk dilini digər müəllimlər tədris etmişdirSonralar onunla bərabər Azərbaycan maarifçiliyində xidmətləri olmuş şəxslər də dərs demişdilər. Bunlardan Rəhim Xəlilovu (1900-1903),Rəşid bəy Şaxtaxtinskini (1904-1907), Həmid bəy Şaxtaxtinskini (1908-1909), Mirzə Cabbar Mənmədovu (1909-1918) qeyd etmək lazımdır (10, s.270; 15, s.396).

İrəvan müəllimlər seminariyasına isə müxtəlif illərdə digər xalqlara məxsus adamlar başçılıq etmişdir. Bu tədris müəssisəsinə Y.S.Suşevskiy (1881-1896), M.A.Miropniev (1899-1903), İ.A.Pasyuteviç (1904), A.M.Zazuboviç (1905-1907), S.N.Streleçkiy (1908-11), N.V.Fedotov (1911-1913), V.V.Dobrotin (1913-1918) başçılıq etmişdilər.

Beləliklə, İrəvan müəllimlər seminariyası Azərbaycanın təhsil sistemində və milli müəllim kadrlarının yetişdirilməsindəböyük rol oynamışdır. Sonralar seminariyanın yetişdirdiyi tələbələr müəllim kimi Azərbaycan türk uşağlarının savadlanmasında və tərbiyyəsində öz töhfələrini vermişdilər.

## Ədəbiyyat


1. Кавказский календарь на 1885 год / Тифлис: -1884.
2. Кавказский календарь на 1889 год / Тифлис: -1888.
3. Кавказский календарь на 1890 год / Тифлис: -1889.
4. Кавказский календарь на 1897 год / Тифлис: -1896.
5. Кавказский календарь на 1900 год / Тифлис: -1899.
6. Кавказский календарь на 1901 год / Тифлис: -1900.
7. Кавказский календарь на 1904 год / Тифлис: -1903.
8. Кавказский календарь на 1905 год / Тифлис: -1904
9. Кавказский календарь на 1906 год / Тифлис: -1905.
10. Кавказский календарь на 1907 год / Тифлис: -1906.
11. Кавказский календарь на 1908 год / Тифлис: -1888.
12. Кавказский календарь на 1910 год / Тифлис: -1888.

13. Кавказский календарь на 1912 год / Тифлис: -1911.
14. Кавказский календарь на 1914 год / Тифлис: -1913.
15. Кавказский календарь на 1917 год / Тифлис: -1916.
16. Обзор деятельности Кавказского учебного округа. 1908-1912г.г. Тифлис: 1914г.
17. Обзор Эриванской губернии за 1892-1909 / Эривань: -1892-1909.
18. Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1884 / Тифлис: 1885.
19. Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1887 / Тифлис: 1888
20. Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1898 / Тифлис: 1899
21. Отчет попечителя Кавказскаго учебного округа о состоянии учебных заведений за 1899 / Тифлис: 1900.
22. Полное собрание законов Российской империи / СПб: 1883.- т.55.
23. Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов 1801-1917 /Ереван: -1978.
24. Циркуляр по управлению Кавказским учебным округом за 1882 год / Тифлис: 1882.
25. Циркуляр по управлению Кавказским учебным округом за 1885 год / Тифлис: 1885.
26. Циркуляр по управлению Кавказским учебным округом за 1900 год / Тифлис: 1900.

# ШОРАГЕЛЬСКИЙ СУЛТАНАТ

**Эльмира Мамедова**
*Азербайджанский Государственный Педагогический Университет,*
suleymanova.elmira1954@mail.ru

***Ключевые слова:*** *Алагез, Эртик, гавит, гарапапагские тюрки, этническая картина*

В статье дан исторический анализ Шорагельского султаната, основанного после распада империи Надир шаха Афшара. На базе научной литературе установлено, что территория султаната была расположена у подножия горы Алагез к северо-западу от Иреванского ханства. Отмечено, что на севере султанат граничал с Картли-Кахетинским царством, на юге его границы соприкасались с магалами Талин и Сеидли-Агсаггаллы Иреванского ханства, на востоке доходили до магала Абаран Иреванского ханства и были окружены Памбекскими горами. Река Арпачай отделяла султанат от Карсского пашалыка Османской империи. До оккупации султаната Россией основное население султаната составляли гарапапагские тюрки. После заключения Туркеманчайского и Адрианопольского договоров создались условия для переселения и размещения здесь армянских семей, так как в результате русской оккупации местное тюрко-мусульманское население вынужденно покидало территорию султаната.

# ŞÖRƏYEL SULTANLIĞI

**Elmira Kazım qızı Məmmədova**

***Açar sözlər:*** *Alagöz, Ertik, qavit, qarapapaq türkləri, etnik mənzərə*

Məqalədə Əfşar imperiyasının dağılması dövründə meydana çıxmış Şörəyel sultanlığının tarixi araşdırılır. Elmi ədəbiyyat əsasında sultanlığın İrəvan xanlığının şimali-qərbində, Alagöz dağının ətəyində yerləşdirildiyi müəyyənləşdirilir. Göstərilir ki, sultanlıq şimaldan Kartli-Kaxetiya çarlığı, cənubdan İrəvan xanlığının Talın və Seyidli-Ağsaqqallı mahalları, şərqdən isə İrəvan xanlığının Abaran mahalı və Pəmbək dağları ilə əhatə olunmuşdu. Arpaçay çayı Şörə yel sultanlığını Qars paşalığından ayırırdı. Rus işğalından əvvəl sultanlığın əhalisi əsasən Qarapapaq türklərdən ibarət idi. Türkmənçay və Ədirnə razılaşmalarına görə ermənilərin bu ərazidə

yerləşməsinə şərait yarandı, çünki rus qoşunlarının bu ərazini işğal etməsindən sonra yerli müsəlman-türk əhalisinin başqa yerlərə böyük köçü başlamışdır.

## SHORAGEL SULTANATE

**Elmira Kazim gizi Mammadova**

***Key words:***Alagoz*, Ertik, gavit, Karapapakh turks, ethnic picture*

The article provides a historical analysis of the Shoragel Sultanate, founded after the collapse of the empire of Nadir Shah Afshar. On the basis of scientific literature, the territory of the Sultanate was located in the north-west of Iravan khanate at the foot of Alagoz mountain. It is noted that in the north the sultanate bordered on the Kingdom of Kartli-Kakheti, in the south its borders were in contact with the mahals of Talin and Seidli-Agsaggalli of the Irevan Khanate, in the east they reached the Abaran mahal of the Iravan Khanate and were surrounded by the Pambek mountains. The Arpachay River separated the sultanate from the Kars Pashalik of the Ottoman Empire. Before the occupation of the sultanate by Russia, the main population of the sultanate was the Karapapakhturks. After the conclusion of the Turkemanchay and Adrianople treaties, conditions were created for the resettlement and accommodation of Armenian families here, since as a result of the Russian occupation, the local Turkic-Muslim population was forced to leave the territory of the sultanate.

Шорагельский султанат располагался у подножия высокого горного массива, протяженностью с востока на запад до 40 км, с севера на юг – до 35 км, склоны которого в нижней части покрыты лесом, выше – лугами. Название горы известно в нескольких формах: тюркское – Алагез и Архадяз, а также армянское – Арагац [**7,** том, с.40], наиболее укоренившееся из которых является тюркское название Алагез. Обозначение горы Алагез состоит из двух тюркских слов: «ала» - «пестрый, красный, яркий», и «гез» в буквальном значении «глаз», в нарицательном значении «источник, ручей» или «низкое место в гребне гор, седловина, земля с белыми пятнами». Название «Архадяз» происходит из стратегического значения горного массива, так как вершина горы служила ориентиром для войск при ведении военных действий. Оно состоит из двух тюркских слов: «арха» - в значении «за спиной» и «дяз» - «вершина, высота».

Султанат был окружен горами, которые отделяли его на севере от Картли-Кахетинского царства, на юге и востоке - от магаловТалын, Сеидли-Агсаккаллы и АбаранИреванского ханства. Река Арпачай

являлась границей султаната с Карсским пашалыком Османской Турции. Столицей был город Эртик, расположенный в Ширакской котловине у северо-западного подножия горы Алагез, в 105 км от столицы Иреванского ханства города Иревана. Этимология названия столицы тоже имеет тюркские корни и состоит из двух слов: «эр» - «земля», «тик» - «высота». В полном значении слово переводится, как «расположенный на высоте».

Согласно русским источникам общая площадь султаната составляла 1037,91 верст или 1181,16 кв.км (5, т. 3). Заселение склонов горы Алагез вплоть до столицы Эртик известно у самых истоков древней цивилизации. Урартские клинописи сообщают, что царь АргиштиI (786-764 гг. до н.э.) дошел до этих склонов и после его похода границы Урарту доходили до Алагеза включительно. Урартские клинописи по этому поводу сообщают, что царь Аргишти I заложил «крепость Ирпуни на землях племени Аза», страны, которая в надписи урартского царя именуется «землей вражеской».

Множество поселений и святилищ на склонах гор подтверждают легенды и предания язычества и раннего периода принятия христианства. С горой Алагез связано предание, по которой Святой Георгий Просветительвосходил на вершину горы для совершения молитв, при этом ночью ему светила негасимая лампада, свисавшая прямо с небес. В центре столицы султаната города Эртика были расположены две древние христианские церкви VII века: Сурб Геворг и Сурб Степанос, возникшие на местах языческих святилищ древнего албанского населения этого края, принявшего христианство в период арабского господства. По этому поводу следует подчеркнуть, что в урартских клинописях царя СардуриII эта территория называлась «Куалбани» - «Страна албан» [8, с. 287; 1,с.20]. До наших дней сохранилось три крупных сооружения: храм VII века, храм XIII века и гавит, расположенные на краю скального обрыва города Эртик. Гавит является интересным элементом албанской архитектуры и встречается только в албанских храмовых комплексах. Это пристройка при входе в храм, которая придает албанским храмам странные очертания, свойственные только албанской архитектуре. Гавиты служили дополнительным помещением для молящихся, усыпальницей, местом собраний, иногда в них совершались церковные службы.

У гавита нет аналогов, поэтому этимология этого слова относительна. Предполагается, что название этого сооружения является албанским словом. В IX веке при хаченском князе ГригорХамамадля школьного учебника была сделана первая попытка этимологизировать это слово [2, с.528]. В 1261 году жена хаченского князя и албанского католикоса Хасан Джалала Мамкан пристроила гавит к Гандзасарскому монастырю.

ГавитГандзасарского монастыря - одно из прекрасных архитектурных творений, отразивших в себе все творческие достижения албанских зодчих XIII века.

Население султаната было христианским и мусульманским. Большая часть жителей Шорагеля состояла из мусульман, в основном это были тюрки из рода Карапапаг. Согласно сведениям, приведенным в период правления Надир шаха Афшара, в ШорагелеЧухурсаадскогобеглярбегства было 109 мусульманских селений. А по статистическим данным 1805 года в подданстве у последнего шорагельского султана Будага было 172 села, которые составляли 524 семей, из них лишь 90 семей составляли христиане албанского происхождения [6, с 55].

Этническая картина султаната претерпела кардинальные изменения после вхождения русских войск вШорагель весной 1804 года. С этого времени военные сражения, которые вели русские войска с войсками каджарского принца Аббаса Мирзы, ереванскогоГусейнгулу хана, османами на территории султаната, тяжело отражались на положении жителей Шорагеля. Последний шорагельский султан Будаг из рода карапапагскихтюрков вместе со своими сыновьями Гара Мухаммед беком, Хамид беком и Халил беком почти год оказывали сопротивление русским войскам, но безуспешно. В октябре 1805 года султан Будаг был вывезен в Гянджу и в ставке главнокомандующего русской армией князя Цицианова на берегу реки Курекчай подписал документ, по условиям которого Шорагельский султанат перешел в подданство России. Подписание этого документа означало ликвидацию Шорагельского султаната, так как фактическая власть полностью передавалась русским офицерам, власть султана Будага оставалась лишь номинально, а сам султанат по документам русской администрации именуется провинцией.

Основная часть жителей Шорагелякарапагские тюрки стали покидать свои земли, пересекая реку Арпачай, они нашли кров на территории Карсского пашалыка Османской Турции. Это приводило к исходу мусульманское население султаната. В декабре 1809 года в заявлении султана Будага и капитана Джафар бека, адресованном генерал-майору Ахвердову, указывается, что в результате военных действий деревни были разрушены и превращены в руины, и во всём Шорагеле осталось всего 250 домов. По этому поводу в 1827 году главнокомандующий русскими войсками на Кавказе генерал Паскевич сообщал графу Нессельроду, что 100 семей карапапагцев и 300 семей айрымцев убежали в Карс, другая часть карапапагцев в составе 800 семей перешла Араз и присоединилась к отряду брата ереванскогоГусейнкулу хана Гасан хана[3, с.19].

Заброшенные мусульманские деревни заселялись армянским населением, переселенным из Эрзерума, Карса и Мосула Османской империи [4, с. 303–303]. По Туркманчайскому и Адрианопольскому договорам каджарское и османское правительства обязались не препятствовать армянам переселяться в пределы России. Только из Баязетского пашалыка Османской Турции в Шорагели было заселено 3, 148 семей турецких армян [9, с.146-147]. Согласно Камеральному описанию 1829 года в Шорагеле исчислялосьвсего 4684 дома, содержащих 16000 душ мужского пола, из них, 1536 местных семейств с 5425 душами мужского пола и 3148 переселенных семейств с 10575 душами мужского пола.

После окончания первой русско-каджарской войны по заключенному между Россией и Каджарами Гюлистанскому миру 12 октября 1813 годаШорагель уже как провинция, а не как султанат, навсегда переходит в состав России.

**Литература**

1.Əlizadə R., Nəciyev E. Qarabağın Alban-Qıpçaq tarixinə dair. Bakı, 2021
2.Ачарян Р. Этимологический корневой словарь армянского языка. Т.1. Москва, 1971, с.528
3.Геноцид и истребление азербайджанцев. Баку, 2019, с.19
4.Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть II. Санкт-Петербург: Типография Департамента Внешней Торговли, 1836.
5.Потто В.А «Кавказская война». т. 3. Персидская война 1826-1828 гг
6.Памятная книжка Эриванской губернии. Под ред. К. А. Волчанина. Издание Эриванского губернского статистического комитета. Эривань: типография Губернского правления, 1892-1914
7.Семенов П. Алагез. // «Географическо-статистический словарь Российской Империи». Том I.СПб.1865, с.40
8.Меликишвили Г.А. Урартские клинообразные надписи. Москва, 1960
9.Эриванская губерния. //Военно-статистическое обозрение Российской империи. Т.16, ч.6. СПб: Тип. Департамента Генерального Штаба, 1836

# 1992-Cİ İLİN MAY AYINDA ŞUŞA NECƏ İŞĞAL OLUNDU?

**Əzizağa Qəni-zadə**
**SQ Hərbi Akademiyası**
yupiter57@mail.ru

***Açar sözlər:*** *Müstəqillik, ictimai-siyasi vəziyyət, Şuşa əməliyyatı, Şuşa özünümüdafiə batalyonu, əks-hücum, müdafiə, qəhrəmanlıq*

Məqalədə Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biri olan Şuşa şəhərinin 1992-ci il aprel-may aylarında erməni hərbi birləşmələri tərəfindən hücuma məruz qalması və işağalı, bu zaman ordumuzun döyüş əmliyyatlarında göstərdiyi qəhrəmanlıqlar mötəbər mənbə və ədəbiyyatlar vasitəsi ilə tədqiq olunmuşdur.

Ermənilərin "Dağlarda toy" adlandırdıqları Şuşa üzərinə hücum əməliyyatının qarşısının alınması üçün Milli ordunun əsgər və zabitləri, həmçinin könüllülər bu şəhərin əldə saxlanılması uğrunda vuruşmuş və misli görünməmiş qəhramanlıqlar nümayiş etdirmişdilər.

Düşmənin çoxsaylı üstün qüvvələri Canhəsən-Kosalar, Xankəndi-Şuşa, Şuşakənd-Şuşa, Daşaltı-Şuşa və Daşaltı-Zaraslı istiqamətlərindəki hücumları ard-arda dəf edilmiş, aramsız cərəyan edən bu döyüşlərdə döyüşçülərimiz xüsusi rəşadət sərgiləmişdilər. Ordumuz tərəfindən yenidən qruplaşma keçirib, iki istiqamətdən əks həmlə edilmişdir. Manevr edib yeni hüdudda müdafiə təşkil etdilmiş və döyüşün gedişində düşmənə aviasiya zərbələri endirilmişdir. Bundan başqa bütün istiqamətlərdə düşmənin çoxsaylı üstün qüvvələri geri oturdulmuşdur. Ancaq vəd edilmiş köməyin Şuşaya vaxtında gəlməməsi və tükənmiş qüvvələr ilə müdafiənin effektiv təşkilinin mümkünsüz olması 09 may 1992-ci ildə Şuşa şəhərinin işğalı ilə nəticələnmişdir.

## КАК БЫЛ ОККУПИРОВАН ГОРОД ШУША В МАЕ 1992 ГОДА?

**Азизага Гани-заде**

***Ключевые слова:*** *независимость, общественно-политическая ситуация, операция Шуша, батальон самообороны Шуша, контрнаступление, оборона, героизм*

В статье на основе достоверных источников и литературы рассматривается нападение и оккупация Шуши, одного из уникальных культурных центров Азербайджана, армянскими воинскими частями в

апреле-мая 1992 года, героизм, проявленный нашей армией в ходе боевых действий.

Для предотвращения наступательной операции на Шушу, которую армяне называли “Свадьбой в горах”, солдаты и офицеры Национальной армии, а также добровольцы доблестно сражались и проявили беспримерный героизм.

Атаки многочисленных превосходящих сил противника в направлениях Джанхасан-Косалар, Ханкенди-Шуша, Шушакенд-Шуша, Дашалты-Шуша и Дашалты-Зарыслы были отбиты, в этих боях были задействованы все силы резерва. Нашей армией была проведена перегруппировка и нанесен контрудар в двух направлениях. В ходе маневров была организована оборона на новом рубеже и нанесены авиаудары по противнику. Кроме того, на всех направлениях были отбиты атаки многочисленных превосходящих сил противника. Однако несвоевременное прибытие обещанной помощи в Шушу и невозможность эффективной организации обороны истощенными силами привели к оккупации города Шуша 09 мая 1992 года.

## HOW THE CITY OF SHUSHA WAS OCCUPIED IN MAY 1992 ?

**Azizaga Gani-zade**

***Keywords:*** *independence, socio-political situation, operation Shusha, self-defense battalion Shusha, counteroffensive, defense, heroism*

Based on reliable sources and literature, the article examines the attack and occupation of Shusha, one of the unique cultural centers of Azerbaijan, by Armenian military units in April-May 1992, the heroism shown by our army during the hostilities.

Soldiers and officers of the National Army, as well as volunteers, fought valiantly and showed unparalleled heroism to prevent the offensive operation on Shusha, which the Armenians called the “Wedding in the Mountains”.

The attacks of numerous superior enemy forces in the directions of Jankhasan-Kosalar, Khankendi-Shusha, Shushakend-Shusha, Dashalty-Shusha and Dashalty-Zarysly were repulsed all the forces of the reserve were involved in these battles. Our army regrouped and launched a counterattack in two directions. During the maneuvers, defense was organized at a new line and air strikes were carried out against the enemy. In addition, attacks by numerous superior enemy forces were repulsed in all directions. However, the untimely arrival of the promised aid to Shusha and the impossibility of effective organization of defense by exhausted forces led to the occupation of the city of Shusha on May 09, 1992.

**Giriş**

1991-ci ildə öz tarixi müstəqilliyinə qovuşan Azərbaycanı Respublikasını öz nüfıız dairəsində saxlamaq istəyən təcavüzkar qüvvələr ölkəmizdə müstəqilliyin ilk illərində yaranmış itimai-iqtisadi, siyasi böhrandan istifadə edərək məkirli siyasətini həyata keçirməyə müvəffəq olmuş, Qarabağda Azərbaycan və Ermənistan arasında milli münaqişə ocağı alovlandırmış, iki xalq arasında qanlı mübarizə genişlənərək erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılara qarşı qanlı terror hadisələri törədilmişdir. Baş vermiş bu qanlı olaylar nəticədə Qarabağ münaqişəsinin müharibəyə çevrilməsinə gətirib çıxarmışdır. Beləliklə, Fasilələrlə 28 il davam edən birinci Qarabağ müharibəsində torpaqlarımızın 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirilmiş, 20 mindən çox övladı isə hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid oldu. Qeyd edək ki, 1988-1994-cü illərdə Ermənistan silahlı birləşmələri Azərbaycanda xalqımıza qarşı bir sıra qanlı faciələr törətmişdir ki, bunlardan biri də Şuşanın işğalı idi.

1992-ci il mayın 8-nə keçən gecə erməni hərbi birləşmələri Şuşa şəhərinin işğalı ilə bağlı əməliyyat həyata keçirmişdilər. Şuşa üzərinə hücum əməliyyatının məxfi adını isə ermənilər «dağlarda toy» adlandırırdılar.

1992 ci ilin fevral ayında Xocalı aeroportunun ələ keçirilməsi ilə əldə edilmiş hava dəhlizi ermənilərin geniş miqyaslı və uzun müddətli hərbi əməliyyatlar aparmasına imkan vermirdi. Odur ki, düşmən Qarabağın Ermənistanla birləşdirilməsi və quru yol komunikasiyasının əldə edilməsi üçün həm daxildən, həm də Ermənistan istiqamətindən endirilə biləcək zərbə planlarını işləyib hazırlayır.

Birinci istiqamət Kəlbəcər rayonu ərazisindən keçən Ağdərə-Kəlbəcər-Zod avtomagis-tralının ələ keçirilməsi ilə bağlı idisə, ikinci istiqaməti Şuşa və Lacın şəhərlərindən keçən Xankəndi-Şuşa-Laçın-Gorus avtomagistralının ələ keçirilməsinə hesablanmışdır. Və bu istiqa-mətlərdən ən əlverişlisi Şuşa, Laçın şəhərlərindən keçən, o cümlədən ərazi, iqlim, hərbi, iqti-sadi, habelə siyasi tələbləri tam təmin edən Xankəndi-Gorus avtomagistralı idi [20, s.148-150].




**Xəritə 1**

Erməni mənbələrinin məlumatlarına əsasən həmin dövrdə Dağlıq Qarabağda qondarma rejimin rəhbərliyi altında 1992-ci ilin yanvar ayında Robert Kocaryanın rəhbərliyi altında yaradılmış ümumi sayı 1000 nəfər olan "Qarabağ Müdafə Ordusu", Ermənistan könüllülərin-dən ibarət, ***hərəsində azı 50-dən 700-ə kimi döyüşçü olan "Daşnaksütün" "Muş", NART, "Adana", "Ayat", "Tiqran-Mes", "Susuns David", "Parapas martikner", "Arabo", "Veretarnuer", "Razdan" və "Malatiya-Serbatiya"*** kimi ümumi sayları 6000 nəfər olan 12 ***hərbi dəstə (Ermənistan dövləti tərəfindən yaradılan terror qrupları Ə.Qəni-zadə),*** həmçinin Erməni ekspedisiya korpusunun tərkibində ümumi sayları 10.000 qədər olan döyüşçü, 25-Tank, 90-PDM, 38-ZTR, 45-Artilleriya-minaatan sistemləri olmaqla 6 motoatıcı alay, 1 əlahiddə tank taboru, 1 əlahiddə motoatıcı tabor, 1 reaktiv artilleriya "QRAD" divizionu, 1 lülələi artilleriya divizionu, 1 kəşfiyyat bölüyü, 1 kəşfiyyat diversiya bölüyü, 1 radio kəşfiyyat bölüyü və 7 əlahiddə bölük fəaliyyət göstərirdi [21]. Bundan başqa Ermənistan Respublikasın-dakı DİN alayının 2700 döyüşçüsü də (1992-ci ildən MN tərkibinə verilib) Qarabağda cərəyan edən hadisələr kontekstində səfərbər edilmişdilər.

Bir digər mənbənin verdiyi məlumata əsasən isə erməni könüllülərinin ümumi sayı 15.000 döyüşçüdən çox idi və bu qüvələrin sərancamında 30-dan çox zirehli texnika, həmçinin 12 helekopter olmuşdu [21].

Qeyd edək ki, Ermənistan ərazisində olan hərbi birləşmələr və bölmələr də Ermənistan-Azərbaycan sərhəddi boyu pozuculuq fəaliyyəti göstərərək, tez-tez Qarabağa gizli dağ və hava yolları ilə daxil olmaqla praktiki döyüş təcrübələrini təkmilləşdirirdilər.

Xocalı faciəsindən sonra Azərbaycan Respublikasının vahid komandanlığa tabe edilmiş, geniş miqyaslı hərbi əməliyyatlar apara biləcək, iri hərbi birləşmələri olan nizami ordusunun yaradılmasına kəskin ehtiyacı yaranmışdı.

Mart ayının 9-dan 15-ə qədər ilk 5 əlahiddə briqadanın yaranması haqqında Müdafiə Nazirinin əmri imzalandı. Və

-701 saylı Briqada, komandiri polkovnik Zaur Rzayev - Kəlbəcər;

-702 saylı Briqada, komandiri polkovnik İsa Qasımov - Füzuli;

-703 saylı Briqada, komandiri polkovnik-leytenant Nəcməddin Sadıqov - Goranboy;

-704 saylı Briqada, komandiri polkovnik-leytenant Elbrus Orucov – Şuşa;

-708 saylı Briqada, komandiri polkovnik-leytenant Elxan Orucov - Ağdam bölgələrinə göndərildilər.

Hansı ki, bu briqadalar 1 ay ərzində təşkilatlanma, uzlaşma tədbirləri icra edərək, yer-ləşdikləri bölgələrdə pərakəndə şəkildə fəaliyyət göstərən özünümüdafiə bölmələrini vahid komandanlıq altında birləşdirərək təşkilat-lanmalı, o cümlədən ehtimal olunan düşmən hücumlarını dəf edib, Azərbay-canın müstəqilliyini təmin etmək tapşırıqları ilə vəzifələndirilmişdilər [10;18].

Şuşaya təyin olunan 704 briqadanın tərkibində 4-tank, 9-PDM, 2-BTR, 2-BRDM, 2-YARS, altı KC-19 dolu dağıdan top, iki 100 mm hərbi təyinatlı top, iyirmi BM 82 mm minantan, altı 20 mm zenit topu, bir 30 mm zenit topu, altı AQS-17 avtomatik qumbara atan, beş "Strela" DZRK, ümumi sayı təqribən 2000 nəfərə qədər olmaqla, Qaragaf, Kosalar, Kərkicahan özünü müdafiə bölükləri, Şuşa şəhər özünü müdafiə taboru, Yevlax və Mingəçevir könüllü bolükləri, AXC bölüyü, «Azərbaycan Qarabağı» könüllü dəstəsi, 777 saylı xüsusi təyinatlı tabor, Avtomobil bölüyü, tank bölüyü, Artilleriya divizionu və Daxili İşlər Nazirliyinin Post Patrul Xidməti bölüyü yer almaqda idi [10;18].

Azərbaycandakı daxili çəkişmələrdən istifadə edən düşmən, Ermənistan Respublikası ilə quru əlaqəsinin qurulması və Şuşa-Laçın yolunun əldə edilməsi məqsədi ilə 1992-ci mart ayının əvvəllərindən etibarən əməliyyat planı hazırlamağa başlayır [20, s.148-150]. Və çox qısa bir zamanda Ermənistan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah Rəisi genaeral-leytenant Qurgen Dəlibaltayanın rəhbərliyi ilə qondarma "Qarabağ Erməni Ordusu"nun Qərargah Rəisi polkovnik Arkadiy Ter-Tadovasyan tərəfindən hazırlanmış əməliyyat planı Ermənistan Respublikasının Müdafiə naziri Vazgen Manukyan tərəfindən təsdiqlənir. Və əməliyyatın keçirilməsi məqsədi ilə iki ay davam etmiş hazırlıqlar aparılmağa başlanılır [22].

Xocalı aeroportuna demək olar ki, hər gün Mİ-8 vertolyotları və Yak-40, An-22 təyyarələri ilə Ermənistandan 4-6 reys həyata keçirməklə silah, mərmi və raketlər, yanacaq, digər döyüş və döyüş təminatı vasirələri, o cümlədən canlı qüvvə daşınırdı [22].

Ermənistan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı və separatçı "Dağlıq Qarabağın" qondarma özünümüdafiə qüvvələrinin qərargahı tərəfindən hazırlanmış və Ermənistan Respublikası Müdafiə naziri tərəfindən

təstiqlənmiş əməliyyat planına əsasən silahlı bölmələr Qarabağın bütün ərazisindən Xocalı-Laçın istiqamətində səkkiz toplanma rayonuna toplanmalı, altı rayonda hücum, iki rayonda artilleriya atəş mövqelərini tutaraq artilleriya hazırlığından sonra gecə qaranlığında hücuma keçməli idi. Əməliyyata əsasən Şuşikənddən YARS, Daşaltı kəndindən isə lüləli artilleriyadan istifadə etməklə Şuşa şəhəri şiddətli atəşə tutulduqdan sonra Xankəndi-Şuşa, Şuşikənd-Şuşa, Canhəsən-Kosalar-Şuşa və Daşaltı-Lisoqor (Turşsu aşırımı) istiqamətlərindən dörd, Daşaltı-Şuşa, Kərkicahan-Heyvalı istiqamətlərindən isə iki köməkçi hücum planlaşdırılırdı [13].

Ermənilərin, birinci və ikinci cinahlarla irəliləyən qoşun hissələrinin döyüş tapşırığı, Şuşaya istiqamətlənən yollardakı azərbaycanlıların bütün atəş nöqtələrini susduraraq qala divarlarına yaxınlaşmaq, üçüncü cinahın döyüşçülərinin tapşırığı isə Şuşa-Laçın yolunu atəş altında saxlayaraq Şuşanı mühasirəyə salmaqla, Laçın-Qubadlı istiqamətindən Şuşaya köməyə gələn azərbaycanlı döyüşçülərin hərəkatına mane olmaq, həmçinin Zarıslı kəndini işğal edərək orada möhkəmlənmək və bununla da Laçınla Şuşanın əlaqəsini tamamən kəsməkdən ibarət idi [19; 6,s.34].

Canhəsən-Kosalar istiqamətindəki döyüşçülərə çoxlu sayda aldadıcı manevrlər etmək, azərbaycanlı döyüşçülərin diqqətini bu manevrlərə cəlb etmək tapşırığı verilmişdi. Və məhz bundan sonra süni yaradılmış vəziyyətdən istifadə edərək Şuşanın mühasirəsini getdikcə daraltmaq və onu təslim etmək olardı. [19; 6, s.34].




**Xəritə 2**

Planlaşdırılan bu hücumda o da nəzərdə tutulmuşdu ki, Ermənistan Respublikası ordusunun (əslində Ermənistanda yerləşən Rusiya ordusuna məxsus hərbi vertolyotlatlar idi- Ə.Qənizadə) dörd Mİ-24 zərbə vertolyotu Şuşanın müəyyən vacib müdafiə xəttlərinə raket-bomba zərbələri endirdiyi halda, dörd Mİ-8 vertolyotu da Şuşa müdafiəçilərinə arxadan zərbə endirmək məqsədi ilə Heyvalı-Şuşa yoluna desant düşürməli idi [22].

Ermənistanın Gorus rayonundan isə Ermənistan ordusunun "DNEPR" artilleriya qrupu tərəfindən Şuşaya gələ biləcək köməyin qarşısını almaq

məqsədi ilə Laçın şəhəri və Laçın-Qubadlı yolu mütəmadi olaraq atəşə məruz qoymalı idi [22].

Şuşa şəhəri ələ keçirildikdən sonra isə şəhərə daxil olan hərbi birliklər Laçın istiqamətində irəliləyərək Ermənistan Respublikasının silahli qüvvələri ilə Laçında birləşməli idi. Hücum cəbhəsi 35 km, Laçın istiqamətində dərinlik isə 12 km-ə qədər təşkil edirdi [13].




**Xəritə 3**

25 aprel 1992-ci il tarixindən Keçirilmiş təcili tədbirlər nəticəsində Şuşada olan Qaragaf, Kosalar və Kərkicahan kənd özünümüdafiə bölükləri, Şuşa şəhər özünümüdafiə taboru, Yevlax, Mingəçevir şəhəri könüllü bolükləri, AXC bölüyü, «Azərbaycan Qarabağı» könüllü dəstəsi, 777 saylı xüsusi təyinatlı tabor, Avtomobil bölüyü, tank bölüyü, Artilleriya divizion, habelə Daxili İşlər Nazirliyinin Post Patrul Xidməti Blölüyü formal olaraq vahid komandanlıq altına alındı. Və komandanlıq mövcud qüvvələri müdafiə xətti, müdafiə rayonları və dayaq məntəqələrinə bölərək, Şuşanın müdafiəsi planını hazırladı. Müdafiə cəbhəsi 35 kilometr, müdafiə dərinliyi isə 5 kilometr idi [10].

Artıq aprel ayının 27-dən başlayaraq ermənilərin tədrici şəkildə də olsa Şuşa üzərinə hücumları başlamışdı.

Şuşa istiqamətində bütün cəbhə boyu ermənilər imkanlarını səfərbər edərək, üstünlüyü ələ almağa və aldadıcı manevrlərlə Şuşa şəhərinin mühasirəsini daraltmağa çalışırdılar.

05 may 1992-ci tarixində erməni hərbi birləşmələri yenidən qruplaşma həyata keçirərək Şuşa şəhəri ətrafında altı istiqamətdən hücum qrupları yaratmağa başladılar [14] Ancaq 704 Briqada komandiri düşmənin niyyətini başa düşərək, bu səbəbdən ehtiyatın bir hissəsini, uzaq sol cinahı möhkəmləndirmək məqsədi ilə Canhəsən-Kosalar istiqamətindəki mövqelərə çəkir.

Hücum, Ermənistan Respublikasının müdafiə nazirliyi ilə qarşılıqlı əlaqə şəklində Xankəndində yerləşən separatçı "Dağlıq Qarabağın" Müdafiə Komitəsinin qərargahı tərəfindən, döyüşü idarəetməsi isə 1289.0 yüksəkliyində yerləşən komanda məntəqəsindən həyata keçirilirdi [14].

Qeyd edək ki, Şuşanın işğalını müşahidə etmək üçün may ayının 6-da bütün erməni komandanlığı, onların xarici qonaqları və jurnalistlər dəniz səviyyəsindən 1287,0 m şimal yüksəkliyində yerləşən Şuşakəndə toplaşmışdılar. Bu sırada Qarabağ cəbhəsinin komandanı Arkadi Ter-Tadevosyan, Ermmənistanın müdafiə naziri Vazgen Sərkisyan, general Qurqen Dalıbaltayan, Ermənistanın hərbi qərəargah rəisi Feliks Qozoryan, Robert Koçaryan, Serj Sərkisyan, Leonid Martirosyan, Oleq Eseyan, Zori Balayan, Andrey Saxarovun ögey oğlu Aleksey Semenov, Elena Bonner, Baronessa Koks, eləcədə "Ümumdünya xristian həmrəyliyi" və "Daşnaksütun" terror təşkilatının rəhbərləri var idi [19; 6, s.34].

Zori Balayan Şuşaya ediləcək hücumla bağlı yazırdı: "Saat 18.00, 07.05.1992-ci ilin axşamı: Gecə saat 24-də "Şuşa əməliyyatı"nı idarə etmək üçün general Dalibaltayan, polkov-nik Ter-Tadovasyan və onlar ilə birlikdə komanda məntəqəsinə yollanacaq hərbi və mülkü heyət, Xankəndi şəhər partiya komitəsinin binasında yerləşən "Dağlıq Qarabağ Respublikası" özünümüdafiə qüvvələrinin qərargahının həyətində düzüldülər. "Arsax" kilsəsinin keşişi Parqev Martirosyan mərasim geyimində önə çıxıb, onlara təntənəli surətdə xeyir-dua verdikdən sonra şəkil çəkdirdilər və mütləq qələbə ilə geri dönəcəklərinə and içdilər".

Düşmənin ilk hücumu 07 may tarixində, saat 24.00-da Canhəsən-Kosalar istiqamətində oldu. Yura Ovanesyan, Canhəsən istiqamətindəki Azərbaycan mövqelərinə sarsıdıcı zərbələr endirərək, döyüş mövqeyini Şuşa şəhərinə doğru dəyişir. Canhəsən-Kosalar istiqamətində başladılan döyüşün davam etdirilməsi isə 26-cı bölməyə həvalə edilir. Burada erməni ordusunun əsas məqsədi Azərbaycan döyüşçülərinin diqqətini Canhəsən-Kosalar istiqamətinə cəlb etməklə Şuşa şəhərini tamamən mühasirəyə salmaq idi [7; 19; 17]. Lakin, taktiki cəhət-dən düzgün planlaşdırılmış müdafiə döyüşləri nəticəsində bu hücum dəf edildi. Ciddi itkilərə məruz qalan düşmən, çatdığı xəttə möhkəmlənə bilmədi və ağır itkilər verərək geri çəkilməyə məcbur qaldı. Həmin gün axşama doğru silahlı qüvvələrin iki hərbi vertolyotu Suşa ətrafın-dakı ermənilərin təmas xəttinə zərbələr endirdilər. Bundan bir neçə dəqiqə sonra isə Su-25 döyüş təyyarəsi havaya qalxaraq Xankəndi şəhərini bombaladı. [19; 6, s.34-35; 13].

8 may 1992-ci il saat 02.30-da düşmən Daşkənd və Şuşkənd istiqamətində yerləşdirilən artilleriya mövqelərindən Şuşa şəhərini şiddətli artileriya atəşinə tutdu. Və bundan sonra gecə qaranlığında Xankəndi-Şuşa, Şuşkənd-Şuşa istiqamətində hücuma keçdi. Ancaq bu dəfə də azsaylı Şuşa müdafiəçilərinin planlı sərrast atəşi ilə qarşılaşan düşmən, geri çəkilmək məcburiyyətində qaldı.

Gecə saatlarında geri çəkilmək məcburiyyətində qalan düşmən, səhər saatlarında Daşaltı-Şuşa istiqamətində hücuma keçdi və saat 12-yə kimi davam

edən şiddətli hücumlar nəticəsində ağır itkilər bahasına Xankəndi-Şuşa, Şuşkənd-Şuşa istiqamətindəki müdafiə xəttini yara bildi [6, s.34-35; 13].

Qeyri-bərabər ölüm-dirim savaşında öz mövqelərini müvəqqəti də olsa qoruya bilən azərbaycanlı döyüşçülər Şuşaya daxil olmaq istəyən 422 №-li tankı vurmağa nail olurlar. Briqadanın sərancamında qalmış son ehtiyyat hissələri döyüşə yeridildi və effektli əks həmlə ilə itirilmiş mövqelər yenidən bərpa edildi. Bu hadisəni gözləməyən erməni hərbçiləri mərkəz istiqamətdən edilən döyüş həmlələrini dayandıraraq, bütün qüvvəni cinahlara yönəldirlər. Məqsəd Qala divarları üzərindən Şuşa türməsinə daxil olmaq və buradan şəhərin içərilərinə doğru irəliləməyə hesablanmışdır. Təsadüfü deyildir ki, düşmənin fasiləsiz raket zərbələri də məhz bu istiqamətə- Şuşanın cənubuna və qala divarlarına istiqamətlənmişdi [6, s.34].

Daşaltı-Şuşa istiqamətində uğur əldə edə bilməyən düşmən, bu dəfə Daşaltı-Zaraslı istiqamətində hücuma keçdi.

Bu zərbənin qarşısını almaq üçün briqadanın qüvvələri demək olar ki, qalmamışdı və taktiki cəhətdən düzgün qərar qəbul edən briqada komandiri, hücuma məruz qalmamış müdafiə qüvvələrini çevik manevrlə Nəbilər-Daşaltı istiqamətindəki müdafiə mövqelərində yerləşdirdi [13].

Saat 14.30 radələrində düşmən ağır itkilər verərək, yenidən Şuşa-Xankəndi və Şuşa-Şuşkəndi istiqamətindəki çıxış rayonlarına geri çəkildi.

Şuşa şəhərində olan bölmələr ciddi itkilər vermişdi.

Saat 16:00-da Laçında olan tağım, Laçın-Şuşa yolu ilə yardıma gəldi və düşmənin Daşaltı-Zaraslı istiqamətindəki dayandırılmış qüvvələrinə cinahdan zərbə endirdi. Düşmən bu dəfə də ağır itkilər verərək, çıxış mövqelərinə geri çəkildi [19].

Şuşa müdafiəçiləri tərəfindən saat 11-də istənilmiş koordinatlara aviasiya zərbələri endirildi. Ancaq aviasiya zərbələri düşmən qüvvələri ilə yanaşı öz hərbi qüvvələrimizə də xətər yetirir [12]. Saat 17:00 isə düşmən bütün istiqamətlərdə çoxsaylı itkilər verərək, meyitlərini döyüş meydanından "Kamaz" maşınlarına yığaraq geri çəkilməkdə idi [18].

Ağır döyüşlər ertəsi gün də davam etdi və artıq günün sonuna doğru Şuşa müdafiəçiləri əhəmiyyətli itkilər vermişdi. Briqadanın, düşmənin gecə gözlənilən növbəti həmləsinin dəf etmək üçün qüvvəsi qalmamışdı. Yerli özünü müdafiə qüvvələrinin şəxsi heyəti isə mövqeləri tərk edərək öz ailələrinin evakuasiyası ilə məşğul idilər. Müdafiə Naziri Rəhim Qazıyev tərəfindən vəd edilmiş kömək qüvvələri də gəlib çıxmamışdı [1].




**Xəritə 4**

Axşam saat 20:00-da düşmən, yenidən qruplaşma keçirdi və hücum mövqelərini tutdu. Qaranlığın düşməsi ilə isə Canhəsən-Kosalar istiqamətindən yeni hücuma başlandı. Qeyd edək ki, Kərkicahan kəndindən və Xankəndindəki rus hərbi bazalarından da Şuşa şəhərinin yaşayış məntəqələrinə və ictimai iaşə obyektlərinə fasiləsiz raket zərbələri endirilirdi.

Gün ərzində, dayanmadan şəhərə endirilən raket zərbələri Qala divarları üzərindəki bü-tün müşahidə qüllələrini dağılması və həmin gün bütün şəhərin od tutub yanması ilə nəticələ-nir. Və məhz bu həmlədən sonra Şuşanın mühasirəsinə son qoyularaq ermənilər qala divarları üzərindən şəhərə daxil olmağa başlayırlar. Şəhərin müəyyən bir hissəsinə nəzarəti ələ keçirən erməni birləşmələri, tədricən üçüncü cinahdakı erməni qoşun bölmələrinin də Laçın-Şuşa yo-luna çıxışının təmin üçün çalışır. Düşmənin Xankəndidə yerləşən ehtiyyat qüvvələri müdafiə-nin açıq qalmış boş sahəsindən sol cinahın arxasına ciddi zərbələr endirə bilir [6, s.34-35].

Erməni hərbi birləşmələrinin mühasirəsini yarmaq və ya erməni hücumlarının qarşısını almaq üçün canlı qüvvə və texnika çatışmamazılığı hiss olunurdu. Belə bir vəziyyətdə Canhəsən-Kosalar istiqamətinin müdafiəsini təşkil edən müdafiə qüvvələri geri çəkilmək məcburiyyətində qaldılar [4].

Bundan vahiməyə düşən Şuşanın mülki əhalisi, artıq naəlac bir şəkildə keçilməz meşələrlə Laçın istiqamətinə doğru yol almışdılar.

Şuşanın müdafiəsi getdikcə sarsılmaq üzrə idi. Vəd edilmiş köməyin 08 may 1992-ci il saat 24 kimi gəlib çıxmaması hadisələrin inkişafina dönməz xarakter verdi. Gecə saat 24:00-da briqada komandiri Şuşanı tərk etmək barədə əmr verdi. Şuşadan Şuşa-Zaraslı istiqamətində çəkilən az saylı qüvvələr Şuşa-Laçın yolu üzərində Zaraslı-Şuşa istiqamətində hakim yüksəklillərdə mövqeləndilərsə də bunun bir xeyri olmadı [4].

Şəhərin müəyyən hissəsinə nəzarəti ələ keçirən erməni birləşmələri, tədricən Şuşanın Laçın rayonu ilə olan əlaqəsini də kəsir. Və bununlada Şuşa, Canhəsən, Kosalar, Qaraqaya erməni işğalının altına düşür.




**Xəritə 5**

Qeyd edək ki, may ayının 8-dən Şuşaya daxil olmuş erməni qoşun hissələri, küçə döyüşləri ola biləcəyindən ehtiyatlanaraq, küçələrdə açıq şəkildə hərəkət etməyə cürət etmirdilər. Yalnız onlar may ayının 9-da gecə saat 4-də şəhərin boş olduğuna əmin olduqdan sonra Şuşa şəhəri üzərindəki qələbələrini bayram etməyə başlayırlar [19].

Şuşa döyüşləri zamanı 11 min erməni əsgərinə və 40 zirehli texnikasına qarşı cox az sayda Azərbaycan əsgəri və yerli özünümüdafiə dəstələri müqavimət göstərirdi. İstintaq məlumatlarına əsasən gün ərzində düşmən tərəf ilə aparılan döyüşlərin saatı 10 saatlarla olmuşdur. Təkcə Şuşanın işğalı günü isə aparılan döyüş 20 saatdan artıq davam etmişdir [3]. Və aparılan bu döyüşlər zamanı 1860 azərbaycanlı yaralanmış, 480-i isə həlak olmuşdur [2].

Göründüyü kimi, Azərbaycan oğulları Şuşanın əldə saxlanılması uğrunda şiddətlə vuruşdular və misli görünməmiş qəhramanlıq nümayiş etdirdilər. Düşmənin çoxsaylı üstün qüvvələrinin Canhəsən-Kosalar, Xankəndi-Şuşa, Şuşakənd-Şuşa, Daşaltı-Şuşa və Daşaltı-Zaraslı istiqamətlərindəki hücumlarını ard-arda dəf etdilər. Aramsız cərəyan edən döyüşlərdə bütün ehtiyyat qüvvələrini döyüşə yeritdilər. Yenidən qruplaşma keçirib iki istiqamətdə əks həmlə etdilər. Manevr edib bir yeni hüdudda müdafiə təşkil etdilər və döyüşün gedişində düşmənə aviasiya zərbələri endirdilər. Bundan başqa bütün istiqamətlərdə düşmənin çoxsaylı üstün qüvvələrini geri oturtdular. Ancaq vəd edilmiş köməyin Şuşaya vaxtında gəlməməsi və tükənmiş qüvvələr ilə müdafiənin effektiv təşkilinin mümkünsüz olması 09 may 1992-ci ildə Şuşa şəhərinin işğalı ilə nəticələndi.

Geri çəkilən bölmələr 9 may 1992-ci ildə Şuşanın köməyinə gələn Respublika Xüsusi Təyinatlı Milis Dəstəsindən bir bölük, Gəncə polisindən 18 nəfər, Bakı yanğınsöndürmə idarə-sindən 40 nəfər ilə rastlaşdı. Və mövcud bölmələr tərkibində yüngül silahlarla silahlanmış cəmi 125 nəfər döyüşçü ilə

Şuşa-Laçın istiqamətində, Sarıbaba dağı, Telestudiya, Şırlan kəndinə gedən yol kəsişməsi, Kirs dağı, Qala dərəsi müdafiə hüdudunda mövqeləndilər [18].

May ayının 10-dan 11-nə keçən gecə isə polkovnik Rasim Muxtarov üç Reyd Dəstəsi köməyə gəldi və onlara postları gücləndirmək üçün döyüş tapşırıqları verildi [18].

12.05.92-ci il Azərbaycan bölmələri yenidən toplanıb Zarıslı-Şuşa istiqamətində yol boyu əks-hücuma keçsələr də, qüvvələr düşmən tərəfindən qurulmuş pusquya salınaraq bir tank və bir PDM itki verməklə geri çəkilmək məcburiyyətində qalırlar.

15-16 may tarixində Turşsu aşırımı, 18-də isə Laçın şəhəri Gorus-Laçın və Turşsu-Laçın istiqamətlərində, iki tərəfdən endirilmiş qarşılıqlı zərbə nəticəsində ermənilərin əlinə keçdi. [5; 9; 11].

Ümumilikdə qeyd edək ki, Şuşanın işğalı nəticəsində 150 nəfəri əlil olmuş, 552 körpə valideynlərini itirmiş, 20 mindən artıq əhali isə doğma yuvasını tərk edərək məcburi köçkün vəziyyətinə düşmüşdür. Əsir və girov götürülmüş 58 azərbaycanlının taleyi barədə isə bu günə qədər məlumat yoxdur [16].




**Xəritə 6**

Şuşanın işğalından sonra Ermənistan silahlı qüvvələri bu şəhərdə Azərbaycan xalqının izlərini silmək, onu unutdurmaq üçün ən ağlagəlməz cinayətlərə əl atmışlar. Belə ki, onlar Qarabağ xanlığının paytaxtı olmuş Şuşa şəhərinin qiymətli tarixi abidələrini dağıdır, milli arxitekturasını silib, istədikləri kimi yenidən qurmağa cəhd edirlər.

***Şuşanın döyüşlərində Rus amili.*** İstintaq nəticəsində bəlli olmuşdur ki, 366-cı motoatıcı alay və xaricdən gətirilən muzdlu əsgərlər Şuşanın işğalında rol oynayıblar. Belə ki, 366-cı alayın Qarabağı tərk etməsi ilə bağlı əmr olsa da, ancaq bu alay bütöv bir şəkildə Qarabağı tərk etmədi və erməni birləşmələrinə torpaqlarımızın işğalında xüsusi dəstək verdi. İstintaq məlumatlarına görə və

hətta dəqiq rəsmi qeydiyyatda var ki, işğalda rus ordusunun 62 polkovniki və polkovnik-leytenantı iştirak edib. Digər tərəfdən verilən bir qism məxfi məlumatlara görə, Şuşa və Laçının işğalında 14 min keçmiş rus ordusunun zabiti və əsgəri iştirak edib [3].

**Nəticə**

Qeyd edək ki, işğal nəticəsində nadir tarix-memarlıq tikililəri, qədim abidələr, inanc yerləri, yaşayış binaları, hətta məzarlıqlar dağıdılmış, zəngin muzey və kitabxanaları muzey-ləri talan edilmiş, bir vaxtlar təkrarolunmaz təbiətinə görə «Qafqazın cənnəti» adlandırılan yerlər xarabazara çevrilmişdir.

Bu siyahıya Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Ümuilikdə isə işğal nəticəsində 289 kvadrat kilometr ərazi təcavüzə məruz qaldı, 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif, kənd təsərrüfatı, tibb məktəktəbləri, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 14 klub, 20 kitabxana, avtobaza, Şuşa sanitoriyası, 2 kinoteatr, 3 muzey, turist bazası, Şərq Musiqi Alətləri Fabriki və s. mədəni və inzibati binalar məhv edilmişdir [2; 12].


704
704 briqada
ŞUŞA QARNİZONU
Xüsusi təyinatlı tabor
Tank
Artilleri
Kəşfiyya
İstehka
ZRb
Rabitə
Avtomo
Bölü
M.B
ZR
Rabit
Şuşa şəhər
«Azərbaycan
Kərkicahan
Kosalar kəndi
Garagaf kəndi
Azərbaycan
Yevlax rayonu
Mingəçevir
DIN Post
“QARABAĞ ERMƏNI ORDUSU”
Ekspedisiya korpusu
Motoatı cı Alay PDM
Alaya bərabər döyüş qrupları ZTR üzərində 5
Əlahiddə Tabor 1
ƏlahiddəTank Taboru 1
Reaktiv Art Divizion 1
Lüləli Art Divizion 1
Əlahitdə bölük 7
Əlahiddə Kəşfiyyat Bl.
Kəşfiyyat Diversiya Bl.
Radio Kəşfiyyat Bl.
Tabor 3
Bölük 3
Artilleriya Div 1
Kəşfiyyat Bl. 1
İstehkam Bl. 1
ZRbatr 1
M.Batr 1
Rabitə Tğ 1
“Daşnaksütün”
“Muş”
NART
“Adana”
“Ayat”
“Tiqran-Mes”
“Susuns David”
“Parapas martikner”
“Arabo”
“Veretarnuer”
“Razdan”
“Malatiya Serbatiya”

## Ədəbiyyat

***Azərbaycan dilində***


1. Bingöl N. Şuşa işğaldan əvvəl:"Ramiz Qəmbərov Rəhim Qazıyevə dedi ki, Şuşa əldən getsə, səni güllələyəcəm". Modern az. 7 May 2017 //https://modern.az/az/news/132186 /susa-isgaldan-evvel-ldquoramiz-qemberov-rehim-qaziyeve-dedi-ki-susa-elden-getse-sen i-guumllleleyecemrdquo (müraciət tarixi: 10.03.2022)
2. Bu gün Şuşanın işğalından 20 il keçir. Yeni Müsaat qəzeti, 08.05.2012// https://musavat. com/news/bu-gun-susanin-isgalindan-20-il-kecir_123335.html (müraciət tarixi: 10.03.2022)
3. Eltürk E. "Şuşanı müdafiə etmək olardı": Fəxrəddin Səfərov: "İstintaq materiallarında var ki, Şuşanın işğalında Sovet ordusunun 62 keçmiş polkovniki və polkovnik-leytenantı iştirak edib"// Şuşa özünümüdafiə batalyonunun sabiq komandiri Fəxrəddin Səfərovun "Təzadlar"a müsahibəsi. //Təzadlar, 2012, 9 may, səh 11
4. "Hamının səhvi olur"- "Şuşanın məğlub generalı"nın 27 illik etirafları (eksklüziv). Hafiz Times com., 8 May 2018 // https://hafiztimes.com/s%C9%99hidl%C9%99ri-yuxularim da-gorur%C9%99m-susanin-m%C9%99glub-generalinin-27-illik-etiraflari-ekskluziv/ (müraciət tarixi: 10.03.2022)
5. Heç yerdə görmədiyiniz video! 1992, 26 may! Şuşa və Laçının işğalı: İngilis jurnalist çəkirdi. Kanal 13, Nov 1, 2020// https://www.youtube.com/watch?v=kXAXnjz8DtE (müraciət tarixi: 10.03.2022)
6. İsmayılov F. Laçın: həqiqətlər, mülahizələr, tarixi dəyərlər. Bakı, Nurlar Nəşriyyat, Poliqrafiya Mərkəzi, 2012, 184 s.
7. Qəhrəmanlı G. Ermənilərin "dağlarda toy" əməliyyatı. // Ədalət qəzeti, 2010, 15 may
8. Laçın // https://military-az.com/forum/viewtopic.php?t=1576 (müraciət tarixi: 10.03.2022).
9. Laçının işğalından 28 il ötür//https://aztv.az/az/news/7078/lacinin-isgalindan-28-il-otur (müraciət tarixi: 10.03.2022).
10. Məhərrəmov C. "1992-ci il aprel may aylarında Şuşa uğrunda aparılan döyüşlər". Hərbi Akademiyanın Əməliyyat və Taktika məharəti kafedrasının müəllimi. Hərbi Akademiya 29 may 2009-cu il.
11. Mustafayev Ç. Laçının işğalı. Feb 4, 2016// https://www.youtube.com/watch?v=ZMh GFJvBG30 (müraciət tarixi: 10.03.2022).
12. Nuriyev A. Şuşanın ardınca Dağlıq Qarabağ tamamilə işğal olundu.// Kaspi, 2010, 8-11 may, səh 5.

13. Polkovnik Bağırov G. Və mayor Əliyev V. ilə Şuşa və Laçın əməliyyatının təhlili. (Müsahibə).
14. Rəhim Qazıyevin təqaimatında “vətən savaşı” xüsusi buraxılış. “Xural” qazeti, 02-08 may 2010-cu il.
15. Rəhim Qazıyevin Şuşa ilə bağlı müsahibəsi, Zori Balayanın “xatirələri”. Nuh İ.A. 08.05.2020 //http://www.nuh.az/24129-rhim-qazyevin-ua-il-bal-msahibsi-zori-balayann-xatirlri.ht (müraciət tarixi: 10.03.2022).
16. Şuşa ölüm sükutuna qərq olub. TRT Azərbayan, 08.05.2019// https://www.trt.net.tr /azerbaycan/turk-dunyasi/2019/05/08/susa-olum-sukutuna-q-rq-olub-965906 (müraciət tarixi: 10.03.2022).
17. Şuşanın işğalı-Karabakh, May 9, 2011// https://www.youtube.com/watch?v=vwrQ97k Do0s (müraciət tarixi: 10.03.2022).
18. Şuşanın işğalı (qısa hərbi təhlil). 3. Şuşa uğrunda aparılan döyüşlər. 22 dekabr 2014// http://military-az.com/forum/viewtopic.php?t=1574&start=30 (müraciət tarixi: 10.03.2022).
19. Şuşasız 28 il// Xalq Cəbhəsi, 2020, 9 may, səh 9

***Rus dilində***

20. Ваал де Т. "Черный сад. Армения и Азербайджан между миром и войной". https:// www.kavkazuzel.eu/system/uploads/article_attachment/attach/0002/24358/Chernyy_sad _A rmeniya_i_Azerbaydzhan_mezhdu_mirom_i_voynoy.pdf. (müraciət tarixi: 10.03.2022).
21. Степанян К. Хроника Карабахской войны. Open Armenia 28 May 2006,12:09 (müraciət tarixi: 10.03.2022).
22. Тер-Тадевосян А. “Анализ боевых действий в Арцахе (июль 1991-июль 1992 гг.)” Hayastan Armenian Forum > General discussions > Politics > Artsakh Pandukht May 8 2009, 17:34(müraciət tarixi: 10.03.2022).

# N. NƏRİMANOVUN "SOSİALİZM VƏ QADIN AZADLIĞI" ƏSƏRİ QADIN SİYASƏTİNİ ƏKS ETDİRƏN MƏNBƏ KİMİ

**Ləman Hüseynova**
*AMEA- nın A.A.Bakıxanov adına Tarix İnstitutuı*
*e-mail:lamanhuseynova94@gmail.com*

***Açar sözlər:****qadın, azadlıq, sovet hakimiyyəti, təhsil, sosializm*

Məqalədə 20-ci illərin əvvəllərində sovet quruculuğu prosesində qadınların ictimai və sosial həyatı öz əksini tapmışdır."Sosializm və qadın azadlığı" əsəri XX əsrin 20-ci illərində Azərbaycanda mövcud olan qadın bərabərsizliyini, erkən evliliyi, məişət zorakılığı, qadın hüquqlarının pozulması, təlim, təhsil və digər problemli məsələlərin öyrənilməsində *əhəmiyyətlidir. Məqalədə əsər təhlil edilərək, ibtidai icma quruluşundan XX əsrin 20-ci illərinə kimi olan tarixi dövrdə qadınların cəmiyyətdəki rolu və yeri araşdırılmışdır.*

## N. NARIMANOV'S WORK "SOCIALISM AND WOMEN'S FREEDOM" AS A SOURCE REFLECTING WOMEN'S POLICY

**Laman Huseynova**

**Key words***: woman, freedom, Soviet power, education, socialism*

The presented article reflected the social life of women in the process of Soviet Union in the early 1920s. "Socialism and Women's Freedom" is important in the study of women's inequality, early marriage, domestic violence, violations of women's rights, training, education and other issues in Azerbaijan in the 20s of XX century. The article analyzes the work and examines the role and place of women in society in the historical period from the primitive community structure to the 1920s.

## ПРОИЗВЕДЕНИЕ Н.НАРИМАНОВА «СОЦИАЛИЗМ И СВОБОДА ЖЕНЩИН» КАК ИСТОЧНИК ПОЛИТИКИ В ОТНОШЕНИИ ЖЕНЩИН

**Ляман Гусейнова**

***Ключевые слова:****женщина, свобода, советская власть, образование, социализм*

В статье отражена социальная жизнь женщин в процессе строительства Советского Союза в начале 1920-х гг. «Социализм и свобода женщин» имеет важное значение в изучении женского неравенства, ранних браков, нарушений прав женщин, обучения, образования и других вопросов в Азербайджане 1920-х годов. В статье анализируется работа и исследуется роль и место женщины в обществе в исторический период от первобытнообщинного строя до 1920-х гг.

Publisist yazıçı, ictimai-siyasi və dövlət xadimi olaraq cəmiyyətdə qadının rolu, mövqeyi, sosial fəaliyyəti hər zaman Nəriman Nərimanovun diqqət mərkəzində olmuşdur. Onun 1925-ci ildə nəşr olunan "Sosializm və qadın azadlığı" əsəri XX əsrin 20-ci illərində Azərbaycanda mövcud olan qadın bərabərsizliyini, erkən evliliyi, məişət zorakılığı, qadın hüquqlarının pozulması, təlim və təhsil problemləri və digər problemli məsələlərin öyrənilməsində əhəmiyyətli mənbədir. Nərimanov bu əsərdə kommunizm dəyərlərini ön plana çəkərək mövcud sosial-mədəni dəyərləri burjua dəyərlərinə qarşı qoyurdu. O, XX əsrin əvvəllərində Azərbaycanda qadın probleminin qoyuluşunu icma düşüncə ənənələrindən başlayaraq 1925-ci ilə kimi bütün həqiqi gerçəkliklərini öz çılpaqlığı ilə oxucuya çatdıra bilmişdir.

Əsərin məzmunu beş hissədən ibarətdir:

1. Sosial bərabərsizlik / Əmək
2. Sənayeləşdirmə prosesində qadın əməyi
3. Təlim və təhsil problemi
4. Cinsi bərabərsizlik
5. Qadın hüquqsuzluğu

***Sosial bərabərsizlik / Əmək.*** N. Nərimanov "Qadın azadlığı" probleminin ilkin səbəblərini ibtidai icma quruluşundan bəri tarixi hadisələr ilə oxucuya izah edir. O, ibtidai icma quruluşunun dağılması, əmək bölgüsünün yaranması, anaxaqanlığından ataxaqanlığına keçid prosesləri cəmiyyətdə qadına olan münasibətə təsir etdiyini izah edir. Nərimanov ibtidai icma quruluşunun dağılması, kiçik dövlət ənənələrinin yaranmasını, ictimai əmək bölgülərinin səbəbini "əmək" ilə əlaqələndirir. Əsərdə qeyd olunur: *"İnsan yaşamaq üçün çörəyə, suya, paltara, mənzilə və bir çox sair şeylərə möhtacdır. Yaşamaq üçün bunların hamısını insan təbiətdən alıyor. Lakin təbiətdən həvayi deyil, əməyi sayəsində alıyor".*[3;32] İnsanı heyvandan fərqləndirən cəhət də "əmək"dir. Çünki, hər bir vəhşi heyvan yalnız şikarını ovlayaraq qidalandığı halda, insan həmin şikarı ovlamaqla bərabər onun dərisindən, sümüyündən özünə lazım olan məhsulları istehsal edir. Nərimanov izah edir: *"İnsan yaşamaq yolunda heç bir zaman təklikdə yalnız başına bulunmamışdır. O illərdə cəmiyyətlər pək kiçik idilərsə də fəqət yenə də cəmiyyətlər daima var idi və müştərək əmək və mübarizə daima mövcud idi".* [3;32] İkinci xüsusiyyət- insanı heyvandan ayırır

və onu insan halına qoyur. Bu insanın mübarizə yolunda hazırlanmış silahlardan istifadə edə bilmək sənətindən ibarətdir.

Əsərdə təsərrüfatın dinamik inkişafı əks olunaraq, kəndlilərdən sənətkarlıq və ticarətin yaranması haqqında tarixi əsaslarla ehtiva olunan məsələlər qeyd olunur. Xırda təsərrüfatın, xüsusi mülkiyyətin yaranması bəşər cəmiyyətinin inkişafına və yeni ictimai inkişaf mərhələsinin yaranmasına səbəb olan əsas amillərdən idi. Belə bir ictimai formasiya adı almış mərhələlərin mütərəqqi şəkildə bir-birini əvəz etməsi proseslərində qadının vəziyyətinə necə təsir etmişdir? Təbii haldır ki, bu proseslərin həyata keçməsi qadınların cəmiyyətdəki sosial duruma təsirsiz ötüşməmişdir. Əsərdə bu prosesin qadınlara təsiri belə təsvir olunur: *"Köçəri halında gördüklərimiz üzrə qadınlar kişilərlə hər bir cəhətdən bərabər olaraq bütün təhlükə və ehtiyacda onlarla müştərək idilər: Təsərrüfat texnikası insanları qruplara ayırmayırdı".* Qadınların vəziyyətinin ağırlaşması bədəvi qəbilələrin əkinçilik həyatına keçməyə başladığı zamandan dərinləşdi. Hətta kişilər uzun müddət ovçu və bədəvi halında qaldıqları zaman qadının kişi üzərində üstünlüyü müşahidə olunurdu. Nərimanov kişi və qadın arasında olan nigahların müxtəlifliyi haqqında yazır: *"Bədəvi dövrlərdə bizim düşündüyümüz tam mənada nigah yox idi. Yəni bir qadının bir kişi ilə daimi sürətdə yaşaması qaydası yox idi. Kişilərdən hər birinin bir çox arvadı olduğu kibi, qadınların da hər birinin bir çox əri var idi".* [3;43] Bu F.Engelsin "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" adlı əsərindəki poliqamiya, poliandriya, monoqamiya ailələr haqqındakı məlumatı xatırladır. Bütün xalqlarda yaşanan bu cür ailə formaları monoqamiya ailə formasına keçid ilə əmlakın kişiyə məxsus olması və varislərə keçməsi, qadının hüquqsuzluğu və bu kimi digər məsələlərin yaranmasına səbəb olmuşdur. Bundan əlavə, ailə tarixinin öyrənilməsi 1861-ci ildən, Baxofenin "Ana hüququ" hesab olunan əsərində "heterizm" (qeyri-məhdud cinsi əlaqə) olması səbəbindən atanı düzgün müəyyən etmək üçün heç bir imkan olmadığından mənşəyi yalnız qadın-ana xətti ilə müəyyən etmək mümkün olması,nəslin yeganə valideyni kimi – qadının yüksək dərəcədə hörmət göstərilməsi qadınların tam hökmranlıq dərəcəsinə çatdıran səbəblərdən biri kimi göstərilirdi. [2;5] Bu dövrdə artıq xüsusi mülkiyyətə keçid nəticəsində qadınların vəziyyəti kəskin dəyişməyə başlamışdır. Qonşu qəbilələrin müharibələri zamanı qadınlar satın alınır, əsir götürülürdü. Nərimanov yazır: *"Hakim sinif öz malikanələrini nəinki özü, bəlkə özündən sonra da gələcək olan övladı və nəsli üçün də, möhkəmləndirmək fikrinə düşmüşdür... Ona görə də qadını ancaq özləri üçün almağa başladılar. Beləliklə, bizim mənada nikah məsələsi meydana çıxdı".* Qadının əsarət və itaət altında yaşamasının bünövrəsi xüsusi mülkiyyətin genişlənməsi prosesində baş verdi. Ataxaqanlığının cücərdiyi bir dövrdə qadınların əziyyəti getdikcə ağırlaşırdı. Fiziki cəhətdən

zəif və zərif olan qadınlar əli silah tutmuş kişilərə - rəislərə, əsgərlərə tabe olmaq məcburiyyətində idilər.

Ana hüququnun devrilməsi qadın cinsinin ümumdünya – tarixi məğlubiyyəti demək idi. Kişi idarəetmə cilovunu öz əlinə aldı, qadın isə öz şərəfli mövqeyini itirdi, əsarət altına alındı. Bu vəziyyətinə riyakarlıq, fədakarlıq donu geyindirilərək qadınlar məişət quluna, nəsil artırma alətinə çevrildi. Kişi hakimiyyətinə tabe olan qadınların vəziyyəti indiki dövrə qədər qənaətbəxş deyil.

Ümumiyyətlə Nərimanov qeyd edirdi ki, qadının vəziyyəti cəmiyyətin əsas təsərrüfat əməyində iştirakına görə dəyişir. Məsələn, sənətkarlığın inkişaf etdiyi bir dövrdə qadınlar da şəhərdə kişilərlə birgə çalışaraq cəmiyyətdə bəzən böyük hüquqa malik olurdular. Lakin qadınlar yenə də kişilərin itaəti altında idilər. Ərə gedənə qədər atasının, ərə getdikdən sonra ərinin və dul qaldığı zaman da oğlunun itaəti altında idi.

Əsərdə qadınların əsirlik və köləlik halında inkişaf etmələri burjuaziya üsul-idarəsi üçün, ictimai tərəqqi üçün böyük maneə olduğu qeyd olunur. Qadınlarınn bu acınacaqlı vəziyyətinin davam etməsi bəşəriyyətin inkişafı yolunda olduqca təhlükəlidir. Bəşəriyyətimiz uzun tarixi mərhələlərdən keçməsinə baxmayaraq XX əsrin əvvəllərində də qadınların kölə, qul kimi yaşaması halları olduqca geniş vüsət almışdır.

***Sənayeləşdirmə prosesində qadın əməyi.*** Nərimanov yazır: *"Ən əvvəl bəşəriyyət yarısını təşkil edən qadın qüvvəsi, ev təsərrüfatının və ailə həyatının xırda-para işlərinə sərf olur və qadınların böyük bir hissəsi ictimai təsərrüfatın əsas quruluşunda qətiyyən iştirak etməyor və yaxud ediyorsa da, fəqət görgəncə etməyor. Əgər ev və ailə həyatı münəzzəm bir sürətdə qurulmuş ola idi və qadınların da əməyə istehsala sərf olunan idi, o zaman cəmiyyətin sərvəti nə qədər artmış və yaşayış nə qədər asanlaşmış olardı "* [3;47]. Təbiidir ki, ictimai tərəqqi və yaşayışın yaxşılaşması, istehsal qüvvəsinin inkişafından asılıdır. Texnikanın inkişafı ilə bərabər qadınlar da sənayeyə get gedə cəlb olunmağa başlamışlar. Nərimanov qadınların kişilər ilə bərabər işlədiyi sənaye sahəsində qadınların mövcud vəziyyətini izah edir. Qadınların kişilərdən fiziki cəhətdən zəif olmasını onların fizioloji quruluşunun fərqli olması ilə izah edir. Belə ki, qadınlar uzun zamandan bəri cismani əziyyət tələb edən məişət işləri ilə məşğul olduğuna görə qadın əzələləri kişilərə nisbətən daha az inkişaf etmişdir. Lakin, müxtəlif tarixi dövrlərdə döyüşcü qadınların mövcudluğuna da rast gəlmək mümkündür. Nərimanov qədim alman qadınlarını misal gətirərək, onların ağır işlər görməklə yanaşı hətta müharibədə döyüşərək kişilərdən heç də geri qalmadığını qeyd edirdi. Tarixə nəzər salsaq görərik ki, tarix boyu təkcə alman xalqlarının deyil, qədim türk xalqarının qadınları da döyüşkən olub, kişilər ilə çiyin çiyinə müharibələrdə iştirak ediblər. Lakin fiziki qüvvə texniki qüvvə ilə

əvəz olunmağa başlandığı zamandan cəmiyyətin tərəqqisi üçün bilik, elm, təhsil daha öndə duran məsələlər idi.

Nərimanov XX əsrin əvvəllərində sənaye sahəsində çalışan qadınların müharibədən (I dünya) əvvəlki sayına nisbətən yüksək olduğunu statistik cədvəllər ilə oxucuya aşılamışdır. O, İngiltərədəki kişi və qadın işçi qüvvələrinin bir birinə nisbətini izah edir:

**Dövlət idarələrində daxil olduğu halda bütün sənayedə.**

| | *1914 sənəsinin iyul ayında müharibəyə qədər* | *1918 sənəsinin noyabr ayında müharibə əsmani* | *1919 sənəsinin oktyabr ayında müharibədən sonra* | *1918 sənəsinin noyabrından 1919 sənəsinin oktyabrına qədər* | *1914 iyulundan 1919 sənəsinin oktyabrına qədər* |
|---|---|---|---|---|---|
| kişi | 6.302 000 | 5.261 000 | 6.188 000 | +927700 | -11400 |
| qadın | 3.179 000 | 2.975 000 | 2.454 000 | -52100 | +275000 |
| Cəm | 8.481 000 | 8.236 000 | 8.642 000 | +406000 | +161000 |

Qeyd: + Artmış, - əksilmiş. ***Cədvəl 1.***

| | | 1914 sənəsinin iyulunda müharibəyə qədər | 1918 sənəsinin noyabrından müharibə vaxtı | 1919 sənəsinin oktyabrında müharibədən sonra | 1918 sənəsinin noyabrından 1919 sənəsinin oktyabrına qədər | 1914 sənəsinin iyulundan 1919 sənəsinin oktyabrına qədər |
|---|---|---|---|---|---|---|
| **Filiz sənayesi** | Kişi | 1.634 000 | 1.876 000 | 1.926 000 | + 60 000 | +302 000 |
| | Qadın | 170 000 | 596 0 | 303 0 | -293 000 | +132 000 |
| | Cəm | 1.804 000 | 2.472 000 | 2.239 000 | -233 000 | +435 000 |
| **Mədən sənayesi** | Kişi | 1.266 000 | 1.929 000 | 1.172 000 | +233 000 | +600 |
| | Qadın | 7000 | 13 000 | 9.9000 | -3000 | +2900 |
| | Cəm | 1.273 000 | 1.952 000 | 1.282 000 | +230 000 | +900 |

Qeyd: + Artmış, - əksilmiş. ***Cədvəl 2.***

Sənayeləşdirmə prosesində fabriklərdə qadınlar kişilərlə bərabər əmək sərf edirdilər. Lakin qadınların fəaliyyəti təkcə fabrik-zavodlarla kifayətlənmirdi, həmçinin müəllimlik vəzifəsinin aparıcıları da məhz qadınlar idi. Nərimanov Avropa və Amerika qadınlarını misal göstərib qeyd edir ki, orada

qadınlar eyni zamanda müalicə işləri ilə məşğul olurdular. Hətta aqranom, mühəndis, məhkəmə vəkili, professor qadınlar da var idi.

Nərimanov qadınların fabrik-zavodda çalışmasıyla yanaşı, onların ailə vəziyyətini də nəzərə alırdı. Çünki, müsəlman Şərq qadınları ailəyə, uşağa, məişət işlərinə bağlı olduğundan belə ağır iş rejimində işləmək olduqca çətin idi. Bu səbəbdən Nərimanovun imzası ilə 1920-ci il 15 dekabrda qəbul edilən Xalq Əmək Komissarının qadınların işi haqqında qərarına əsasən ağır fiziki işlərdə, gecə növbəsində, yeraltı, təhlükəli işlərdə işləmək qadınlar üçün qadağan edildi. Eyni zamanda qərarda fiziki işlə məşğul olan hamilə qadınlara doğuma qədər və doğumdan sonra 8 həftəlik məzuniyyətin verilməsi, südverən analara isə hər üç saatdan bir ən azı yarım saat müəssisəni və ya qurumu tərk etmək hüququ əks olunmuşdur. [4;414]

***Təlim və təhsil problemi.*** XX əsrin əvvəllərində cəmiyyətdə köklü problemlərdən biri də qadınlar arasında savadsızlıq, təhsil problemi idi. Bu dövrün böyük mütəffəkirləri kimi Nərimanov da bu problemin işıqlandırılmasına əsərlərində xüsusi yer ayırmışdır.

Əsərdə qadınların təhsilsiz olması, elmə az yiyələnməsi probleminin səbəbləri izah olunur. Nərimanov qeyd edir ki, elm sahəsində kişilərə nisbətən qadınlar daha az töhfə vermişlər. Qadınlar bu dövrə qədər alimlər və ictimaiyyət üçün böyük adamlar yetişdirməmişlər. Buna səbəb bu dövrdə qadınların kişilərə nisbətən əql və ağıl cəhətdən daha az inkişaf etməsi idi. Bəs qadınların əql və ağıl cəhətdən daha az inkişaf etməsinin səbəbi nədir? Səbəb müqəssir qadınların bioloji quruluşu yoxsa ictimai vəziyyətdir? Nərimanov bu sualları daha aydın şəkildə izah edib həmin dövrdə qadınların mövcud vəziyyəti haqqında təsəvvürlər yaradır.

Nərimanov məsələnin qoyuluşuna birtərəfli yanaşmır və qadın təbiətinin nöqsanlı olmadığını, məsələni qadınların ictimai həyatdakı vəziyyəti ilə əlaqələndirir. Nərimanov yazır: *"Qızların oğlanlar ilə bərabər təlim və təhsil aldıqları zamanda böylə, indiki ictimai üsul idarə kişilərə tətbiq etdiklərimiz ölçünü qadınlara da tətbiq edə bilərmiyiz? Mütləqən yox deyəcəksiz."* Burada müqəssir qız uşaqlarının təlim və təhsilinə şərait yaratmayan cəmiyyət idi. O cəmiyyət, qadınları savadsız olduğu müddətcə uğur qazana bilməz.

O, ürək ağrısı ilə müsəlman və Qərbi Avropa qızlarının təlim və tərbiyəsi məsələlərini müqayisə edir: müsəlman qızlarının uşaqlığından bəri analarının diqqəti onun zahiri gözəlləşdirməyə, ədası, işvəbazlıq və qəmzəni onda tərbiyə etməyə çalışdığını göstərir. Qız uşağının bədən sağlamlığı, xasiyyəti, təlim və təhsili ikinci planda qalır. Qərbi Avropa məmləkətinin qızların təlim aldıqları təhsilin proqramı sadə olmaqla yanaşı, qadınlar üçün təlim və təhsil məsələləri olduqca mühümdür. Bəs, indiki cəmiyyətdə oğlan uşaqlarına tərbiyə və təlim nə məqsədlə verilir? Sualının cavabını Nərimanov belə izah edir: *"Əgər indiki cəmiyyətdə böyük torpaq sahiblərini istisna*

*edərsək, kapitalist cəmiyyətinin yerdə qalan az-çox varlı qrupları mütləqən zərurət və ehtiyac üzündən təlim veriyorlar. Təhsilsiz və ciddi bir təhsil almadan nə vəkil, nə təbib, nə müəllim, nə artist, nə mühərrir, nə siyasi fəal və ümumiyyətlə heç bir şey olmaq mümkündür".*[3;24] Gənclərin təlim-tərbiyəsi ana-atanın məsuliyyəti ilə də əlaqələndirilir. Belə ki, valideynlər gəncin elmə həvəsini diqqətlə izləməli və onun əməyə, ixtiraya xüsusi meylini dərhal sezməlidirlər. Gənc oğlan ailə sahibi olduqdan sonra bütün ailəsi, yoldaşı onun çalışmasına mane olsalar belə, belə bir şəraitdə kişilər arasında alimlərin, aktyorların, yazıçıların və digər cəmiyyətə töhfə verəcək böyük şəxsiyyətlərin yetişməsi təəccüb doğurmur.

İndi isə qadınlar arasında cəmiyyətə töhfə verəcək, ixtiraçı, alim qızların yetişə bilməməsinin səbəbini izah edək. Bu dövrdə müsəlman qızlarımızı elə etiqadda tərbiyə edirdilər ki, onlar üçün təlim və təhsil ikinci və yaxud sonuncu dərəcədə duran məsələ idi. Qızların həyatında öndə gedən əsas məsələlər gözəllik, işgüzar, zərif və cazibədar olmaq idi. Nərimanov yazır: *"Qız nə qədər ağıllı olursa olsun, fəqət çirkin olursa, kəndinin bir qədər gözəl və görkəmli yoldaşının qarşısında mütləqən mönfəal olur. Qızın ümdə məqsədi ər tapmaqdır. Ər isə gözəlliyi,əqli və işvəbazlığı təhsilə tərcih veriyor".* [3;27] Hər hansı bir sənətə marağı olan istedadlı qızın qarşısında iki seçim dayanırdı: İstedadını genişləndirmək uğrunda çalışmaq, yaxud ərə getmək. Qadınların seçim qarşısında qalmasına səbəb evli qadınlarının məişət yükünün ağır olması, ərinin və uşaqlarının qeydinə qalması ilə vaxtını şəxsi inkişafı üçün səmərəli istifadə edə bilməməsidir. Məhəbbət və analıq bəxtiyarlarından imtina edən qadınlar elmə töhfələr vermə bacarığına malik olurdular. Nərimanov əsərdə belə qadınların nümunəsi kimi məşhur rus aliməsi, riyaziyyat professoru Sofiya Kovalevskaya, Keri (radio kimyəvi element tətbiq edən), cəmiyyət xadimlərindən Vera Zasoqiç, Vera Viqner, Lili Braun, Roza Lyüksemburq, Klara Setkina və digərlərini misal göstərir.

Nərimanov izah edir ki, qadının analıq statusunun alması onun şəxsi inkişafına maneələr yaratmır. Sadəcə qadın analıq borcundan əlavə mətbəx, ev işləri ilə məşğul olduğundan özünü inkişaf etdirmək, ciddi əməklə məşğul olmağa fürsət tapa bilmir. Əsərdə deyilir: *"Analıq vəzifəsinin özü qadının ictimai əməkdə və ictimai tərəqqi və mədəniyyətdə kişilərlə birlikdə iştirakı əslən mane deyildir".*[3;27] Qadınların hamiləlik və doğuş dövrü xüsusi diqqət tələb edərək bu müddət ərzində qadınları iş fəaliyyətindən məhrum edir. Lakin qadın cəmiyyətə lazımlı bir işçi kimi dövlət tərəfindən qeydinə qalınmalı, onun yenidən əmək fəaliyyətinə qayıdılması üçün şərait yaradılmalıdır. Yalnız bu halda qadın müəyyən bir müddətdən sonra öz ictimai həyatına qayıdaraq kişilərlə bərabər fəaliyyət göstərə biləcəklər.

***Cinsi bərabərsizlik.*** Gənc qız "təhsil"ini bitirdikdən sonra cəmiyyətin mental dəyərlərinə uyğunlaşma prosesinə "keçid" edir. Valideynlərin əsas hədəfi qızlarını mümkün qədər tez ərə verməkdən ibarətdir. Nərimanov nikah məsələsinə ciddi yanaşır və olduqca həssas nüanslara toxunur. O, məqsədi pul üzərində qurulan evlilikləri qınayırdı. Əsərdə qeyd olunur: *"Qız dövlətlidirmi, yoxsuldurmu bir o qədər fərqi yoxdur: çünki çox vaxt kəbinə yalnız ticarət və alver nöqteyi nəzəri ilə baxırlar".* Kasıb ailənin qızı imkan cəhətdən özünə müqabil olmayan biri ilə evləndikdə onu şiddətli sürətdə danlayıb məzəmmət edirdilər. Bəzi hallarda isə gənc və gözəl qızları imkanlı şəxsə (qocaya) ərə verirdilər. Qadınların ərə getməzdən əvvəl məhəbbətin nə olduğunu bilənlər qəbahətlənirdilər. Bundan başqa cəmiyyətdə vətənini tərk edib yoldaşını yalnız qoyan kişilər zamanlarını eyş-işrətə sərf etdiyi halda uzun illər, qocalana kimi vətənində tənha yaşayaraq, yalnız ərinin geri dönüşünü gözləyən qadınlar "ideal qadın" obrazı ilə nümunə göstərilirdi. Qadınlardan fərqli olaraq kişilər üçün bu halın necə əlverişli olduğunu anlamaq çətin deyildi. Nəticədə qadın cəmiyyətin mental dəyərlərinə boyun əyməyə məcbur olur: *"Nəhayət qadın öz halını təbii sanaraq öz evi və kişinin arzu və istəyi çərçivəsindən dünyaya baxmağa adət ediyor".*[3;3]

Cəmiyyətdə qadının boşanma hüququndan da haqlı istifadəsi bir mənalı qarşılanmırdı. Əsərdə deyilir: *"Kişi nə qədər mənfur olursa olsun və öz arvadı ilə nə qədər qaba və mərhəmətsiz rəftar edirsə etsin, ancaq arvad ərindən ayrılıb yalnız başına yaşamaq istədikdə burjua aləmi qadını şiddətli bir sürətdə qəbahətləndirir".*[3;4] Nərimanov yazır : *"Almaniya burjuaziyasının imperatoru Vilhelm qadının yaşayışındakı vəzifə və rolunu müəyyən etmək məqsədilə onu dörd sözlə tamam etmiş: çoçuq, mətbəx, əlbəsə və kilsə".*[3;4] Nərimanov qeyd olunan vəzifələrin məzmununu təhlil edərək oxucuların nəzərinə çatdırmışdır. *Uşaq* dedikdə onun qeydinə qalınması, onun cismani ehtiyacların ödənilməsi, təmiz geyindirilib bəsləndirilməsi nəzərdə tutulur. *Mətbəx* işləri isə evdar qadının üzərinə düşən böyük məişət yüküdür. *Əlbəsə* qadını kişidən daha artıq görkəmli edən, cazibədar göstərən geyim vasitəsidir. *Kilsə* isə öz səlahiyyəti ilə kişilərin arzu və istəklərini müqəddəsləşdirməyə nail olur. Məlumdur ki, fırıldaqçı din xadimlərinin sayəsində bir çox kişilər qadınlar üzərində haqsız dominantlığına "dini" don geyindirməklə istədiklərini həyata keçirirdilər.

Əsərdə bəşəriyyətin utancverici varlıqları olan fahişələrdən söz edilir. Nərimanov ürək ağrısı ilə bu dövrün eybəcər gerçəkliklərini təcəssüm etməyə bilməzdi. O, yazır: *"Qadın hüquqsuzluğunu hər yerdə ən mənfuri və çirkini fahişəlikdir. Bu insanı heyvandan ayıran və insanın ən gözəl və alicənab xüsusiyyətlərindən biri olan – insanın həqiqi məhəbbətə istedadı ayaqlar altında tapdanıb ləkələnir. Mədəniyyət məhəbbəti ruhlandırıb, onu yüksəltmiş, fahişəlik isə insanı donuzdan da alçaq etmişdir."* Fahişəliyin sürətlə yayılması

qadınların aclıq və ehtiyacdan başqa səbəb olmadığı göstərilir. Yalnız aclıq və ehtiyac üzündən bir insan bədənin satmasına razı ola bilər. Qadınların savadsızlığının, nadanlığının, təhsilsizliyinin, cahilliyinin baş aldığı bir dövrdə qadınların bu yola düçar olmasına gətirib çıxarırdı. Dövlət bir tərəfdən fahişəliyin əleyhinə çıxır, digər tərəfdən isə fahişəxanalara icazə verməklə onları himayə edirdi. İşçilərin sağlamlığını qorumaq məqsədilə onların müayinəsi üçün həkimlər təşkil olunurdu. Lakin bu müayinələr düzgün aparılmadığı üçün zöhrəvi xəstəliklər əsrin ən təhlükəli xəstəliklər sırasına daxil olmuşdur. Məsələn, Azərbaycanda bütün əhalinin əlli faizi sifilis xəstəliyinə düçar olmuşdur. (Sifilis - dərinin, selikli qişaların, daxili orqanların, sümük və sinir sisteminin zədələnməsi ilə müşahidə olunan və cinsi əlaqə yolu ilə yoluxan zöhrəvi xəstəlikdir). Bununla da, kişi zöhrəvi xəstəliyin daşıyıcısı olduğu qadından qazandığı yoluxucu xəstəliyi ailəsinə gətirməsi nəticəsində xəstəliklərin yaranmasına şərait yaradırdı.

Bütün bu məsələ ilə bağlı Cənubi Qafqazda MİK öz nəzdində fəaliyyət göstərən Qadınların Əməyinin və Məişətinin Yaxşılaşdırılması Komissiyasının 1928-ci il 10-13 iyun tarixli vəsaitinə müvafiq olaraq həmin il iyulun 14-də ana və uşaqların mühafizəsi barəsində xüsusi qətnamə qəbul edildi. Qərarda fahişəliyə qarşı mübarizə ilə bağlı tədbirlər də əks olunmuşdur:

- Respublikada fahişəliyə qarşı mübarizə sovetinin təşkil edilməsi və Xalq Səhiyyə, Əmək və Daxili İşlər Komissarlıqlarının qadın və uşaq fahişəliyinə qarşı mübarizəni gücləndirməsi;
- Təşkilatlarda bu məqsədlə ayrılmış xərclərin miqdarı yerli və dövlət büdcəsi, sosial sığorta orqanları, ictimai orqanlar (məsləhət, sosial yardımlar və s.) hesabına artırılması
- Qadın işsizliyi ilə bağlı təşkilatı işlərin gücləndirilməsi zərurəti qeyd olunurdu. [1]

Əsərdə 1920-1930-cu illərdə sovet dövründə yaşayan müsəlman qadınların ictimai və sosial həyatları əks olunmuşdur. Nərimanov yaşadığı müddətdə bütün varlığı ilə qadınların təhsil almasının, azad olmasının labüdlüyünü aşılamağa çalışırdı. O, həmin dövrün “sovet qadını” modelini oxucunun təsəvvüründə yaratmağa nail olmuşdur. Bu o “model” idi ki, təhsil almaq ixtiyarında olmayan, erkən yaş dövründə nikaha məcbur edilən, hüquqlarını bilməyən, məişət problemləri zamanı qətlə yetirilən qadınları təcəssüm edirdi. Əsər bütövlükdə sovet siyasətinin və ideologiyasının gerçəkliyini əks etdirirdi.

# Ədəbiyyat


1. Azərbaycan MDA: f57, siy.1, iş 593, 16v
2. Engels F. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi.Bakı,1989, 191 s.
3. Nərimanov N. Sosializm və qadın azadlığı. Bakı, 1925.
4. Н.Нариманов. Избранные произведения.т.2. Баку,768 с.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2022, 2 (35), s.71-80

# NƏRİMAN NERİMANOVUN GENUYA KONFRANSINDA İŞTİRAKI VƏ ROLU

**Oksana Abbasova**
***Bakı Dövlət Universiteti***
oksana.abbasova88@gmail.com

***Açar sözlər***:*N.Nərimanov, kapital, bolşevik, neft, Avropa*

*Cənubi Qafqaz Federasiyasının nümayəndələri kimi N.Nərimanov, P.Mdivani və A.Bekzadyan Genuyaya gedəcək sovet nümayəndə heyətinin tərkibinə daxil oldular. Əslində Sovet Rusiyası nə Nərimanovu, nə də, digər əyalət nümayəndələrini Avropa dövlətləri ilə aparılan diplomatik danışıqlarda iştirak etməsini istəmirdi. Onların sovet nümayəndə heyətinə daxil edilməsi beynəlxalq vəziyyətlə bağlı idi, belə ki, bolşeviklər bir növ bu respublikalarda müstəqil hökumətlərin fəaliyyət göstərdiyini nümayiş etdirmək istəyirdilər. Genuya konfransında neft konsessiyası ilə bağlı məsələlər də müzakirə olunacağı gözlənildiyindən, Nəriman Nərimanov neftin əsl "sahibi" kimi, sovet nümayəndə heyətinin tərkibinə daxil edilmişdi.Məqalədə Sovet Rusiyası Avropa iqtisadiyyatının bərpası ilə bağlı çağırılan Genuya konfransına böyük önəm verməsindən,bolşeviklərin normal diplomatik əlaqələr yaratmağın olduqca mümkün yolunu axtarışından, ölkə liderlerinin ticarət sazişi bağlanılmasının mühümlüyü barəsində çıxışları və s. kimi məsələlər təhlil olunmuşdur.*

## УЧАСТИЕ И РОЛЬ Н. НЕРИМАНОВА В ГЕНУЭЗСКОЙ КОНФЕРЕНЦИИ

**Аббасова Оксана**

***Ключевые слова***:*Н.Нариманов, столица, большевик, нефть, Европа*

*В качестве представителей Южно-Кавказской Федерации к сбору советской делегации в Генуе присоединились Н.Нариманов, П.Мдивани и А.Бекзадян.Фактически Советская Россия не хотела, чтобы Нариманов или другие провинциальные чиновники принимали участие в дипломатических переговорах с европейскими странами.Включение их в советскую делегацию было обусловлено международным положением, так как большевики хотели продемонстрировать наличие в этих республиках независимых правительств. Поскольку на Генуэзской конференции должны были обсуждаться вопросы, связанные с нефтяной концессией, Нариман Нариманов был включен в советскую делегацию как*

*реальный «хозяин» нефти.В статье анализируется присоединение Советской России к Генуэзской конференции о восстановлении европейской экономики, поиски большевиками возможного пути установления нормальных дипломатических отношений, выступления руководителей страны о важности заключения торгового соглашения и другие вопросы.*

## Participation and role of N. Nerimanov in the Genoa conference

**Abbasova Oksana**

***Keywords***:*N.Narimanov, capital, вolshevik, oil, Europe*

*As representatives of the South Caucasian Federation, N. Narimanov, P. Mdivani and A. Bekzadyan joined the gathering of the Soviet delegation in Genoa.In fact, Soviet Russia did not want Narimanov or other provincial officials to take part in diplomatic negotiations with European countries.Their inclusion in the Soviet delegation was due to the international situation, since the Bolsheviks wanted to demonstrate the existence of independent governments in these republics.Since the issues related to the oil concession were to be discussed at the Genoa Conference, Nariman Narimanov was included in the Soviet delegation as the real "owner" of the oil.The article analyzes the accession of Soviet Russia to the Genoa Conference on the restoration of the European economy, the Bolsheviks' search for a possible way to establish normal diplomatic relations, speeches by the country's leaders about the importance of concluding a trade agreement, and other issues.*

Cənubi Qafqaz Federasiyasının nümayəndələri kimi N.Nərimanov, P.Mdivani və A.Bekzadyan Genuyaya gedəcək sovet nümayəndə heyətinin tərkibinə daxil oldular. N.Nərimanov Azərbaycan hökuməti adından «sovet respublikalarının ümumi vahid səlahiyyətli nümayəndəliyində Azərbaycan Sovet Sosialist Respublikasının vəkili təyin olunur». [1]

Əslində Sovet Rusiyası nə Nərimanovu, nə də, digər əyalət nümayəndələrini Avropa dövlətləri ilə aparılan diplomatik danışıqlarda iştirak etməsini istəmirdi.Onlarınsovet nümayəndə heyətinə daxil edilməsi beynəlxalq vəziyyətlə bağlı idi, belə ki, bolşeviklər bir növ bu respublikalarda müstəqil hökumətlərin fəaliyyət göstərdiyini nümayiş etdirmək istəyirdilər. Sovet Rusiyası əslində istəyirdi ki, Cənubi Qafqaz respublikalarının özlərinin nümayəndələri bu respublikalarla bağlı Avropada yayılan bəzi şayiələrəözləri cavab versinlər. Belə ki, Avropa mətbuatı demək olar ki, hər gün Cənubi Qafqaz haqqında bu və ya digər məlumatlar çap edirdi. Gürcüstan, Azərbaycan və Ermənistanı antisovet üsyanları bürüdüyü barədə yayılan müxtəlif

məlumatlar Qərbin bəzi dairələri üçün maraqlı görünürdü. Avropa ölkələrində Cənubi Qafqaz respublikalarının, xüsusilə, Gürcüstanın sovetləşdirilməsinə qarşı etirazlar güclü olduğu üçün, onlar baş verən hadisələri yaxından təqib edirdilər. Eyni zamanda, Avropada yerləşən mühacirət nümayəndələri tez bir zamanda Cənubi Qafqazda sovet hakimiyyətinin devriləcəyi haqqında müsahibələr verirdilər. Sovet xüsusi xidmət orqanlarına yaxşı məlum idi ki, Qafqaz mühacirəti Genuyada vahid bəyannamə ilə çıxış etməyə hazırlaşırdı. Hələ Kann müşavirəsi işə başlayan zaman, 1922-ci ilin yanvar ayının 5-də Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz respublikalarının Parisdə olan nümayəndələri Fransanin xarici işlər naziri Aristid Briana nota ilə müraciət edib, bildirmişdilər ki, Avropa iqtisadiyyatının bərpası ilə bağlı məsələlərdə Qafqaz respublikalarına Rusiyanın bir hissəsi kimi deyil, ayrica bir iqtisadi məkan kimi baxılsın. Sənədə imza atanlar təklif edirdilər ki, Avropa iqtisadiyyatının bərpası ilə bağlı müzakirələrdə onlar bu respublikaların qanuni təmsilçiləri kimi tanınsınlar. Digər tərəfdən, II İnternasionalda gürcü menşeviklərinin mövqeləri çox güclü idi və onlar dəfələrlə sosialist partiyaların toplaşdığı bu güclü təşkilatda Gürcüstanın işğal olunması məsələsini qoyub, dünya sosialist partiyalarından dəstək ala bilmişdilər. Hətta, Gürcüstan məsələsi üç internasionalın rəsmi bəyanatına belə düşmüşdü.Maraqlısı isə o idi ki, Gürcüstan mühacir hökumətini P.Mdivaninin qardaşı Simon Mdivani təmsil edirdi. Sovet Gürcüstanının adından Genuya konfransına nümayəndə təyin edilməsi haqqında məlumat yayılan kimi, fevral ayının 13-də Parisdəki Gürcüstan mühacirətinin rəhbərlərindən olan Akaki Çxenkeli Fransa Baş naziri Raymon Puankareyə məktub göndərib, Kremlin adamı olan Gürcüstan XKS-in sədri P.Mdivaninin Gürcüstan nümayəndəsi kimi tanınmasına etirazını bildirmişdi.

Habelə, Cənubi Qafqaz nümayəndə heyətinin Genuya konfransında iştirakı Türkiyəni də olduqca çox maraqlandırırdı. Hələ İbrahim Əbilovla 1922-ci ilin yanvar ayının 26-da keçirdiyi görüşdə Türkiyənin xarici işlər naziri Yusuf Kamal bəy Cənubi Qafqaz respublikalarının, ilk növbədə isə, Azərbaycanın Genuya konfransına dəvət alıb-almaması ilə maraqlandı. İ.Əbilov bildirdi ki, bu haqda o, Azərbaycan hökumətindən hər hansı bir məlumat almamışdır. Səfir əlavə etdi ki, əgər belə bir dəvət olarsa, "biz, yəni, Cənubi Qafqaz respublikaları öz nümayəndələrimizi göndərəcəyik, ya da əlbəttə, əgər zərurət olarsa, Rusiya nümayəndələri vasitəsi ilə təmsil olunacağıq"[2].Yusuf Kamal bəy Cənubi Qafqaz respublikalarının Genuya konfransında iştirakının vacib addım olduğunu Əbilova bildirdi. O qeyd etdi ki, Genuyada Şərq Antantasının yaranmasına zərurət meydana çıxa bilər və bu halda biz bir-birimizin yardımından istifadə edə bilərik.

Genuya konfransında neft konsessiyası ilə bağlı məsələlər də müzakirə olunacağı gözlənildiyindən, Nəriman Nərimanov neftin əsl "sahibi" kimi, sovet nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. Neft konsessiyalarına hazırlıq

işləri ilə, Genuya konfransına hazırlıq tədbirləri Sovet rəhbərliyi tərəfindən parallel şəkildə aparılırdı. Çünki, rəsmi şəkildə elan edilməsə də, maraqlı tərəflər yaxşı bilirdi ki, Avropa iqtisadi konfransının başlıca hədəfləri neft məsələsi olacaqdır. M.Mehdiyev “Beynəlmiləl siyasətdə petrol” kitabında doğru olaraq yazırdı ki, “Konfransdan rəsmi məqsəd hərbdən daha yeni çıxdığı dolayısı ilə bərbad bir vəziyyətdə olan Avropa iqtisadiyyatının islah və tənzimindən ibarət idi. Həqiqi məqsəd (Bakı nefti imtiyazı) isə son dərəcə gizli tutulurdu”.[3]

Sovet Rusiyası Avropa iqtisadiyyatının bərpası ilə bağlı çağırılan Genuya konfransına böyük önəm verirdi. Bolşeviklər normal diplomatik əlaqələr yaratmağın olduqca mümkün yolunu axtarırdılar.Leninə görə, Genuya konfransında başlıca vəzifə ticarət sazişinə və digər düşərgənin pasifist dairələrinin birliyinə nail olmaqdan ibarət idi. Genuya konfransının gedişi zamanıN.Nərimanovun bolşeviklərin məqsədlərini təsdiqləyən deyimində vurğulayırdı ki, bizim kapitalistlərə ehtiyacımız olduğu kimi, kapitalistlərin də bizə ehtiyacı vardır. O, öz fikrini əsaslandırmaq üçün Loyd Corcun belə bir deyiminə istinad edirdi ki, “Rusiyanın iştirakı olmadan Avropa iqtisadiyyatının bərpa edilməsi mümkün deyildir”.

Bolşevik rəhbərliyi Genuya konfransında iştirak edəcək hər bir nümayəndənin bütün sovet respublikalarından mandat alınmasına böyük əhəmiyyət verirdi və belə kollektiv mandat prinsipi əslində, milli respublikaların nümayəndələrini öz ölkələrinin məsələsi ilə bağlı müzakirələrdə aktiv iştirakdan məhrum edirdi. Sessiyada V.Lenin nümayəndə heyətinin sədri, G.Çiçerin isə onun müavini təyin edildi. Lenin konfransa gedə bilməyəcəyi halda, onun bütün səlahiyyətləri sədrin müavininə, yəni, G.Çiçerinə verilirdi. Ekspertlərin işi haqqında Genuya konfransına hazırlıq üzrə komissiyanın direktivləri müzakirə olundu. Orada bütün borcların ləğv edilməsi, müharibənin daha çox dağıtdığı ölkələrə güzəştli şərtlərlə kreditlər verilməsi, bir sıra ölkələrin pul sistemi üçün vahid beynəlxalq qızıl standartının yaradılması, bir sıra ölkələrin inflyasiya və yanacaq böhranına qarşı mübarizə məqsədilə sazişə gəlməsi, beynəlxalq nəqliyyat vasitələrinin yaxşılaşdırılması və digər məsələlər əks olunmuşdu.

N.Nərimanovun Azərbaycan sovet respublikasının adından Genuya konfransına nümayəndə simasında göndərilməsi məsələsi 1922-ci ilin fevral ayının 11-də təsdiqləndi. Azərbaycan MİK, XKS və XXİK tərəfindən ona mandat verildi. Həmin mandatla o, beynəlxalq Genuya konfransında sovet respublikalarının vahid nümayəndə heyətinin tərkibində Azərbaycanın maraqlarını qorumalı idi. Həmin mandat N.Nərimanova bəyanatlar vermək, qərarlar qəbul etmək, aktlar və müqavilələr imzalamaq səlahiyyəti verirdi.

Moskvada Genuya konfransına gərgin hazırlıq işləri getdiyi üçün, fevral ayının 22-də respublika Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Azərbaycanın

Sovet Rusiyası hökuməti yanında səlahiyyətli nümayəndəsi Ə. Şirvaniyə (Mustafabəyova) teleqram göndərilərək, Avropa konfransına hazırlıqla bağlı sənəd və protokolların Azərbaycan SSR-in adından imzalanması ona tapşırıldı. Bu mandata uyğun olaraq, fevral ayının 22-də Azərbaycanın adından Ə.Şirvani və eləcədə pratakolu imzalayan digər hökümət nümayəndələri Genuya konfransında öz hökumətlərinin bütün səlahiyyətlərinin Sovet Rusiyasına verildiyini bəyan edir və bu hökumətlərin maraqlarının müdafiə edilməsini RSFSR nümayəndə heyətinə həvalə edirdilər.

Nümayəndə heyəti konfransa gedənə qədər bütün taktiki addımlar və təşkilati məsələlər Moskvada müzakirə edildi. Müzakirələrin gedişində aydın şəkildə göstərilirdi ki, Avropa ölkələri ilə sovetlərin ticarət münasibətlərində edəcəyi güzəştlər, qarşı tərəfin edəcəyi güzəştlərə uyğun olmalıdır. Müşavirədə hamılıqla qərara alınmışdı ki, sovet qurluşunun dəyişdirilməsinə aid bütün təkliflər qəti şəkildə rədd edilməlidir.

Moskvaya yola düşmək ərəfəsində N.Nərimanov “Bakinskiy raboçiy” qəzetinin müxbiri ilə geniş söhbət etdi. Bu söhbətdəNərimanov Genuya konfransını Qərbin Sovet Rusiyasına olan iqtisadi ehtiyacı ilə izah edir və buna sovet hakimiyyətinin Avropa tərəfindən etirafı kimi yanaşırdı. Onun fikrincə, konfrans baş tutmasa, və ya Qərbin bir oyunu olardısa, bundan kapitalizm dünyası daha çox itirəcək, nəinki, Sovet Rusiyası.

“Bakinskiy raboçiy” qəzetinə gözəl təssüratlarla müsahibəsindən az sonra, N.Nərimanov İtaliyaya yola düşmək ərəfəsində, mart ayının 27-də Sovetlərin Şərq siyasətindən və G.Çiçerindən narazılıq ifadə edən geniş bir məktubla İ.Stalinə müraciət etdi. Belə ki, Şərq siyasətinin problemləri yalnız xarici dövlətləri deyil, Şərqi sovet respublikalarını da cəlb edirdi. Sovet Şərqi xalqlarının öz müqəddəratını təyin etməsi problemi daha çox fikir ayrılığı və çətinliklər doğururdu.O yazırdı ki, bizim xarici siyasətimiz daxili vəziyyətimizi yetərli dərəcədə nəzərə almır, əgər bizdə hər şey uğurlu olsaydı və biz öz vəsaitimizlə iqtisadi həyatımızda olan böhranı aradan qaldıra bilsəydik, kapitalist Avropasının həyatında baş verən ziddiyyətlərdən bir nəticə gözləyə bilərdik. Şərq respublikalarındakı “əyintilərin” Sovet hakimiyyəti üçün təhlükə doğurabiləcəyini başa düşən N.Nərimanov təklif edir ki, onu Genuya konfransında iştirak etməkdən azad etsinlər. O, hesab edir ki, hazırkı vaxtda Tatarıstan, Başqırdıstan və Qırğızıstandakı işlər daha mühüm əhəmiyyətə malikdir. Bu məsələlərlə əlaqədar olaraq N.Nərimanov dəfələrlə B.İ.Leninə məruzələr yazmış, sonra isə İ.B.Stalinə də müraciət etmişdi. Türküstandakı, xüsusilə də Buxaradakı vəziyyətlə bağlı o yazır: “Türküstandakı siyasətimizə mənim nə qədər əhəmiyyət verdiyimi məruzəmdən görmək olar ki, burada mən Stalinə Genuyaya qədər, yerlərdə özümüzün yaratdığımız nöqsanlarla tanış olmaq üçün mənimlə birlikdə Türküstana yola düşməyi təklif etdim”. [4]

Bu məktublardan görünür ki, Nərimanov Genuya konfransına elə də böyük ümid bəsləmirdi. O yazırdı -"Genuya bizə heç bir şey verməyəcəkdir. Avropanı güzəştə getməyəməcbur etmək üçün, Şərq məsələsini düzgün yola yönəltmək vacibdir. Lakin bizim indiyəqədər yol verdiyimiz böyük səhvlərin nəticəsidir ki, Şərq daha bizə inanmır, o, məzlum kütlə simasında bizdən üz döndərmişdir, mən səhvlərin düzəldilməsi işinə ucqar respublikalarda, xüsusilə Türküstanda və Buxaradan başlamağı təklif edirəm. Yerigəlmişkən 19-cu ildən bütün məruzələrimdə Əfqanıstanla daha sıx əlaqə yaratmaq, Hindistanda daha da müvəffəqiyyətli inqilabi iş məqsədilə mən həmişə Türküstana diqqət yetirirəm ki, bu da Lloyd Corcun bütün planlarını alt-üst edərdi. [4]

N. NərimanovunGenuya konfransında iştirakına həsr olunanrəssam - Oqtay Sadıqzadənin portretində,Nərimanovun qəlbində millətinin taleyi ilə bağlı narahatlığı, nigarançılığı aydın ifadə edəndüşüncəli baxışları təsvir olunmuşdur.[5]

Beləliklə konfransın açılışına bir neçə gün qalmış Sovet nümayəndə heyəti artıq İtaliyada idi. 1922-ci ilin aprel ayının 6-da Genuyaya gələn sovet nümayəndələrinin İtaliyada ilk qarşılaşdığı ciddi məsələ Qafqaz məsələsi idi. Demək olar ki, Avropada olan Qafqaz mühacirəti hamılıqla İtaliyaya gəlmişdi və belə bir vəziyyət sovet nümayəndə heyəti üçün arzuedilməz idi. N.Nərimanov etiraf edirdi ki, "rəsmi və qeyri-rəsmi səviyyələrdə bizim nümayəndəlik utancaq aşiqlərin nə qədər yarımçılıq etiraflarını eşitməli olurdu".Sovet nümayəndələri Qafqaz respublikaraınm keçmiş idarəçilərini Genuyada onlar üçün təşkil etdiyi narahatlığı dərhal Moskvaya xəbər verdi. Sovet nümayəndələri Qafqaz mühacirətinin onlara qarşı çıxışlarının ingilislər tərəfindən təşkil olunduğundan şübhələnirdilər.[2]

Qafqazın mühacir hökumətlərinin İtaliya və digər Avropa ölkələrində Sovet hökumətinin siyasətinə qarşı təşkil etdiyi təbliğat kampaniyası geniş xarakter aldığı üçün sovet nümayəndələri onlara qarşı müxtəlif addımların atılmasını zəruri hesab edirdilər. Bu məqsədlə Sovet nümayəndə heyətinin üzvü N.Nərimanov konfrans günlərində özlərini Avropada Cənubi Qafqaz respublikalarının qanuni nümayəndələri hesab edən Əli Mərdan bəy Topçubaşov, Aleksandr Xatisov və İrakli Sereteliyə açıq məktubla müraciət etdi. Məktub sırf sovet ideologiyası və təbliğatının qaydalarına uyğun yazılmışdı. Nərimanov uzun illər ərzində çar istibdadına qarşı mübarizə aparmış Qafqazın keçmiş dövlət başçılarını ağılsızcasına çar Nikolayın siyasətinə uymaqda, öz hakimiyyətlərini saxlamaq üçün milli qırğın salmaqda, Zəngəzur, Qarabağ və Zaqatalada qarşıdurma siyasəti yeritməkdə və digər mənasız ideoloji məsələlərdə ittiham edirdi.[6]

Britaniya Baş naziri bu respublikaları Rusiyanın "müttəfiqi" kimi deyil, bolşeviklərin işğal etdiyi "sovet respublikaları" kimi dəyərləndirirdi. Parisdə olan mühacir nümayəndələri Britaniya Baş nazirinin bu nöqteyi-nəzərini doğru

hesab edirdilər. "Corriere Mercantile" qəzetinə verdiyi müsahibəsində Ə.M.Topçubaşov Lloyd Corcun fikrini müdafiyə edərək deyirdi ki, sülh və sabitlik naminə dövlətlər Genuyaya gəlmişdilər ki, ümumi iqtisadi həyatı bərpa etsinlər. Eyni zamanda onlar Sovet hökumətinə təklif edirdilər ki, rus ordusunu Azərbaycanın ərazisindən çıxarsınlar və Azərbaycanın əməksevər xalqına bolşevik zülmündən xilas olmaq imkanı versinlər. [2]

1922-ci il 10 aprel Genuya konfransının açılışı oldu. Açılış nitqində bir sıra ölkələr ümümi dil tapmaq və uğurlu nəticə əldə edecəkləri kimi nitqlər söylədilər. Müharibədən və məğlubiyyətdən daha çox ziyan çəkən Almaniyanın nümayəndəsi N.Nərimanovun sözləri ilə desək, "göz yaşlan içərisində öz ölkəsinin çıxılmaz iqtisadi vəziyyətindən danışdı". Nəhayət, konfransı salamlamaq üçün sözGeorgi Çiçerinə verildi. O, Sovet hökuməti adından geniş konsessiya proqramını elan etdi və bu proqram ilk növbədə, Avropa sənayesi üçün xammal bazası rolunu oynayacaq Sibirin təbii zənginliklərinə aid idi. Çiçerin yeni iqtisadi siyasətə keçidlə bağlı Sovet Rusiyasının öz qanun-vericiliyində bir sıra dəyişikliklər etdiyini, kapitalist ölkələri ilə iqtisadi əlaqələri genişləndirmək üçün beynəlxalq tranzit yollarını açmağa hazır olduğunu bəyan etdi. Bununla yanaşı, Çiçerin Qərb ölkələrinin başçılarını qıcıqlandıran bir sıra məqamlara da toxundu. O dedi: "Əgər doğrudan da, Avropa sülh və müharibənin dağıtdığı təsərrüfatı bərpa etmək istəyirsə, onda gərək tərksilah olsun və dünya qızıl fondunu ehtiyacı olan ölkələr arasında bölsün". Fransanın nümayəndə heyətinin başçısı Lui Bartu iqtisadi məsələlərə həsr olunmuş konfransda tərksilah haqqında məsələnin qoyulmasının doğru olmadığım bildirdi. Konfransda yaranmış qarşıdurmanı və gərginliyi yumşaltmaq məqsədilə Britaniya Baş naziri Lloyd Corc müzakirələrə müdaxilə etdi. O, bildirdi ki, əgər Genuya konfransı tərksilaha yol açmayacaqsa, onu baş tutmamış tədbir hesab etmək olar. Lakin Lloyd Corc tərksilahdan əvvəl sülhə gəlməyi, bir sıra mühüm məsələlərdə sazişə gəlməyi vacib hesab edirdi. Konfransda yaranmış bu gərginliklə bağlı N.Nərimanov yazırdı: "Lloyd Corc görəndə ki, Bartu konfransı pozmaq istəyir, söz aldı və yarım saatlıq nitqində həm Bartunu, həm də, Çiçerini tənqid edərək, onları ehtiyatlı hərəkət etməyə çağırdı və bununla da, konfrans iştirakçılarını sakitləşdirdi".[2]

Sovet nümayəndələri konfransın birinci gününü özləri üçün qələbə kimi, qiymətləndirirdi. N.Nərimanov bu "qələbədən" vəcdə gələrək yazırdı ki, biz Genuyada "Avropa burjuaziyasının maskasını yırtdıq, onun əsl sifətini göstər-dik...''İmtahan edənlər" imtahanda iflasa uğradılar. N.Nərimanov belə hesab edirdi ki, Sovet nümayəndə heyətinin Genuyadakı bəyanatı "indiyə qədəröz burjuaziyası ilə yaxınlaşmağı mümkün hesab edən Avropa fəhlələrinin" gözünü açdı.[2]

Genuya konfransının birinci günündən Nərimanovun aldığı ən mühüm təəssürat Şərq siyasətində tez-tez ittiham etdiyi Lloyd Corcla bağlı idi.

Britaniya Baş nazirinin Avropanın və bütün dünyanın həyatında mühüm siyasətçi olduğunu etiraf edərək yazırdi: "Lloyd Corc, şübhəsiz ki, ağıllı adamdır. Lakin onun öz ağlını hansı məqsədlər üçün və necə istifadə etməsi ayrı məsələdir. O, Avropanın həyatında cərəyan edən bütün hadisələrə ciddi şəkildə nüfuz etmişdir və yeni müharibə təhlükəsini sovuşdurmaq üçün kəskinləşmiş məsələləri hansısa yolla aradan qaldırmaq istəyir. O, başa düşür ki, yeni müharibə Avropanı tamamilə xarabalığa gətirib çıxaracaq və kim bilir ki, orada daha nələr baş verəcəkdir. Axı Lloyd Corc eyni zamanda, burjuaziyanın nümayəndəsidir və buna görə də onun maraqlarını müdafiə etməyə bilməz."[2]

Konfransda ən əsas məsələ neftin konsessiya verilməsi idiki, buna görə İngiltərə və Amerika rəqabətə girmişdilər. Sovet Rusiya nümayəndəliyi Bakı neftinin konsessiya verilməsinin tərəfdarı idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin Genuyaya gəlmiş nümayəndələri Sovet Rusiyasının Bakı neftini konsessiyaya vermək hüququnun olmadığım bəyan etdilər. Hələ, konfransın ikinci günü M.Məhərrəmov İtaliya mətbuatında çıxış edərək bildirdi ki, bolşeviklər Azərbaycan millətinə məxsus neft mədənlərini satmağa səlahiyyətli deyillər. Onun fikrincə, Bakı neft sənayesində rus kapitalı elə də, əhəmiyyətli rol oynamamışdı. Ona görə də, Məhərrəmov yazırdı ki, Abşeronun neftlə zəngin əraziləri Azərbaycan xalqına və oraya kapital qoymuş xarici şirkətlərə aid olmalı idi.

May ayının 3-də Genuya konfransının ikinci plenar iclası keçirildi. Konfransı pozmamaq naminə Qərb dövlətləri Sovet Rusiyası ilə yumşaq rəftar etməyə üstünlük verirdi. N.Nərimanov yazırdı: "Bu gün Genuya konfransının ikinci plenar iclası keçirilir. Əvvəldə olduğu kimi, yenə bir təntənə var. Biz zala axırda daxil oluruq. İndi nümayəndələrin bizə münasibəti tamamilə başqadır. Əvvəlki bədxahlıqdan əsər-əlamət yoxdur. İlk görüşdəki istehzalı baxışlar artıq hiss edilmir. Bizim natiqlər çıxış edərkən, zalda əvvəlki uğultu da daha duyulmur. Hamı səmimi gülümsünür, bizə yerimizə keçməyə iltifatla yol verirlər. Bizim səsimizə açıqdan-açığa diqqətlə vəlazimi ciddiyyətlə qulaq asırlar".

May avının 6-da Sovet nümayəndə heyətinin bir hissəsinin qəflətən Genuyanı tərk etməsi Qərb ölkələri nümayəndələrinin ciddi marağına səbəb olmuşdu. Amerika səfiri Çayld ilə söhbətdə Lloyd Corc Qərb memorandumuna Moskvadan təlimat almaq üçün İoffe və digər sovet nümayəndələrinin Berlində gizli müşavirə keçirmək məqsədilə Genuyanı tərk etdiklərini bildirirdi.

Genuya konfransından qayıdan N.Nərimanov "İzvestiya" qəzetinə geniş müsahibə verdi. O qeyd etdi ki, tərksilah haqqında sözümüz bizi bütün dünyada tanıtdı. Konfransa qədər bizə şübhə ilə yanaşır, "vəhşilər", "bolşevik barbarları" kimi baxırdılar. Lakin o zaman ki, biz birinci olaraq, tərksilah barədə təklif irəli sürdük, nəinki, konfrans salonunda oturanları, habeləbütün Avropanın ictimai dairələrini ayıltdıq". Neft konsessiyaları ilə bağlı suala gəldikdə isə, N.Nərimanov dedi ki, "bəzi neft mədənlərinin konsessiyaya verilməsi məsələsi hələ

axıra qədər həll edilməyib. Lakin hər ehtimala qarşı Bibi-Heybət sahəsində bir sıra mədənlərin qismən konsessiyaya verilməsini mən mümkün hesab edirəm. Bu, həm, Azərbaycan respublikası üçün faydalı ola bilər, həm də bizim dövlət sənayemizi lazim olan səviyyəyə qaldırmağa imkan verər".[7]

Nərimanov müsahibəsində deyirdi ki, "Konfransın Cənubi Qafqaz nümayəndələrinə münasibəti yaxşıdır. Biz orada Gegeçkori və Mdivanini gördük". Nərimanov izah etdi ki, hələlik danışıqlar davam edir, Nərimanov deyirdi: "Bu böyük qələbədir, digər qələbə isə ondan ibarətdir ki, bütün dünya və Avropa bizim ciddi şəkildə əməkdaşlıq etmək istədiyimizi gördü, lakin Fransa kiçik bir yığın kapitalistin mənafeyinə görə, ümumi sülhü pozur. Bütün Avropa qəzetləri bunun haqqında yazır. Lloyd Corc bəyan etdi ki, bu məsul dövrdə böyük rus və alman xalqları ilə hesablaşmamağı ağılsızlıq hesab edir".

N.Nərimanovun fikrincə, Genuya konfransının ən mühüm siyasi yekunlarından biri, Cənubi Qafqaz respublikaları nümayəndələrinin Zaqafqaziyanın "keçmiş adamları" üzərində qələbəsi idi. Müsahibənin sonunda Nərimanov Lloyd Corcun Britaniya icma palatasındakı çıxışına istinadən qeyd edirdi ki, Qərb üçün rus məsələsini həll etməyin üç yolu vardır: güc tətbiq etmək, Rusiyanı öz taleyinə buraxmaq və onunlasaziş bağlamaq. Onun fikrincə, birinci yol vətəndaş müharibəsi dövründə ağqvardiyaçıların sıyrılmış qılıncı timsalında artıq iflasa uğramışdı. İkinci yola gəldikdə isə Rusiya Qərblə əlaqə olmadan da yaşaya bildiyini sübut etmişdi. Ən nəhayət, Nərimanov qeyd edirdi ki, "artıq üç yol yoxdur, yalnız, bir yol vardır, Rusiya ilə razılaşma yolu, bu Haaqaya qədər olacaq, ya Haaqadan sonra, fərqi yoxdur".

Genuya konfransı sona çatdıqdan sonra, nəticədən razı qalan Bakı Soveti qeyd edir ki, Genuya konfransında sovet nümayəndə heyəti fəhlə-kəndli kütlələrinin mənafeyini və böyük inqilabımızın nailiyyətlərini şərəflə müdafiə etmişdir. Yoldaş Nərimanov Rusiya Federasiyasının nümayəndələri ilə birlikdə Bakı Sovetinin ona tapşırdıqlarını parlaq şəkildə yerinə yetirmişdi. Bakı Sovetinin iclası Sovet nümayəndə heyətinin və Nərimanovun Genuyadakı fəaliyyətini bəyənməklə yanaşı, Qırmızı Ordunun möhkəmləndirilməsi ilə bağlı işləri də gücləndirməyi tövsiyyə edirdi.[8]Ancaq ümümilikdə Genuya konfransı ümidləri doğrultmadı, nəticəsiz qaldı. Genuya konfransının belə uğursuz sonluğunu M.Mehdiyev neft şirkətlərinin gizli əməlləri ilə izah edirdi. O yazırdı: "Dünyanın gizli qüvvətlərindən ən böyüyü "Standart Oil" Genuya konfransını dağıtdı və bolşeviklərin "Royal Dutch" ilə əməkdaşlıq etmələrinə mane oldu. Böyləcə də Genuya konfransı dastanına xitam verildi... İngilislər ilə amerikalılar arasında mövcud olan mücadilə Azərbaycan neftinə sahib olmaq üçün başlanan həm siyasi və həm də iqtisadi səhifələrə tökülmüşdü".[2]

## ƏDƏBİYYAT

1. Həsənov H.Ə. Nəriman Nərimanovun tarixi missiyası. — Bakı: “Pedaqogika”, 2005. 88 səh.
2. C. P. Həsənli. Sovet Dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939). Bakı, “ADİLOĞLU” nəşriyyatı - 2012, - 656 səh.
3. Mir Yaqub Mehdiyev, Beynəlmiləl Siyasətdə Petrol., Azərbaycan Dövlət Nəşriyyatı, Bakı – 1994,60 səh.
4. Nərimanov N. Ucqarlarda inqlabımızın tarixinə dair (İ. V. Stalinə məktub). Bakı, Azərnəşr, 1992. 55 səh.
5. Rəna QƏHRƏMANOVA “NƏRİMAN NƏRİMANOV Dünən, bu gün, sabah”. Bakı, VEKTOR,тəşrlər evi. 2013. 116 səh.
6. Həsənli C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. AzərbaycanDiplomatik Akademiyası. Baku, 2013. 588 s.
7. İsrafil İsmayılov. Azərbaycan nefti XX əsrdə, Bakı 2007
8. Nəriman Nərimanov - N.Nərimanovun anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli yığıncağı. Azərbaycan Dövlət Nəşriyatı, Bakı -1974 - səh 30

# SAXURLARDA "XINAYAXDI" MƏRASİMİ

**Sahibə Musayeva**
*AMEA Arxeologiya, Etnoqrafiya və*
*Antropologiya İnstitutu*
*aliyarbeyova.s@mail.ru*

***Açar sözlər:****xınayaxdı, xına, qırmızı rəng, saxurlar, xonçalar, hədiyyələr*

Məqalədə Azərbaycanın bütün bölgələrində olduğu kimi, saxurlarda da toyöncəsi keçirilən xınayaxdı mərasimi, onun gəlinin evliliyinin başlanğıcını dərk etməsi üçün icra edildiyi, qədim zamanlarda xınanın sehrli xüsusiyyətlərə malik olduğu,xınayaxdı mərasimində qırmızı rəngdən istifadə edilmənin rəmzi məna daşıdığı tarixi-etnoqrafik aspektdən araşdırılmışdır.

Mərasimdə bəyin qohumlarının gəlinə müxtəlif cür hədiyyələr və xonçalar gətirməsi, müasirisrafçılığın saxur ailələrinə də təsir etməsi, xınayaxdı mərasiminin də geniş şəkildə keçirilməsi adəti tədqiqat obyektinə çevrilmişdir.

Keçmiş və müasir dövrdə saxurların xınayaxdı mərasiminin spesifik etnoqrafik xüsusiyyətləri öyrənilmiş və məqalədə müasir dövrlə müqayisəli şəkildə öz əksini tapmışdır.

## ЦЕРЕМОНИЯ "ХНАЯХТЫ" У ЦАХУРОВ

**Мусаева Сахиба**

***Ключевые слова:*** *хнаяхты, хна, красный цвет, цахуры, хончи, подарки*

В статье рассматриваются историко-этнографические аспекты предсвадебного обряда хнаяхты, распростненного во всех регионах Азербайджана, который совершался для понимания невесты начала ее замужества.

Объектом исследования стал обычай широкого проведения обряда хнаяхтыпо которому родственниками жениха приносят невесте различные подарки и хончи. Влияние такой расточительности наблюдается и в сахурских семьях.

В статье изучены и отражены специфические этнографические особенности обряда хнаяхты уцахуров в прошлом и современности.

# CEREMONY "KHNAYAKHTI"OF THE TSAKHURS

**Musayeva Sahiba**

***Keywords:*** *khnayakhti, henna, red color,tsakhurs, khonchas, gifts*

The article deals with the historical and ethnographic aspects of the pre-wedding rite of khnayakhtı, spread in all regions of Azerbaijan, which was performed to understand the bride of the beginning of her marriage.

The object of the study was the custom of widely conducting the rite of khnayakhtı according to which the relatives of the groom bring the bride various gifts and honchi. The influence of such extravagance is also observed in tsakhur families. The article studies and reflects the specific ethnographic features of the rite of khnayakhtı among the tsakhurs in the past and present.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, saxurlarda da toyöncəsi "hənaybı"-xınayaxdımərasimi keçirilərdi.Xınayaxdıgəlinin qızlıq həyatının sonunu və evliliyinin başlanğıcını dərk etməsi üçün icra edilən bir mərasim idi desək bəlkə də səhv olmaz. Bundan əlavə, qədim zamanlarda xınanın sehrli xüsusiyyətlərə malik olduğuna inanılardı. Ona görə də,pis göz və zərərli ruhlardan qorunmaq üçün xınadan istifadə olunardı. Elə gəlinin əllərinə, ayaqlarına və saçlarına xına yaxılması da bu inamın təzahürü idi.

Zaqatala rayonundan olan informatorumuzun dediyinə görə, nənəsi danışırmış ki, lap əvvəllər xınayaxdı mərasimi günorta saatlarında başlayar və gecə yarısı bitərdi[11]. Mərasimdə yalnız qadınlar- qızın rəfiqələri, bacıları, xalaları, nənələri, həmçinin onun və bəyin anası, bacısı, digər qadın qohumları və s. iştirak edərdi. Bəy tərəfin adamları mərasimə qızardılmış qoz-fındıq və buğda aparardılar.

Dağıstan saxurlarının toy adətləriniqələmə alan K.Qurbanov yazır ki, bu mərasimdə *"bütün qızlar və gənc qadınlar əllərinə xına yaxaraq şənlənərdilər. Keçmişdə bunlar subay qızların nişanlı olmamalarına işarə idi.Bu isə onlara elçi göndərilməyin mümkünlüyünə eyhamı ifadə edirdi"*[ 8, səh. 141].

Azərbaycan türklərinin, eləcə də Zaqatala bölgəsində məskunlaşan saxurların toy adətlərindən birini təşkil edən xınayaxdı mərasimində bütünlüklə qırmızı rəngdən istifadə edilməsinin rəmzi mənası vardır. Qırmızı rəng istilik, qaynarlıq, od-ocaq, ən nəhayət Günəşin simvolu mənasını özündə ehtiva edirdi. Yəni bu rəngin alt qatında təzə gəlinin ailəsinin həmişə od-ocaqlı, isti, işıqlı, nurlu, həyatının parlaq olması diləyi, arzusu yer alırdı. Bu xüsusda folklorşünas alim V.Vəliyev haqlı olaraq yazır ki, *"qırmızı geyinmək, ələ xına yaxmaq sevinc və xoşbəxtlik rəmzidir. Qədim zamanlardan dövrümüzə kimi gəlib çatan bu adət*

*qədim azərbaycanlıların günəşə, oda sitayişi ilə daha çox əlaqəlidir. Günəşin yerdə nişanəsi hesab edilən odun qırmızı rəngdə olması insanların bu rəngə müsbət münasibətini meydana çıxarmışdır"*[7, səh. 103].

Xınayaxma barədə etnoqraf Q.Rəcəbli qeyd edir ki: *"Toy şənliklərindən biri də qız evində icra olunan xınayaxdı idi. Gəlin köçməmişdən bir gün öncə oğlan evindən qız evinə boynuna qırmızı şərid bağlanmış bir qoç və toy tədarükü üçün ərzaq göndərilərdi.Qız evində xörək bişirib toy şənliyinə hazırlaşardılar. Axşam isə oğlanın anası, bacıları, ən yaxın qadın qohumları və qonşuları xonça düzəldib qız evinə xınayaxma mərasiminə gedərdilər. Xonçada gəlin üçün həna, iki bəzəkli şam, qənd, çay, noğul və xuşkəbər ilə birlikdə bir cüt ayaqqabı da olardı. Gələnləri qarşılayan qız anası və ya bacısı xonçanı onlardan alıb evə aparar, özlərini isə toy məclisinə dəvət edərdi. Gecə yarısına qədər çalıb oynayardılar. Sonra qadınlara yemək verilərdi. Qadınlar yemək yeyib dağlışardılar, qızlar isə oxuya-oxuya o biri otağa keçərdilər. Gəlin qızın yengəsi hənanı xonçadan götürüb bir qabda isladar, gəlin qızı yatağına uzuadıb əl-ayağına həna yaxar, yorğan-döşək bulanmasın deyə üstündən qırmızı şilə dolayıb bağlayardı. Qız evində olan sonuncu toy şənliyi Azərbaycanı əksər bölgələrində "xınayaxdı", bəzi bölgələrində "xına toy", Bakı, Lənkəran və Şəki bölgəsində həm də "qız toyu", Qazax bölgəsində "qız başı", Quba bölgəsində "xına gecəsi", Təbriz bölgəsində isə "yegəl" adlanırdı. "Xınayaxdı" gecəsində başlayaraq nişanlı qıza "gəlin qız", adaxlı oğlana "bəy oğlan" deyilirdi"*[6, səh. 325-326].

Yuxarıdakı məlumatdanaçıqlanır ki,əvvəllər qız toyu ilə xınayaxdı mərasimi elə eyni gündə icra olunurmuş.

Xınayaxdı barədə başqa bir etnoqrafik ədəbiyyatda da məlumat verilir və sözügedən mərasimin *"Şəkidə "qız qonaqlığı", Tovuzda "qızkəsdi", Masallı və Lənkəranda, həmçinin Ordubadın bəzi kəndlərində "qızbaşı", Abşeronda "xınananə"* adı ilə məlum olduğu bildirilir [5, səh. 186].

Onu da deyək ki, əsrlərin sərhəddini aşıb gələn xınayaxdı mərasiminin XX əsrdəki yerini və indiki məqamını izləmək etnoqraflar üçün maraq kəsb edir.Araşdırmaların da göstərdiyi kimi, sözügedən mərasim*"qız evinə məxsusdur və məhz orada, qız evi tərəfindən keçirilir. Əvvəllər bu mərasimlər sadə olardı. Toydan bir gün öncə ən yaxın qohumlar qızın evinə gedər, simvolik olaraq xına yaxaraq xeyir-dua verərdilər. Bunun üçün isə o qədər də böyük xərc tələb olunmurdu: bir kasa xına, bir xonça da konfet və gəlinin toy günü geyinəcəyi gəlinlik. Amma indi qədim adətlərimizdən olan xınayaxdını həyata keçirmək üçün əməlli-başlı xərc tələb olunur.Ümumilikdə, böyük toy biznesinin tərkib hissəsi olan dəbdəbəli xınayaxdı mərasimləri son zamanlar dəb halını almağa başlayıb. Onlar da günü-gündən öz bizneslərini genişləndirərək ofislər, mərkəzlər açmaqla məşğuldurlar"[3].*

Saxurlarda əvvəllər xınayaxdı mərasimini toydan bir gün öncə keçirərlərdi. Bununla bağlı belə bir deyim də var: Qiyna hənaybı, qiyka davatbı (yəni bugün xınayaxdı, sabah toy) [10].

Yaşlı saxur qadınlarının verdiyi məlumata əsasən, lap əvvəllər avarlar və saxurlar arasındaxınayaxdı mərasimi elə də geniş yayılmamışdır, lakin bəzi kəndlərdə icra edilərdi. Bu mərasim sovet dönəmində daha çox adət halını almağa başladı. Rus müəllif L.T.Solovyova yazır ki,*"Qum kəndində gəlinin rəfiqələri axşam saat 9-da bu mərasim üçün onun evinə toplaşırdılar. Onlardan biri xına hazırlayırdı. Sonra isə gəlinin və bütün qızların ovuclarına və barmaqlarına xına qoyulurdu. Muxax kəndinin saxurlarında xınayaxdı yalnız gəlinin evində deyil, eyni zamanda kürəkınin ailəsində də həyata keçirilirdi. Kürəkənin ərə getməyən qohumları da barmaqlarını xınalayırdılar. Muxax kəndində gəlinin ayaq və əl barmaqlarına, ovucuna, qalan qızların isə əl barmaqlarına xına qoyulurdu. Xınayaxdı qonaqlıq, mahnı və rəqslə sona çatırdı. Yeni Suvagil kəndində hazırda bu mərasim yerinə yetirilir. Qum kəndində toya bir gün qalmış gəlin və onun rəfiqələri hamama gedirlər"[9,107-18].*

Azərbaycanın hər yerində olduğu kimi, saxurlar arasında da gəlinin əl və ayaq barmaqlarına xına yaxan şəxsə hədiyyələr bəxş edilərdi. Azərbaycanlıların "xınayaxdı" mərasimindən bəhs edən Ş.Bünyadova yazır ki, ənənəyə görə *"xınanı isladan yaşlı qadına hədiyyə verilirdi. Qız anası bu qadına xonça tuturdu. Bu xonçaya əsasən konfet, parça və ya şal, yaxud da geyim əşyası hədiyyə edilirdi"*[2, səh.59].

"Lilay" folklor musiqisi qrupunun solisti Esmira Şabanovanın dediyinə əsasən, Zaqatala bölgəsində saxurlar "xınayaxdı" mərasimində "Ceyranım", "Ay lilay", "Salamaliklər", "Ala gözlüm", "Leyla", "Ay aman, aman" kimi xalq mahnıları oxuyardılar [4].

Güllük kənd sakininin dediyinə görə, əvvəllər mərasimdə bir adət də mövcud olmuşdur. Belə ki, gəlin barmağı üzüklü əlini subay qızların başları üzərində tuturdu. İnama əsasən bu, subay qıza tezliklə evlənmək üçün verilən xeyir-duanı özündə ehtiva edirdi [12]. Qızlar bu mərasimdə əylənir, zarafatlaşır və gəlinlə birlikdə rəqs edirdilər. Bütün bu deyilənlər toya 3 gün qalmış həyata keçirilirmiş.

Məlumatçılarımızın söyləməsinə görə, müasir saxurlarda oğlan evindən bir qrup qadın qız evinə gəlir. Qız tərəfdən olan bütün qohum qadınlar da qızgilə toplaşırlar. Xınayaxdıya gəlin, ya da icarəyə götürülmüş şənlik evlərində keçirilir. Gəlin ailəsinin ağbirçəklərindən biri saxsı qabda xına dəmləyir. Qızlar xınanı bir-birinin barmaqlarına, ovuclarına çəkirlər.Oğlanın ailəsi, adətən, dolma və plovdan ibarət yemək də gətirir. Yeməkdən sonra gəlin hamıya çay süzüb verir.

Xınayaxdı günündə gəlin qırmızı rəngli milli geyimdə olur. Eyni zamanda, otaq qırmızırəngli əşyalarla bəzədilir. Zalın mərkəzindəgəlinin oturması üçün "taxt" quraşdırılır və taxtın qarşısına qoyulmuş qırmızı örtüklü masanın üzərinə güzgü, şam, xına sinisi yerləşdirilir. Bəyin qohumları gəlinə müxtəlif cür hədiyyələr,şirniyyat, alt və üst geyimi, kosmetika, hamam aksessuarları, zinət əşyaları və s.ilə dolu xonçalar (səbətlər) gətirirlər. Bir sözlə, gəlin ailə həyatının başlanğıcında ayaqqabıdan başqa, ona lazım olan hər şeylə tam təmin edilir. Çünki, ayaqqabı vermək pis əlamət hesab olunurdu. Guya, ayaqqabı verilsə, gəlin ailə həyatında çətinliklərlə üzləşə bilər. Bir qayda olaraq, mərasimin sonunda iştirakçılara kiçik çantalarda xına qoyulur.

Ənənəyə görə, gəlinin ailəsi bəyin ən yaxın qohumlarına da (qardaşlar, bacılar, analar, atalar, nənələr, babalar) hədiyyələr verməlidir. Məsələn, bəyin atasına, qardaşına köynək, anasına, nənəsinə şal, bacısına ətir və s. bu qəbildəndir. Hətta,bir çox ailə kürəkənin toy üçün bütün geyim əşyalarını - kostyum, kəmər, köynək və s-ni də gətirirlər.

İrəlidə deyildiyi kimi, müasir dövrdəhəddən artıq israfçı toy ənənələri saxur ailələrinə də təsir edir. Məlum olduğu üzrə, indi nəinki toyların, hətta elçilik, həri,nişan, qızgördü, ayaqaçdı, xınayaxdı kimi mərasimlərin də geniş şəkildə keçirilməsi ənənəsiformalaşmışdır:*“Xınayaxdı mərasimlərinin getdikcə daha dəbdəbəli xarakter alması isə birayrı məsələdir. İndi bu mərasimlərin evlərdə deyil, restoranlarda, iri şadlıqsaraylarında təşkil edilməsi haqda xəbərləri tez-tez eşidirik. Mərasimin adıda müasirləşib “Hanna Party” olub. Hətta belə mərasimləri təşkil edib,bəzəyən xüsusi şirkətlər də meydana çıxıblar. Əvvəllər təkcə xına xonçası ilə yola verilən xınayaxdı mərasimi “Hanna Party”ə çevriləndən sonra onun təşkilinəən azı 2-3 min manat tələb olunur”[1].*

Beləliklə, bütün Azərbaycan bölgələrində olduğu kimi, Şəki-Zaqatala bölgəsində yaşayan saxurlarda da xınayaxdı mərasimi toyöncəsi adətlərdəndir, qadınlar barmaqlarına, ovuclarına xına yaxır, gəlin qırmızı paltar geyir, qız evinə xonçalar, hədiyyələr gətirilir.

Nəticədə onu qeyd edə bilərik ki, müasir dövrdə qədim kökləri olan xınayaxdı adəti bəzi ailə məişəti adətləri kimi dəyişikliyə uğramış, mərasimə yeni çalarlar əlavə olunmuşdur. Qloballaşma şəraitində qədim ənənələrə yeni baxış formalaşmışdır. Ümumən saxurlarda da bu adət ümum Azərbaycan səciyyəsi daşıyır. Belə ki, ailə məişətində bölgə xalqlarının mahiyyət etibarilə vahid ənənənin daşıyıcıları olduqları nəzərə çarpır.

# ƏDƏBİYYAT

1. Azərbaycanda xınanıyaxmaq problemi:dəbdəbə, rəqqasələr...// https:// virtualaz. /cemiy-yet/ 10398325.,09.2017
2. Bünyadova Ş. Orta əsrlərdə ailə./Ş.T.Bünyadova; Redaktorutarix elmləri doktoru, professor Nərgiz Quliyeva. -Bakı: "Elm" nəşriyyatı, 2012, -384 s.
3. Əli xınalı gəlin-Araşdırma.// https://kaspi.az/az/eli-xinali-gelin-aras-dirma/ pages/ pages/ /pdf/? action =disablemobile 16 avqust 2013.
4. Musayeva T.Saxur etnik qrupunun folklor nümunələri Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi kimi | Konservatoriya// http:// konser-vatoriya.az/?p=3442, 01.03.2022.
5. Quliyeva N.M.Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti.// N.M.Quliyeva; elmi redaktoru tarix elmləri doktoru, professor Musayeva T.H.;-Bakı: Eım, 2005,- 348 s.
6. Rəcəbli Q.Toy //Azərbaycan etnoqrafiyası.3 cilddə II cild.Baş redaktoru akademik T.Bünyadov.Bakı: Şərq-Qərb,2007,s.315-331
7. Vəliyev V. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: ADU-nun nəşriyyatı, 1970, 439 səh.
8. Курбанов К.Э. Брак и свадебные обряды цахуров в XIX – нач. XX в. ////Вопросы истории и этнографии Дагестана. (ВМЭД.) *Махачкала,1974. Вып*. V. С. 131-150;
9. Соловьова Л.Т.Современная свадба цахуров Азербайджана// .Полевые исследования Института Этногра-фии. Москва,1982,с. 107-108
Məlumatçılar:
10. Əhmədova Xanpəri Oruc qızı- Bakı şəhər, milliyətcə saxur, təvəllüdü – 1993-cü il
11. İradə Həmzəd qızı Rəfiyeva- Zaqatala rayonunun Gözbarax kənd sakini, təvəllüdü -1978-ci il
12. Yasəmən Ramiz qızı Babuşova- Qax rayonunun Güllük kənd sakini, təvəllüdü – 1975-ci il

# XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN İQTİSADİ VƏZİYYƏTİ (SOVET TARİXŞÜNASLIĞI ƏSASINDA)

**Səidə Həsənova**
**Bakı Dövlət Universiteti**
**saida.hasanova.n@bsu.edu.az**

***Açar sözlər:*** *Azərbaycan Səfəvi dövləti, iqtisadi tənəzzül, durğunluq, XVIII əsr*

Məqalədə XVIII əsrin ilk onilliklərində Azərbaycan Səfəvilər dövlətinin iqtisadi tənəzzülünün əsas səbəbləri ilkin mənbələrə və sovet tədqiqatçılarının əsərlərinə əsaslanaraq qısa şəkildə izah edilir. Siyasi və beynəlxalq vəziyyəti üzə çıxarmaq, Səfəvilər dövlətinin durğunluğunun səbəblərini aydınlaşdırmaq üçün iqtisadi məsələlərin qabardılması vacibdir. XVII əsrin sonlarından başlayan Azərbaycan Səfəvilər dövlətinin iqtisadi tənəzzülü XVIII əsrin əvvəllərində daha da güclənmiş və dövlətin siyasi vəziyyətinə mənfi təsir göstərmişdi. Bu dövrdə Rusiya, Osmanlı imperiyaları və Qızılbaş Səfəvilərin Azərbaycanla bağlı maraqlarının toqquşması Cənubi Qafqaz uğrunda mübarizəyə və onun işğalına səbəb oldu. Dövlətin siyasi və beynəlxalq aləmdəki vəziyyəti, nüfuzu, əlbəttə ki, iqtisadi amillərdən çox asılı idi. Belə ki, baş verən tənəzzül nəticəsində dövlət xəzinəsi boşalmış, bazarlarda qiymətlər bir neçə dəfə artmış, eyni zamanda quraqlıq nəticəsində aclıq yaranmışdı. Dövlət xəzinəsinin boşalması Qızılbaş Səfəvilər sülaləsinin idarəçiliyini iflic vəziyyətə salmışdı.

## ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА СЕФЕВИДОВ В НАЧАЛЕ XVIII В. (ПО МАТЕРИАЛАМ СОВЕТСКОЙ ИСТОРИОГРАФИИ)

**Саида Гасанова**

***Ключевые слова:*** *Азербайджанское государство Сефевидов, экономический упадок, спад, XVIII в*

В статье кратко объясняются основные причины экономического упадка государства Сефевидов в первые десятилетия XVIII века на основе первоисточников и работ ведущих советских исследователей. Важно осветить экономические вопросы, чтобы раскрыть политическую и международную ситуацию и прояснить стагнацию государства Сефевидов. Экономический упадок Сефевидского государства

Азербайджана с конца 17 века усилился в начале 18 века и оказал негативное влияние на политическую жизнь государства. В этот период, конфликт интересов России, Османской империи и Сефевидов по поводу Азербайджана привел к вторжению этих соседних стран на Южный Кавказ, и события нанесли тяжелый удар по экономике страны. Положение и престиж государства на политической и международной арене, безусловно, зависели от экономических факторов. В результате спада государственная казна опустела, цены на рынках выросли в несколько раз, и в то же время в результате засухи начался голод. Пустота государственной казны парализовала управление династии Гызылбашей Сефевидов.

## THE ECONOMİC SİTUATİON OF THE AZERBAİJAN SAFAVİD STATE AT THE BEGİNNİNG OF THE 18TH CENTURY (BASED ON MATERİALS FROM SOVİET HİSTORİOGRAPHY)

**Saida Hasanova**

***Keywords:*** *Azerbaijan Safavids state, economic decline, stagnation, XVIII century*

The report briefly explains the main reasons for the economic decline of the Safavid state in the first decades of the 18th century, based on primary sources and works of leading Soviet researchers. It is important to highlight economic issues in order to reveal the political and international situation and clarify the stagnation of the Safavid state. The economic decline of the Safavid state of Azerbaijan from the end of the 17th century intensified at the beginning of the 18th century and had a negative impact on the political life of the state. During this period, that is, at the beginning of the 18th century, the conflict of interests of Russia, the Ottoman Empire and the Safavids over Azerbaijan led to the invasion of these neighboring countries into the South Caucasus, and the events dealt a heavy blow to the country's economy.The state's position and prestige in the political and international arena depended on economic factors. As a result of the recession, the state treasury was emptied, prices in the markets increased several times, and at the same time there was a famine as a result of the drought. The emptiness of the state treasury paralyzed the administration of the Gizilbash Safavid dynasty.

XVII əsrin sonlarından etibarən Azərbaycan Səfəvi dövlətində baş verən iqtisadi tənəzzül XVIII əsrin əvvəllərində daha da kəskinləşərək dövlətin siyasi həyatına mənfi təsir etmişdi. XVIII əsrin əvvəllərində Rusiya, Osmanlı və Səfəvi dövlətinin mənafeələrinin Azərbaycan üzərində toqquşması qonşu

dövlətlərin Cənubi Qafqaz ərazisinə müdaxiləsi ilə nəticələnmiş, baş verən hadisələr ölkənin iqtisadiyyatına ağır zərbə endirmişdi. Qeyd etmək lazışdır ki, dövlətin siyasi və beynəlxalq aləmdəki vəziyyəti, nüfuzu, əlbəttə ki, iqtisadi amillərdən çox asılı idi. Belə ki, baş verən tənəzzül nəticəsində dövlət xəzinəsi boşalmış, bazarlarda qiymətlər bir neçə dəfə artmış, eyni zamanda quraqlıq nəticəsində aclıq yaranmışdı. Dövlət xəzinəsinin boşalması Qızılbaş Səfəvilər sülaləsinin idarəçiliyini iflic vəziyyətə salmışdı. Xüsusən Şah Sultan Hüseynin hakimiyyət illərində (1694 – 1722) böhran kəskin xarakter almış, Azərbaycan iqtisadiyyatı, kənd təsərrüfatı, daxili ticarət, sənətkarlıq tənəzzülə uğramış, ticarət mərkəzləri qarətlərə məruz qalmışdır. Bəhs edilən dövrdə vergilərin çoxluğu, rəiyyət və elatların öhdəliyinə düşən ağır mükəlləfiyyətlər, rüşvətxorluq və dərəbəylik xalqın vəziyyətini acınacaqlı hala salmışdı. Bu barədə tarixçi Fuad Əliyev A.P.Volınskinin “Səfarət” jurnalına əsasən qeyd edirdi: “Əvvəllər ölkənin 15 milyon və daha çox gəliri olduğu halda, hazırda cəmi 6 milyondur. Bütün bunların səbəb isə dövlətin xeyrindən çox öz mənafeəyini güdən və nalayiq hərəkətləri ilə xalqın qəzəbinə səbəb olan hakimlərin davranışları idi”[6, s.6].

Əvvəlki dövrlərdə olduğu kimi siyasi hegemonluq iddiasında olan şah və məmurlar yaranmış vəziyyətin qarşısını almağın və boşalmış dövlət xəzinəsini doldurmağın yeganə yolunu vergi və mükəlləfiyyətlərin artırılmasında görür, bunun üçün şahdan yeni siyahıyaalınmanın keçirilməsini və buna uyğun yeni qayda-qanunların tərtib edilərək tətbiq edilməsini tələb edirdilər. Dövlət işlərində elə də bacarıqlı olmayan Şah Sultan Hüseynin qərarına əsasən 1699-cu ildə 15 yaşına çatmış hər kəsin siyahıya alınması barədə qərar verilsə də, bu fərman əhalinin vəziyyətini nəinki yaxşılaşdırmadı, hətta üsyanların baş verməsinə səbəb oldu. Tarixçilərin bir çoxu Şah Sultan Hüseynin məhz1699-cu il qərarını əhalinin narazılığının pik nöqtəsi kimi dəyərləndirmişdi.

Azərbaycan tarixçisi T.Mustafazadə qeyd edirdi ki, “XVIII əsrin əvvəllərində daha dərin tənəzzül keçirən Səfəvi dövlətində gəlirlər azalmış, boşalmış xəzinənin doldurulması üçün yeni vergilər təyin edilmiş, həmçinin 1698-1701-ci illərdə 15 yaşından yuxarı bütün kişilərin siyahıya alınmasına başlanmışdı[9, 9]. Müəllif Səfəvilər imperiyası ərazisində baş verən üsyan və narazılıqların əsas səbəblərini iqtisadi böhranda görürdü.

1715-ci ildə I Pyotr tərəfindən Səfəvi dövlətinə göndərilən səfir A. P. Volınski yazırdı ki, “hazırki İran (Səfəvi – S. H) dövlətinin başçısı kimi axmağı heç harda tapmazsan, özü əlini ağdan-qaraya vurmur, bütün dövlət işlərini Etimad-üd-Dövlə kimi səfehə etibar etmişdir”[6, s.10].İlkin qaynaqlara əsasən bu doğrudur ki, iradəsi zəif olan Şah Sultan Hüseyn öz vaxtının çox hissəsini hərəmxanada eyş-işrətdə keçirir, dövlət işləri ilə maraqlanmırdı. Əlbəttə ki, dövlət başçısının laqeyd münasibəti mənfi təsirsiz ötüşməyə bilməzdi.

Azərbaycan tarixşünaslıq elminin əsasını qoyan A. A. Bakıxanov özünün "Gülüstani-İrəm" əsərində Şah Sultan Hüseyni dindar və insaflı bir şəxs kimi qələmə verərək qeyd edirdi ki, "tədbirsiz padişahın hökmranlıq dövrünün axırlarında, fəsad əhlinin dilədiyi kimi dövlət işləri nizamdan düşmüşdü. Şirvan və Dağıstan vilayətləri də iğtişaş və qarışıqlıq məhəlli olmuşdu"[4, s.93].

Sovet dövr tarixçisi F. M. Əliyev Səfəvi dövlətinin tənəzzülünü araşdırarkən bunu yalnız müxtəlif şəxslərin fəaliyyəti ilə əlaqələndirməyin düzgün olmadığını, ictimai-iqtisadi faktları nəzərə almağın lazım olduğunu bildirmişdi. F. M. Əliyev "XVIII əsrin I yarısında Azərbaycanda ticarət" adlı əsərində tənəzzülün səbəblərini araşdıraraq qeyd etmişdi: "Səfəvi dövlətinin tənəzzülünün əsl səbəbini ümumi təsərrüfat geriliyində, kəndlilərin və şəhərlilərin amansızcasına istismarında və onların var-yoxdan çıxmasında, hakim sinfin daxilində gedən çəkişmələrdə, iri feodalların öz müstəqillikləri uğrunda apardıqları mübarizədə, kənd və şəhərlərdən toplanılan vergilərin çox kiçik bir qisminin dövlətə verilməsində və ya saray əyanları tərəfindən mənimsənilməsində və bu kimi məsələlərin izahında axtarıb tapmaq lazımdır"[6, s.11].

Dövrün ilkin qaynaqlarında XVII əsrin sonu-XVIII əsrin ilk onilliklərində Azərbaycanda kənd təsərrüfatının mövcud durumu, perspektivli gəlir sahələri barədə geniş məlumat verilmiş olsa da, həmin dövr mənbələrində naməlum səbəblərdən vəba, taun kimi ölümcül xəstəliklər, dağıdıcı təbiət hadisələri barədə çox az məlumata rast gəlinir. Rus tarixçisi, etnoqraf L.İ.Lavrov kütləvi qırğınla və təbii dağıntılarla nəticələnən xəstəliklərin siyasi, iqtisadi və demoqrafik vəziyyətə əhəmiyyətli dərəcədə təsir göstərdiyini qeyd etmişdi [15,s.65]. Müəllif XVII əsrin sonu – XVIII əsrin ilk onilliklərində baş vermiş epidemiyalar barədə geniş məlumat verərək, 13 yanvar 1668-ci ildə Şimali Azərbaycan və Dağıstanda baş vermiş zəlzələnin marta ayına qədər davam etdiyini, nəticədə Saxur və Şamaxı kəndlərini yerlə yeksan etdiyini bildirmişdi[15,s. 67]. Tarixçi 1677 – 1678-ci illərdə Dağıstanda, 1687 – 1688 – ci illərdə Tabasaranda, 1716 – 1717 – ci illərdə Azərbaycanda tüğyan etmiş taun xəstəliyinin ağır nəticələri barədə məlumat vermiş, xəstəliyin şimalda da böyük ərazilərə yayıldığını bildirmişdi [15, s.67-70].

XVIII əsrin əvvəllərində Azərbaycanın məhsuldar qüvvələrinin vəziyyətini ağırlaşdıran daha bir səbəb 7 il ard-ardına ölkədə quraqlığın baş verməsi idi. Bu təbii fəlakət xüsusilə Şirvanda özünü mənfi yöndən büruzə vermiş, kənd təsərrüfatına ağır zərbə vurmuş, iqtisadiyyata mənfi təsir etmişdi. Təbii fəlakətlərin və quraqlığın baş verməsi bahalığa, bazarlarda qiymətlərin artmasına səbəb olmuşdu ki, çox vaxt bu qiymət artımı süni şəkildə vergi yığanlar və dəllallar tərəfindən yaradılırdı.

XVIII əsrin əvvəllərində müşahidə olunan qıtlıq və kasadlıqla əlaqədar A.P.Volınski öz "Səfarət" jurnalında qeyd edirdi: "Səfəvilər dövlətinin taxıl anbarı hesab edilən Azərbaycanda tarlalar yeddi il ərzində əkilməmiş, ölkədə

aclıq hökm sürürdü"[2,s.524]. Qeyd edilən dövrdə mərkəzi hakimiyyətin zəifləməsi Osmanlı və Rusiya dövlətlərinin Qafqaza, xüsusən Azərbaycana olan qəsbkarlıq fəaliyyətinin artmasına səbəb olmuşdur.

XVII əsrin sonu – XVIII əsin ilk onilliklərində baş vermiş ərzaq qıtlığı ilə bağlı qiymətlərin bahalaşması, feodal istismarının güclənməsi iqtisadiyyatın tənəzzülünə gətirib çıxarırdı. Sosial-iqtisadi münasibətləri, şəhərlərin ticarət əlaqələrini müxtəlif mənbələr əsasında tədqiq etmiş tarixçi M.Heydərov sosial səbəblərə görə baş vermiş ərzaq qıtlığının ciddi əhəmiyyət daşıdığını və uzun müddət davam etdiyini bildirmişdi [13, 37]. Müəllif Zəkəriyyə Əylislinin fikrinə istinad edərək 1673-cü ilin əvvəlində unun 250 dian, düyünün 250 dian, ətin 200 dian, çovdarın 200 diana satılmağa başlaması barədə, habelə 1691-ci il aclığı zamanı çovdarın taxıldan da baha satıldığı, düyünün 2000 diana satıldığı haqqında məlumat verir.[13, s.36-37]

Əmtəə-pul münasibətlərinin pozulması, dövlət xəzinəsinin boşalması, ticarətin xarici kapitaldan asılı vəziyyətə düşməsi dövlətin böhranına səbəb olan əsas amillərdəndir. İqtisadi cəhətdən çökmüş Səfəvi dövlətinin ərazisinə gələn səyyah, tacir, səfir və diplomatlar bu məsələni ön planda tutaraq təsdiqləyirlər.

Qeyd edilməlidir ki, yerli hakim və məmurların əhaliyə amansızcasına davranaraq vergi toplaması, vergilərin sayının və miqdarının artırılması dövlətin iqtisadi vəziyyətini dirçəltmədi, xəzinəni doldurmadı. Həmin dövrün şahidi olan İ.G.Gerber bu barədə yazır: "Şirvan hakimləri şahın xəzinəsinə istədikləri qədər (topladıqları vergilərdən-S.H.) göndərirdilər" [3, s.381].

Səfəvilərin tənəzzülü məsələsinə xristian səyyahı T.Kruşinski də qiymət verərək qeyd edirdi ki, "dövlətin zavala uğramasının ən böyük səbəbi bu idi ki, hökumət işlərini idarə edən məmurlar, dövlətin keşiyində duranlar və şahın vəzirləri iki dəstəyə bölünərək bir-biri ilə tam ziddiyyətə girmişdilər" [7,s.21].

İlkin mənbələrdən olan A.Volınskinin gündəliyinə əsaslanan F.Əliyev qeyd edir ki, "Vəzir 4 vilayətdən – Təbriz, Şirvan, Gəncə və İrəvandan vergiləri yığmağa gəlmişdi" [11, 44]. Dövlətin açar vəzifələrindən birini tutan vəzirin vergi toplaması üçün şəxsən özünün gəlməsi mərkəzi hakimiyyətdəki vəziyyətin nə dərəcədə ağır olduğunu bir daha göstərir.

XVIII əsrin ikinci onilliyində (1717) vergi və qiymət artımı, əhalinin buna qarşı etiraz aksiyaları iqtisadi böhranın əsas göstəricilərindən idi. P.P.Buşev qeyd edirdi ki, 1717-ci il 21 aprel-4 may tarixləri arasında baş verən hadisələr mərkəzi hakimiyyətin laxlamasını, sosial-siyasi ziddiyyətləri, əhalinin narazılığını nümayiş etdirir"[12,s.106].

Qeyd edilən fikirlərə əsasən demək olar ki, hökumət vergiləri artırmağı "çıxış yolu" kimi görsə də, əslində xalqın dövlət tərəfindən daha çox istismar olmasına şərait yaratmışdı. Sovet dövr tarixçiləri sosial-iqtisadi məsələləri siyasi məsələlərin alt bazası hesab edirdi. Müasir dövrümüzdə də iqtisadi məsələlərin siyasi məsələlərə əhəmiyyətli dərəcədə təsir etdiyini görə bilərik.

XVII əsrin sonu-XVIII əsrin ilk onilliklərində baş verən siyasi hadisələr Azərbaycanın iqtisadi həyatında mühüm rol oynayan sənətkarlığın inkişafına mənfi təsir göstərmişdi. Bəhs edilən dövrdə Azərbaycanın rəqabət meydanına çevrilməsi, qonşu dövlətlərin davamlı surətdə hücumları, digər siyasi hadisələr sənətkarlığın inkişafını zəiflədirdi. Xarici ölkələr Asiyadan Avropaya uzanan ticarət yolunun üzərində yerləşən Azərbaycan şəhərlərinə xüsusi maraq göstərmiş, onların hücumları zamanı kəndlərə nisbətən iqtisadi cəhətdən zəngin olan şəhərlər, ticarət və sənətkarlıq mərkəzləri dağıdılmışdı.

Mərkəzi hakimiyyət və məmur özbaşınalığından əziyyət çəkən daha bir sosial zümrə tacir və sənərkarlar idi. Təzyiqlərə məruz qalan tacirlər günü-gündən artan gömrük haqqları qarşısında heç bir gəlir əldə edə bilmirdilər. Tacirlər arasında dini əsaslarla ayrıseçkiliyin mövcud olması bu sosial qrupun – tacirlərin vəziyyətini günü-gündən ağırlaşdırırdı. Elə bu səbəbdən Azərbaycanda qiyamlar zamanı tacir və sənətkarların daha fəal iştirak etdiyini görürük.XVIII əsrin birinci yarısında ölkənin ümumi iqtisadi tənəzzülü sənətkarlar tərəfindən hazırlanan məhsulların keyfiyyətcə aşağı olmasına səbəb olmuşdu. [3,s. 436]

Bu dövrdə dövlətin dini vəziyyətinə diqqət etsək, görərik ki, ruhanilərin şah sarayında hüquq və səlahiyyətləri artmış və onlar sui-istifadə hallarına yol verərək, hətta dövlətin idarəçiliyinə qarışırdılar. Dinin real qaydalarından uzaqlaşaraq, fanatizmin, tərki-dünyalığın təbliği ilə əhalini təzyiq altında saxlamağa, onların fəaliyyətsizliyinə çalışırdılar. Bu isə əks-təsir göstərmiş və narazılıqlar həm də şiə ruhanilərinə qarşı yönəlmişdi. XVIII əsrin ilk onilliklərində xarici amilləri də unutmayaraq qeyd etmək lazımdır ki, Qızılbaş Səfəvi sülaləsinin zəifliyini, dövlətin böhranını, daxildən tənəzzülünü görən qonşu imperialist dövlətlər Azərbaycan uğrunda gərgin mübarizəyə başlamışdılar.

Beləliklə, Azərbaycan Səfəvi dövlətinin daxili siyasi böhran vəziyyətindən istifadə edən xarici qüvvələr, o cümlədən Rusiya və Osmanlı dövlətləri arasında Cənubi Qafqaz rəqabət meydanına çevrilir. Bu qonşu dövlətlərin, eləcə Avropa imperialistlərinin Azərbaycanı ələ keçirmək planlarının qarşısına çıxa biləcək nə Səfəvi sülaləsi nümayəndələri, nə də digər qüvvələr vardı. Bu tənəzzülün daxili və xarici amillərlə bağlılığı tədqiqatçılar tərəfindən müəyyən səviyyədə araşdırılmışdır. Tədqiqatçıların bir qismi Səfəvi imperiyasında başlanan sosial-iqtisadi və siyasi böhranın sonuncu Səfəvi şahlarının şəxsi keyfiyyətləri, digərləri isə beynəlxalq ticarət yollarının dəyişməsi və ya imperiyaların inkişaf qanunauyğunluğuna əsasən baş verdiyini qeyd etmişdi. Aydın olur ki, hökumət dairələri arasında ikitirəliyin olması, şaha etimad etməmələri dövlətin daxildən süqutunu təmin edir.

Beləliklə, məqalədə ilkin qaynaqlar və sovet dövrünün əsas tədqiqatçılarının əsərləri əsasında XVIII əsrin ilk onilliklərində Azərbaycan Səfəvi dövlətinin iqtisadi cəhətdən tənəzzülünün əsas səbəbləri qısa şəkildə şərh

edilmişdi. Məhz siyasi və beynəlxalq durumun açılmasında və Səfəvi dövlətinin düşdüyü durğun vəziyyətin aydınlaşdırılmasında iqtisadi məsələlərin göstərilməsi mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


**1.** Abdullayev M. Q. Azərbaycan tarixi. Bakı:Bakı Universiteti,2014,380 s.

**2.** Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) I cild, Z. M. Bünyadovun və Y. B. Yusifovun redaktəsilə. Bakı: “Çiraq” nəşriyyatı, 2007, 720 s.

**3.** Azərbaycan tarixi: 7 cilddə, III c., Bakı: Elm, 2007, 592 s.,

**4.** Bakıxanov A. A. Gülüstan-i İrəm. Bakı: Möminin, 2001, 225 s

**5.** Bayramlı Z. H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı: “Avropa”, 2015, 348 s.

**6.** Əliyev F. M. XVIII əsrin I yarısında Azərbaycanda ticarət. Bakı: Elm, 1964, 111 s.

**7.** Kruşinski Y.T. Xristian səyyahın tarixi. Farscadan tərcümə edəni Ş.Fərzəliyev, Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1993,105 s

**8.** Lokhart.L. Nadir shah. A critical study based Mainly Upon Contenproary Sources. London: LUZAC co, 1938, 393p.

**9.** Mustafazadə T. T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı – Azərbaycan münasibətləri. Bakı: “Elm”, 2002, 372 s.

**10.** The Cambridge History of Iran. Volume 6. The Timurid and Safavid periods, Edited P.Jackson and L.Lokhart. Cambridge: Cambridge University Press, 1986, 1065 p.; Lokhart.L. Nadir shah. A critical study based Mainly Upon Contenproary Sources. London: LUZAC co, 1938, 393p.

**11.** Алиев Ф.М. Миссия посланника Русского государства А.П. Волынского в Азербайджане (1716-1718 гг.). Баку: «Элм», 1979, 120 с.,

**12.** Бушев Т.П. Посольства Артемия Волынского в Иран в 1715– 1718 гг. Москва, Наука, 1978, 288 с.

**13.** Гейдаров М. Х. «Торговля и торговые связи Азербайджана в позднем средневековье» Баку: 1999, 280 с

**14.** Иванов М.С. История Ирана. Москва: Издательство МГУ, 1977.488 с. ; Гейдаров М.Х. Гейдаров М.Х. Торговля и торговые связи Азербайджана в в позднем средневековье. Баку: «Элм», 1999, 280 с

**15.** Лавров Л.И. «Стихийные бедствия на Кавказе до XIX в.» - Кавказский етнографический сборник», том VIII. Москва – 1984

# ERMƏNİ MİLLƏTÇİLƏRİNİN QARABAĞI İŞĞAL ETMƏ CƏHDLƏRİ (1917- Cİ İLİN FEVRALI – 1918 – Cİ İLİN MAYI)

**Rəşad Rüstəmov**
*AMEA- nın A.Bakıxanov adına Tarix İnstitutu*
skazka-alin@mail.ru

***Açar sözlər:*** *Qarabağ, Şuşa, erməni, Xoyski, daşnak*

Məqalədə daşnakların Qarabağı Cənubi Qafqazda yaradılacaq gələcək erməni dövlətinin tərkibinə qatmaq cəhdlərindən bəhs olunur.

Həmçinin 1917-ci il Fevral inqilabından sonra Cənubi Qafqazda baş verən proseslər təhlil edilərək siyasi böhranın səbəblərinə aydınlıq gətirilmişdir. Məqalədə erməni millətçilərinin yaranmış şəraitdən Cənubi Qafqazda erməni dövlətini yaratmaq üçün istifadə etdikləri göstərilmişdir.

Qafqaz ordusu tərkibində erməni hərbi dəstələrinin köməyindən istifadə edən daşnaklar yaranmış şəraitdən istifadə edərək Şuşanı ələ keçirtdilər.

## ПОПЫТКИ АРМЯНСКИХ НАЦИОНАИСТОВ ЗАХВАТИТЬ КАРАБАХ (ФЕВРАЛЬ 1917 ГОДА – МАЙ 1918 ГОДА)

**Рашад Рустамов**

***Ключевые слова:*** *Карабах, Шуша, армяне, Хойский, дашнак*

В статье говориться о стремлении дашнаков присоединить Карабах к будущему армянскому государству.

В своей статье автор проанализировал процессы, происходящие на Южном Кавказе после Февральской революции.

В статье говориться об использовании армянскими националистами возникшей ситуации для создания армянского государства на Южном Кавказе.

Неспособность сформированного после Февральской революции Временного правительства решить экономические проблемы России привели к политическому кризису.

Используя армянские воинские части в составе Кавказской армии, дашнаки временно захватили Шушу.

# ATTEMPTS OF ARMENIAN NATIONALISTS TO SEIZE KARABAKH (FEBRUARY 1917 - MAY 1918)

**Rashad Rustamov**

***Keywords:*** *Karabakh, Shusha, Armenians, Khoy, Dashnakv*

In this article speaks of the desire of the Dashnaks to annex Karabakh to the future Armenian state and analyzed the processes taking place in the South Caucasus after the February revolution.

The elimination of tsarism and the creation of the republic provided small peoples with the opportunity of self-determination within Russia.v

The article talks about the use by Armenian nationalists of the situation that has arisen to create an Armenian state in the South Caucasus.

The inability of the Provisional Government formed after the February Revolution to solve the economic problems of Russia led to a political crisis.

In his article, using the Armenian military units as part of the Caucasian army, the Dashnaks temporarily captured Shusha.

1917 – ci ilin Fevral inqilabı mütləqiyyətin varlığına son qoyaraq Rusiyada respublika quruluşunun bərqərar olmasına səbəb oldu.

Fevral inqilabından sonra Rusiyanın mərkəzində hakimiyyət uğrunda mübarizə fəhlə, əsgər və kəndli sovetləri və Müvəqqti hökumətin orqanları arasında gedirdisə Cənubi Qafqazda bu mübarizədə həmçinin milli şuralar da də iştirak edirdilər.

1917-ci il martın 16-da Yelizavetpol şəhərində keçirilən Cənubi Qafqaz müsəlmanlarının iclası yerlərdə müsəlman komitələrinin yaradılmasını, Tiflisdə Cənubi Qafqaz müsəlmanlarının milli bürosunun təşkilini və diyar müsəlmanlarının qurultayının çağırılmasını vacib saydı. Tezliklə Azərbaycan milli hərəkatının mərkəzi Yelizavetpoldan Bakıya keçdi. 1917-ci il martın 27-də Bakı Müsəlman İctimai və Siyasi Təşkilatları Milli Şurası və onun Müvəqqəti Komitəsi təşkil edildi.

Azərbaycan əraziində Müsəlman milli şuraları ilə eyni vaxtda Ermənu milli şuraları da yaradılırdı. Cənubi Qafqazda erməni milli şuralarının təşkilinə sosialist inqilabçı "Daşnaksütyun" partiyası rəhbərlik edirdi. Bu partiya qısa müddət ərzində Cənubi Qafqaz ermənilərinin bütün təbəqələrinin təmsil edildiyi siyasi partiyaya çevrildi.

Türkiyə və Cənubi Qafqaz ərazisində erməni muxtar qurumlarının yaradılması partiyanın əsas vəzifəsi kimi irəli sürülürdü [3. səh.42].

Erməni milli şuraları qısa müddət ərzində Bakı, Gəncə və Naxçıvan şəhərlərində təşəkkül tapdılar. Şuşada təşkkül tapan erməni milli şurası müxtəlif millətçi siyasi partiyaların nümayəndələrindən ibarət idi.

Fevral inqilabı qarşısında duran məsələlərdən biri də özünüidarə

orqanlarının bütün Rusiya ərazisinə tətbiq edilməsi idii.

1917-ci il iyunun 21-də Petroqradda Müvəqqəti hökümətin nümayəndələri və Qafqazda yaşayan millətlərin nümayəndələrinin yerli özünüidarə orqanlarının islahatına həsr edilmiş birgə iclası keçirildi. İclasda Cənubi Qafqazın azərbaycanlı əhalisini kadet partiyasının üzvü F.Xoyski təmsil edirdi [6.]

Bu iclas haqqında Bakı Müsəlman Milli Şurasına məlumat verən F.Xoyski qeyd edirdi ki, inzibati sərhədlərin dəyişdirilməsinin müzakirəsi vaxtı "Daşnaksütyun" partiyasının nümayəndələri tərəfindən Yelizavetpol quberniyasının altı qəzasının dağlıq hissəsinin ermənilər tərəfindən məskunlaşmış hissəsindən ayrılmasını və Yelizavetpol quberniyasının iki müstəqil erməni və azərbaycanlı quberniyalarına bölünməsini təklif edən layihə irəli sürüldü.

Ermənilər özlərinin bu tələblərini mövcud inzibati bölgü sistemi şəraitində zemstvo idarəçiliyinin tətbiq ediləcəyi təqdirdə azərbaycanlıların bu orqanlarda üstünlük təşkil edəcəyi ilə izah edirdilər.

"Daşnaksütyun" partiyasının bu təklifi Azərbaycan və Qafqazın digər müsəlman xalqlarının nümayəndələri tərəfindən etirazla qarşılandı.

Azərbaycan siyasi xadimlərinin fikrincə, Bakı və Yelizavetpol quberniyaları, Zaqatala dairəsi və Cənubi Qafqazda azərbaycanlıların yaşadıqları bütün ərazilər Azərbaycan muxtariyyətinə daxil edilməli idi.

"Daşnaksütyun" partiyasının VI qurultayında qəbul edilmiş proqramda gələcək erməni muxtariyyətinin tərkibinə aşağıdakı əraziləri daxil etmək nəzərdə tutulurdu: a) İrəvan quberniyası b) Yelizavetpol quberniyasının ermənilər yaşayan dağlıq hissəsi )Tiflis quberniyasının ermənilər yaşayan cənub hissəsi q) Qars vilayətinin Qars və Kağızman dairələri. Gürcü Milli Şurasının rəhbərliyi isə Gürcüstan muxtariyyətinin tərkibinə Tiflis və Kutaisi quberniyalarını, Batum vilayətini, Zaqatala dairəsini və Qars vilayətinin Ərdahan dairəsini daxil etməyi nəzərdə tuturdu.

Artıq 1917-ci ilin yayında Müvəqqəti hökumətin ölkəni davam etməkdə olan iqtisadi böhrandan çıxarmaq sahəsində bacarıqsızlığı aşkar oldu. Sənaye istehsalının həcmi 1916-ci ildən fərqli olaraq 36,5% aşağı düşdü.

Aqrar problem həll edilməmiş qalırdı. Müvəqqəti hökumətin bu sahədə fəaliyyəti əsas vəzifələri torpaq islahatı layihəsinin hazırlanmasından ibarət olan diyar və quberniya torpaq komitələrinin yaradılması ilə məhdudlaşırdı. Torpaq məsələsinin son həlli Müəssislər Məclisinin çağırılmasına qədər təxirə salındı. Müvəqqəti hökumətin bu siyasəti yeni kəndli çıxışlarına səbəb olurdu.

İqtisadi böhran siyasi böhrana gətirib çıxartdı. Yerlərdə əhali Müvəqqəti hökumətin nümayəndələrinə tabe olmaqdan imtina edirdi.

Bu həmçinin Azərbaycana aid idi. Siyasi böhran həmçinin quldurluğun geniş yayılmasına səbəb oldu. Müvəqqəti hökumətin hakimiyyət orqanları quldurluğa qarşı mübarizə aparmağda aciz idilər.

Azərbaycanda 1917-ci ilin sentyabr ayında baş verən quraqlıq vəziyyəti daha da ağırlaşdırırdı.

1917 – ci ilib sentyabr ayında Yelisavetpol quberniyası erməni Milli şurasının icraiyyə komitəsinin iclasında çıxış edən Malxazov Cavanşir qəzalarda çörəyin çatışmaması, artıq oktyabr ayında aclıq təhlükəsinin real olduğunu elan etdi.

Qarabağda fəaliyyət göstərən erməni millətçiləri yaranmış vəiyyətdən hakimiyyətin qəsb edilməsi üçün istifadə etdilər.

Rusiya müsəlmanlar Volqaboyu tatarlarını çıxımaq şərti ilə hərbi mükəlləfiyyətdən azad idilər. Bu azərbaycanlılar arasında hərbi kadrların azlığına səbəb oldu.

Qarabağın ermənilərinin kişi əhalisiniin böyük bir hissəsi I dünya müharibəsi döründə ordu sıralarına çağırılmışdı. Onların əksəriyyəti Qafqaz ordusu sıralarında qulluq edirdilər. Rusiyda baş verən siyasi böhran ordunun dağılması ilə müşahidə olunurdu. Ordudan qayıdan ermənilər evlərinə silahla qayıdırdılar [4].

1917 – ci ilin sentyabr ayında Şuşanın erməni milli şurası kəndli və hərbi deputatlar sovetinin təşkil edilməsi haqqında qərar verdi [5].

Oktyabr çevrilişi ərəfəsində baş verən siyasi böhran Qafqaz ordusunun ərzaq təminatının zəifləməsinə səbəb oldu. Ərzaqla təmin edilməyən hərbçilər yerli əhalini hesabına ölərinin təmin etməyə çalışırdılar.

Buna misal olaraq Tərtərdə yerləşən Penza diviziyasının rotasının əsgərlərinin törətdikləri özbaşınalıqlarını göstərmək olar. “Onlar evlərə soxulur, dinc sakinləri təhqir edir və talayırdılar”. Yerli hakimiyyət orqanları əsgərlərin özbaşınalığının qarçısını almağa aciz didlər [7].

Hələ 1917-ci ilin sebtyabrın ayının 18 – də müxtəlif ermənu syasi partiyaların iştirakı ilə keçirilən iclasda Dağlıq Qarabağın yeni hökumət orqanı siyasi partiyaların Müvəqqəti Soveti təşkil edildi. Şura 14 nəfərdən ibarət idi. Şuranın sədri Ayrapet Musaelan seçildi. Müvəqqəti Sovetinin yanında Tumyanın rəhbərlik etdiyi Hərbi şura yaradıldı.Şura tezliklə Şuşa əraisində hakiiyyəti öz əlinə aldı [8].

1917-ci il oktyabrın 31-də Bakı Soveti özünü Bakı quberniyası və Dağıstan ərazisində qanunverici və inqilabi hakimiyyət elan etdi [1. səh.51]. Bolşeviklər Bakını Qafqazda Sovet hakimiyyəti uğrunda mübarizə mərkəzinə çevirməyə çalışırdılar [8].

1917-ci ilin oktyabr ayında Rusiyada baş verən hakimiyyət böhranı dövlət çevrilişi ilə nəticələndi. Rusiyada Leninin rəhbərlik etdiyi yeni hokumət bərqərar oldu.

Oktyabr çevrilişi bolşeviklər və sol eserləri çıxmaq şərti ilə Cənubi Qafqazda fəaliyyət göstərən bütün siyasi partiyalar tərəfindən hakimiyyətin qeyri-qanuni mənimsənilməsi kimi qəbul edildi.

1917-ci il oktyabrın 31-də Bakı Soveti özünü Bakı quberniyası və Dağıstan ərazisində qanunverici və inqilabi hakimiyyət elan etdi [1. səh.51].

Bolşeviklər Bakını Qafqazda Sovet hakimiyyəti uğrunda mübarizə mərkəzinə çevirməyə çalışırdılar. Bakının rus və erməni əhalisi Bakı Sovetini azərbaycanlıların milli hərəkatının qarşısını almağa qadir olan yeganə qüvvə hesab edirdilər.

1917-ci il noyabrın 22-də İctimai Təşkilatları Komitəsinin buraxılması ilə Bakı Soveti yeganə siyasi hakimiyyət orqanına çevrildi. Bolşeviklər Bakını Qafqazda Sovet hakimiyyəti uğrunda mübarizə mərkəzinə çevirməyə çalışırdılar.

Daşnakların Şuşanın ələ keçirməsi Qafqazda sovet hakimiyyətinin yayılmasına məasədlərinə ziddiyyət təşkil edirdi. Lakin buna baxmayaraq Bakı fəhlə və hərbi deputatları sovetinin rəhbəri olan Şaumyan Şuşa ermənilərinin fəaliiyyətini yalnız özünəmüdafiə addımları kimi izah edirdi.

"Hamı silahlanmışdı. Kəndlilərin ətrafında səngər qazılmışdı. Bütün həyat dayanmışdı və əməkli əhali hər dəqiqə gözləyirdi ki erməni-tatar qırğının ustaları yenə də müsəlman kəndlilərini aldadıb erməni kəndliləri ilə qardaş qırğını müharibəsini aparırdlar" [2. s,213-215].

Zaqafqaziya Komissarlığının Cənubi Qafqaz əhalisinə müraciətində özünün müvəqqəti xarakterini bəyan edərək diyarın gələcək taleyini Ümumrusiya Müəssislər Məclisinin müəyyən edəcəyini qeyd edirdi.

Rusiyada fəaliyyət göstərən siyasi partiyaların əksəriyyəti dövlət quruculuğunu müəyyən etmək hüququnun yalnız bərabər və ümumi seçkilər yolu ilə seçilən Müəssislər Məclisinə mənsub olduğunu qəbul edirdilər. Oktyabr çevrilişi onlar tərəfindən hakimiyyətin bolşeviklər tərəfindən mənimsənilməsi kimi qiymətləndirilirdi.

Müəssislər Məclisinin çağırılması ideyası ilə öz hakimiyyətinə qanuni xarakter vermək istəyən Xalq Komissarları Soveti 1917-ci ilin noyabrında Ümumrusiya Müəssislər Məclisinə seçkilərin keçirilməsi haqqında qərar qəbul etdi.

Müəssislər Məclisinə seçkilərdə (Azərbaycan) Müsəlman milli şuraları və Türk – Ədəmi- Mərkəziyyət Müsavat partiyası vahid siyahı ilə çıxış edirdilər. Qarabağdan Müəssislər Məclisinə seçkilərdə Xosrof Paşa bəy Sultanov qalib gəldi

Ümumrusiya Müəssislər Məclisi 1918-ci il yanvarın 5-də öz işinə başladı. Eser və menşeviklərin əksəriyyət təşkil etdiyi (62%-dən çox) Məclis Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin hakimiyyətin sovetlərə keçməsi haqqında deklarasiyasını təsdiq etməkdən imtina etdi. Yanvarın 7-də

Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Müəssislər Məclisi buraxıldı. Fəaliyyətinin qısa müddət davam etməsinə baxmayaraq, Müəssislər Məclisi torpaq haqqında, torpağın ümumxalq mülkiyyətinə keçməsi - sosiallaşması və torpağın istifadəsinin mərkəzi və yerli hakimiyyət orqanlarının ixtiyarına verilməsini göstərən qanun qəbul etdi.

Müəssislər Məclisinin buraxılması Rusyiada hakimiyyət böhranının sülh yolu ilə həllini qeyri-mümkün etdi.

1918-ci il yanvarın 12-də Zaqafqaziya Komissarlığının Müəssislər Məclisinin dağılmasından sonra diyarda yaranmış yeni siyasi şəraiti qiymətləndirən qanunvericilik səlahiyyətlərinə malik olan yerli idarəetmə orqanının - parlamentin çağırılması haqda qərar qəbul etdi. 23 yanvar 1918-ci ildə Cənubi Qafqazdan Müəssislər Məclisinə seçilmiş deputatların müşavirəsində bu məsələ müzakirə edildi və Seymin formalaşması haqqında vahid mövqeyə gəlindi.

1918-ci il aprelin 22-də Zaqafqaziya Seyminin geniş iclası çağırıldı və Azərbaycan fraksiyasının təsiri altında Seymdə Müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının elan edilməsi haqqında qətnamə qəbul edildi. Cənubi Qafqazın dövlət quruluşu milli partiyaların proqramına cavab verirdi. Bu respublika üç muxtar qurumdan - Azərbaycan, Ermənistan və Gürcüstan Muxtar Respublikalarından ibarət olmalı idi.

Zaqafqaziya Federasiyası diyar qarşısında duran problemləri həll edə bilmədi. 1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin son iclası keçirildi. İclasda Zaqafqaziya Federativ Demokratik Respublikasının mövcudluğuna son qoyuldu.

Azərbaycan fraksiyası 1918-ci il mayın 27-də özünün fövqəladə iclasını keçirdi. İclas Azərbaycanı idarə etməyi öz üzərinə götürməyi və özünü Azərbaycanın Milli Şurası elan etməyi qərara aldı.

Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən iclasında Azərbaycanın müstəqilliyi elan edildi. Şuşanın azad edilməsi müstəqil Azərbaycan Respublikasının əsas vəzifələrindən birinə çevrildi.

## Ədəbiyyat

1. Azərbaycan Cümhuriyyəti. 1918-1920. Bakı. Elm. 1998. 335 səh.
2. Şaumyan S.G., Seçilmiş əsərləri. II cild, Bakı: 1978. 488 səh.
3. Аскеров – Кенгерлинский А. Трагедия Азербайджана. Хазар журн, 1990.№ 3, 140 səh.
4. «Баку» qəzeti, 25 mart 1917 – ci il №68.
5. «Баку» qəzeti, 7 sentyabr 1917 – ci il №200.

6. «Борьба» qəzeti, 1917, 31 iyun.
7. « Каспий» qəzeti, 30 sentyabr 1917. №218.
.8.sumgait.info/caucasus-conflicts/karabakh-soldier-notes/karabakh-soldier-notes-1.htm).

# MÜRİDİZM HƏRƏKATININ BİRİNCİ MƏRHƏLƏSİNDƏ AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ RUSİYA İŞĞALLARINA QARŞI MÜBARİZƏ (1829-1834-CÜ İLLƏR)

**Vüsal İsgəndərov**
**Gəncə Dövlət Universiteti**
**isgandarovusal@gmail.com**

***Açar sözlər:*** *müridizm, Azərbaycan, şimal-qərb bölgəsi, Rusiya işğalları, azadlıq mübarizəsi, müstəmləkə*

Məqalədə Azərbaycanın şimal qəzalarında yayılmış müridizmin ilkin mərhələsi, Azərbaycanın şimal-qərb bölgəsində baş vermiş üsyanlar zamanı yerli üsyançıların Dağıstan üsyançılarına müraciəti, Şeyx Şabanın rus ordusuna qarşı mübarizəsi, Zaqatala qalasına olan hücum, Car-Balakən üsyanın yatırılması və üsyan rəhbərlərinin həbs edilməsi, iştirakçılarının evlərinin yerlə-yeksan edilməsi, mal-qarasının və əmlakının talan edilməsi, zorla düzən ərazilərə köçürülməsi və onların məskənlərində gürcülərin yerləşdirilməsi ilə bağlı layihənin hazırlanması, Şeyxəli xanın mövqeyi, müridlərin Dərbənd qalasına hücumu, Qazı Məhəmməd və Həmzət bəyin Azərbaycanın şimal-qərb bölgəsində baş vermiş üsyanlarda iştirakı araşdırılmışdır.

## THE STRUGGLE AGAINST THE RUSSIAN OCCUPATION IN THE NORTH-WESTERN REGION OF AZERBAIJAN IN THE FIRST STAGE OF THE MURIDISM MOVEMENT (1829-1834)

**IsgandarovVusal**

***Keywords:*** *muridism, Azerbaijan, north-western region, Russian occupation, freedom struggle, colonial policy*

The article covers the initial stage of Muridism in the northern regions of Azerbaijan, the appeal of local rebels to the Dagestan rebels during the uprisings in the north-western region of Azerbaijan, Sheikh Shaba's struggle against the Russian army, the attack on the Zagatala fortress, the suppression of the Tsar-Balakan uprising and the arrest of rebels. Destroying, looting livestock and property, forcibly relocating Georgians to plains, and settling Georgians in their settlements, Sheykhali Khan's position, the attack of the disciples on the Derbent fortress, Gazi Muhammad and Hamzat Bey's participation in the uprisings in the north-western region of Azerbaijan were investigated.

# БОРЬБА ПРОТИВ РУССКОЙ ОККУПАЦИИ В СЕВЕРО-ЗАПАДНОМ РАЙОНЕ АЗЕРБАЙДЖАНА НА ПЕРВОМ ЭТАПЕ МЮРИДИЗМА (1829-1834 ГГ.)

**Искендеров Вюсал**

***Ключевые слова:*** *мюридизм, Азербайджан, северо-западный регион, российская оккупация, борьба за свободу, колониальная политика.*

В статье освещается начальный этап мюридизма в северных районах Азербайджана, обращение местных повстанцев к дагестанским повстанцам во время восстаний в северо-западном районе Азербайджана, борьба шейха Шабы против русской армии, нападение на Загатальскую крепость , подавление царско-балаканского восстания и арест мятежников.-Уничтожение, разграбление скота и имущества, насильственное переселение грузин на равнины и расселение грузин в их поселениях, позиция Шейхали-хана, нападение учеников на Дербентскую крепость, Гази Исследовано участие Мухаммеда и Гамзат-бека в восстаниях в северо-западном районе Азербайджана.

Qafqazda müridizmin ilk təbliğatçısı görkəmli din xadimi, sufi şeyxi Kürdəmirli İsmayıl Əfəndi olmuşdur. 1823-cü ildə Şirvanın Kürdəmir kəndində İsmayıl Əfəndi ilə görüşən Məhəmməd Yaraqi, bu görüşdən sonra onun fikirlərinin təsiri altında Dağıstanda müridizmin təbliğinə başlamışdı. Kürdəmirli İsmayıl Əfəndinin Qafqazın müxtəlif bölgələrindən olan müridləri bu təlimin müsəlmanlar arasında yayılması ilə məşğul olurdular. Həmin vaxtı bu təlimin Azərbaycanın şimal qəzalarında geniş şəkildə yayılmasında müridizm şeyxləri tərəfindən bunun üçün görəv verilmiş ardıcılların, müridlərin xüsusi rolu olmuşdur. Onlardan müridizmin Azərbaycanda ən güclü təsirə malik olduğu şimal-qərb bölgəsində - Car-Balakəndə Hacı Şəfi bəy[15,c.99], Qəbələ məntəqəsində Şıx Nəbi[7,v.309], Nuxa qəzasında Dəmirqaya[17,v.49-50], Xaçmaz məntəqəsində Hacı Nüseyin Əfəndi və Hacı Məmməd Əfəndi idilər[23, v. 69]

Hacı Şəfi bəy barədə rus mənbələrində qeyd olunur ki, o, Azərbaycan müridizminin banilərindən olmaqla, Molla Yaraqlı ilə dostluq münasibətində olub, digər təriqətçilərlə sıx əlaqə saxlayıb. Hacı Şəfi bəy Hüseyn xan Şəki əyalətində olarkən bütün xalqı rus hökumətinə qarşı silahlandırıb, xalqı ruslara verdiyi andı pozmağa və xanı ermənilərə qarşı zorakılıq etməyə təhrik etdi[3, c.11].

Dağlı icmaları arasında şəriəti yaymağa başlayan Qazı Məhəmməd isə bu məqsədlə adamlarını şəriəti qəbul etmək çağırışı ilə qonşu icmalara göndərirdi. Onun yaxın adamlarından olan təriqətçi Hacı Yəhya 1829-cu il

iyulun sonunda Azərbaycanın şimal-qərb bölgəsinə, Car-Balakənə gələrək Katex kəndində məskunlaşmışdı. Knyaz Çavçavadze bundan xəbər tutanda podporuçik Natsvalovu Hacı Yəhyanı vermək tələbi ilə carlıların yanına göndərir. Lakin carlılar Məmmədvəli Çanka oğlu, Hacı Mahmud oğlu və Katex kəndxudası İbrahim Çadar oğlunun timsalında öz nümayəndələrini göndərərək Hacı Yəhyanın Rusiya əleyhinə heç bir hərəkət etmədiyini, yalnız dini ibadətlə məşğul olduğunu bildirirərək, ahıl yaşda olduğu üçün onu onu rahat buraxmağı xahiş edirlər. Lakin rus komandanlığının artan təzyiqləri qarşısında carlılar Hacı Yəhyanı qoruya bilməyəcəklərini başa düşürlər və o gizlicə Car-Balakəndən getmək məcburiyyətində qalmışdı.[2,c.133]

Bu arada 1830-cu ilin yazında Azərbaycanın şimal-qərb bölgəsində baş vermiş üsyan zamanı yerli üsyançıların Dağıstan üsyançılarına müraciət etməsi müridizm hərəkatının Cənubi Qafqaza da yayılması üçün real imkanlar yaradır. Beləki, 1830-cu ilin fevralında Azərbaycan ərazisində son azad məntəqə olan Car-Balakən camaatlıqları işğal olunur. Bu bölgəyə yürüş üçün ruslar qış aylarını ona görə seçmişdilər ki, həmin vaxtı dağlar qarla örtüldüyünə görə carlıları Dağıstandan gələ biləcək yardımdan məhrum edirdi. Bu zaman həm də carlıların dağlara çəkilməsi qeyri mümkün olurdu. Car-Balakən camaatlıqlarının tutulmasından sonra həmin ilin martın 4-də baş komandan İ.F.Paskeviç tərəfindən "Car-Balakən vilayətinin idarə olunmasına dair qaydalar" hazırlanmış və burada knyaz Bekoviç-Çerkasskinin başçılığı ilə Müvəqqəti İdarəçilik təşkil olunur.[18,c.439-443]

Camaatlıqların daxili idarəçiliyinin ləğv edilməsi burada 1830-cu ilin mayın sonlarından dekabr ayına kimi davam etmiş güclü üsyana səbəb olur. Car-balakənlilər Dağıstanın Ankratl, Curmut, Tlanada, Andalal kimi icmalarına göndərdikləri məktublarda yazırdılar: "Çoxumuz vətən xatirinə malımızı tərk etdik, kafirləri tərk etdik. Sən, Şeyx Şaban, qoşununla çıx! İndi dişimizi qıcamışıq və bundan utanmırıq, əksinə, bunu borcumuz hesab edirik, çünki biz incimiş adamlarıq. Qalan göstərişlərimizi sizə bunu verən şəxsdən ala biləcəksən. Bunu ancaq Allah üçün, Allah üçün və Allah üçün edin". Şeyx Şaban cavab məktubunda dağlardan qar əriyəndə böyük bir ordu ilə carlıların köməyinə gələcəyini vəd edirdi.[2,c.133]

Şeyx Şaban Hacı Şəfi bəylə birlikdə Car-Balakəndə təriqətin başlıca təbliğatçılarından olmaqla yerli əhali arasında böyük nüfuza malik idilər. Bu barədə Bolkonski qeyd edir ki, imam Qazı Məhəmmədə Şeyx Şabandan daha yaxşı yoldaş və köməkçi tapmaq çətin idi, ona görə də imam ona inanırdı və müstəqil fəaliyyət göstərmək üçün icazə verdi. Şaban nəinki özünü doğrultdu, həm də himayədarının bütün ümidlərini üstələdi: o, həqiqətən də təkcə dinc olmayan dağlılar arasında deyil, hətta Car-Balakənlilər arasında da möcüzələr göstərdi. Volkonski eyni zamanda qeyd edirdi ki, carlılar rusların əlindən Zaqatalanı almaq və orada qala tikməyə mane olmaq niyyətindədirlər. Carlıların

bu niyyətindən xəbərdar olan Şeyx Şaban rusların qala tikintisini davam etdirdiyi bir vaxtda Cara və digər icmalara müraciət ünvanlayır.[2,c.109]

Car-Balakənlilərin yardım barədəki müraciətindən sonra Şeyx Şaban Andalalda imam Qazi Məhəmmədlə görüşüb Car-Balakənə yürüş planını və sonrakı hərəkətləri müzakirə etmişdi. Ruslara qarşı ümumi hərəkət üçün mayın 21-də başlayan Qurban bayramı günü təyin edilmişdi. Bu məqsədlə Qotsatldan Həmzət bəyin (Dağıstan və Çeçenistanın ikinci imamı) başçılığı altında 2 min nəfərlik dəstə Car-Balakən bölgəsinə və oradan da Kaxetiyaya yürüş etmək niyyətilə hazırlıqlara başlayır. Tlenserux, Karax, Mukrax və Boxnada sakinləri isə istilərin səngiməsi və taxılın yığılması ilə carlıların köməyinə gələcəkləri barədə söz verirlər[3,c.112-133].

Bu arada baş komandan Paskeviç tərəfindən Car-Balakən Vilayətinin rəisi Bekoviç-Çerkasski gen-m Sergeyevlə əvəz olunur. Mayın 27-də bu bölgəyə gələn Sergeyev dağlıların hər an bu bölgəyə hücum təhlükəsinin olduğu bir vaxtda Zaqatala qalasının tikintisinin yarımçıq vəziyyətdə görür. O, Qafqaz komandanlığına məktubunda bu barədə yazırdı ki, qalanın şimal-şərq tərəfində xəndək qazılaraq iki arşından 2,5 arşına qədər divar ucaldılmış, şimal-qərb tərəfdə isə yarğan ətrafında yalnız bünövrə qoyulmuş və yalnız bəzi yerlərdə divar 1,5 arşına qədər ucaldılmışdır. Qalanı təchiz etmək üçün silahlar hələ gətirilməmişdi[24,c.220].

İyunun 3-də Şeyx Şabanın Dağıstanın Curmut icmasına gəlməsi və buradan Balakəni tutmaq niyyətində olması barədə xəbər alan Segeyev bu məntəqəni əlavə qüvvələrlə gücləndirir. İyunun 11-də Şeyx Şabanın bir dəstəsi Roqnoor adlanan yeri tuur, həmin vaxtı onun özü isə, hələ 500 müridlə Salda kəndində oturub Ankratlın hər yerindən əlavə qüvvə toplayırdı. Həmzət bəy də eyni zamanda Tlenserux, Karax və Andalalda dəstələr toplayırdı. Şeyx Şaban Saldadan Car-Balakən icmalarına məktub göndərərək, "bütün icmaların həmişəki kimi müsəlman şəriəti qaydalarında qalmasını və Rusiya qanunlarına tabe olmamasını" təmin etmək niyyətində olduğunu bildirərək, həmin icmaların kəndxudalarından onun yanına gəlmələrini xahiş edir. Bu məktubu alan balakənlilər, onlara təyin edilmiş məhkəmə icraçısı Meşeryakovun və yerli milislərin toplanmasını tələb edən mayor Buçkiyevin əmrlərinə tabe olmaq istəmədiklərini bildirdilər. İyunun 17-də isə artıq Balakən ətrafındakı yüksəkliklər müridlər tərəfindən tutulmaqla Katex kəndxudası Sodoril İbrahim kənddə dağlıların 200 nəfərlik ilk dəstəsi ilə görüşür[24,c.220].

İyunun 19-da Şeyx Şaban 2 minlik dəstə ilə Car-Balakənin Qəbizdərə kəndinə enir. Burada dağlıların 200 nəfərlik ön dəstəsi ilə podpolkovnik Platonovun başçılığı altındakı iki diviziondan ibarət hissə arasında ilk toqquşma baş verir. Şiddətli atışmadan sonra ruslar itkilər verərək geri çəkilməyə məcbur olurlar. Buradan tələsik Balakənə gələn Şeyx Şaban qalada 3 topla təchiz olunmuş 720 nəfərlik rus hissələrini mühasirəyə aldı. İyunun 20-21-də burada

tərəflər arasında getmiş döyüşlər Zaqatala qalasından Sergeyevin başçılığı altında köməyin gəlməsindən sonra dağlı və yerli üsyançıların birləşmiş qüvvələrinin mühasirədən əl çəkib geri çəkilməsi ilə nəticələnir.[3,c.116-118]

Həmin ilin oktyabrn 15-də Köhnə Zaqatala qalasına olan hücum üsyançıların qələbəsi ilə başa çatdı. Smirnovun yazdığına görə Zaqatalanı geri almaq üçün uğursuz cəhd edən general Strekalovun başçılığı altındakı rus hissələri təkcə ölü olaraq 220 nəfər itirərək geri çəkilməli olurlar.[24,c.55-56] Hərbi komandanlıq tərəfindən verilmiş məlumatlara əsaslanan Qizetti isə Zaqatala yaxınlığında baş vermiş döyüş zamanı ruslardan 6-ı zabit olmaqla 249 nəfərin öldürüldüyünü, 11-i zabit olmaqla 152 nəfərin yaralandığını qeyd edir.[4,c.24]

Müridlərin Car-Balakənə olmuş bu yürüşü barədə məlumat verən imam Şamilin şəxsi katibi Məhəmməd Tarir al-Karaxi yazır ki, bu zaman müridlər ruslardan hətta qənimət kimi top ələ keçirmişdilər. Onun yazdığına görə müridlər topu söküb onun sirrini öyrənməyə çalışsalar da buna müvəffəq ola bilməmişdilər.

Həmin ilin noyabr ayında Əliabad kəndinə olan iki uğursuz hücum cəhdindən sonra isə rus hissələri ayrı-ayrı üsyan mərkəzlərindəki hərəkatı yatırırlar.

Beləki, ruslarla danışıqlara getmək məcburiyyətində qalan Şeyx Şabanın həmin ilin noyabrın 10-da öz dəstəsi ilə Köhnə Zaqatala qalasını tərk etməsi, ardınca isə Həmzət bəylə qardaşı Murad bəy də eyni addımı atması yerli üsyançıları dağlı müridlərin yardımından məhrum edir. Şeyx Şaban və Həmzət bəyin ruslarla danışıqlarında irəli sürdüyü şərtlərdən biri də dağlı mürid dəstələrinin bu bölgədən sərbəst şəkildə dağlara çəkilməsinə şəraitin yaradılması ilə yanaşı, eyni zamanda Car-Balakənli üsyançılar üçün amnistiyanın verilməsi olmuşdur. Lakin danışıqlara gəlmiş Şeyx Şaban, Həmzət bəy və Murad bəy rus komandanlığı tərəfindən xəyanətkarcasına həbs olunaraq Tiflisə göndərilmişdilər[24,c.221]. Noyabrın 14-də qəti hücuma keçən ordu hissələri üsyançıların müqavimətini qırmağa müvəffəq oldular və keçirilən əməliyyat nəticəsində Köhnə Zaqatala qalası və Car ələ keçirildi[1,s.80]

Bir müddət Metex qalasında saxlanılan Şeyx Şaban qardaşı Dibir Məhəmmədin, Həmzət bəy və Murad bəy isə Həmzət bəyin azyaşlı qardaşı oğlu Keyxosronun əmanət kimi Tiflisə göndərilməsindən sonra azad olunmuşdular. Qeyd eləmək lazımdır ki, qısa bir müddətdən sonra Keyxosrov xəstələnərək Tiflisdə vəfat etmişdi. Doğma kəndi Qotsatla qayıdan Həmzət bəy bir müddət ruslara verdiyi sözünə sadiq qalaraq, qardaşı oğlunun həyatı onun davranışından asılı olduğundan döyüşlərdə iştirak etməsə də,Keyxosronunölümündən sonra onun əl-qolunu bağlayan heç bir səbəb qalmadığından imam Qazı Məhəmmədə qoşularaq, yenidən müridizm hərəkatında fəal şəkildə iştirak etməyə başlamışdı.[10]

1830-cu il Car-Balakən üsyanı əsasən yatırılsa da dağıstanlı müridlərdən ibarət dəstələrin gəlişi ilə vaxtaşırı alovlanan bu üsyan dekabrın sonuna kimi davam etmişdi. 1830-cu il dekabrın sonunda Qazı Məhəmməd tərəfindən göndərilən Əliçulla Mahama və Xala Mahamanın başçılığı altındakı mürid dəstəsinin Balakənə gəlməsi ilə Balakənin beş verstliyində yerləşən 60 evdən ibarət Salban kəndinin bütün sakinləri, eləcə də Katex, Balakən və Car kəndlərinin sakinlərinin bir hissəsi müridlərə qoşulmuşdu[2,c.133].

1830-cu ilin dekabrında üsyan yatırıldıqdan sonra Çapar Əli, Huhli və Cimçili kimi Car toxumlarından (nəsil) olmaqla 32 nəfər üsyan rəhbəri həbs edilir. Onların arasında Car bölgəsində müridizmin əsas təbliğatçıları olan Katex kəndxudası Kutur Süleyman oğlu, İbrahim Zaqar oğlu, Abdulla və Səfər Hacı oğlu var idi. Sonuncu iki nəfər Car-Balakən camaatlıqlarının nümayəndələri kimi Dağıstana yardım xahişli məktublar aparmışdılar[15,c.135].

Üsyanın yatırılmasından sonra onun iştirakçılarının cəzalandırılması məqsədilə baş komandan Paskeviç Strekalova bütün xainlərin evlərini yerləyeksan etməyi, mal-qarasını və əmlakını isə talan üçün gürcülərə və Kaxetiya milisinin ixtiyarına verməyi əmr etmişdi. Bununla belə, əmrə görə Car kəndi vasitəsilə sərbəst ünsiyyətə mane olan evlər dağıdılmalı və məhv edilməli idi. Qalan evlər isə gürcülərin mülkiyyətinə verilməli idi, gürcülər bunun üçün onları qorumağa borclu idilər. Həyəcanların əsas səbəbkarlarının hərbi məhkəmələr tərəfindən mühakimə olunaraq onlardan iyirmi beş nəfərə qədərinin güllələnməsi, qalanlarının isə dəmirlə zəncirlənərək Tiflisdə saxlanılması əmr edilirdi[16,c.176-177].

Üsyan etmiş Car-Balakənlilərin yurdlarından çıxarılaraq zorla düzən ərazilərə köçürülməsi və onların məskənlərində gürcülərin yerləşdirilməsi ilə bağlı xüsusi layihə hazırlanmışdı. Həmin layihəyə görə İmeretiyadan Telav və Sığnaq qəzalarına köçürülmüş 200-ə qədər ailə 1830-cu il üsyanından sonra əhalisi pərən-pərən salınaraq ərazisi tarımar edilmiş Car kəndinə köçürülməli idi. Rus komandanlığının fikrincə burada yaşayış üçün yararlı halda olan evlərin hələ də qalması, eləcə də ərazisinin kifayət qədər münbit torpağa malik olması burada yerləşdiriləcək gürcü köçkünlərə qısa vaxtda burada öz təsərrüfatlarını qurmağa imkan verəcək. [9,v.46-48]

Üsyanda iştirak etmiş bölgə əhalisinin bir hissəsinin Gürcüstan və Erməni vilayətinə köçürülməsi ilə bağlı da planlar hazırlanmışdı. Bu məqsədlə 1831-ci ilin yazında hazırlanmış ikinci layihə isə Car-Balakən əhalisinin Gürcüstan ərazisinə köçürülməsini nəzərdə tuturdu[14,v.4]

1831-ci ilin yayında hazırlanmış üçüncü layihə ilə üsyanda iştirakına, bölgəyə gəlmiş Həmzət bəyə kütləvi şəkildə qoşulduğuna görə Car-Balakənin Balakən kəndindən 241 nəfər Gürcüstan ərazisinə, 132 nəfər isə Erməni vilayətinə köçürülmüşdü. Köçürülənlərin tez bir zamanda yerli gürcü əhalisi

içərisində assimilyasiya olunması məqsədilə car-balakənlilər hər kənddə bir və ya iki ailə olmaqla yerləşdirilmişdilər[9,v.39-42].

Bu tədbirlərə 1830-cu il Car-Balakən üsyanının iştirakçılarının bir hissəsi Dağıstana qaçaraq müridizmə qoşulmuş, bir hissəsi rus komandanlığı tərəfindən Gürcüstan, digər hissəsinin isə Erməni vilayətinin ərazisinə köçürülməklə pərən-pərən salınmışdı.[20,c.131]

Üsyanın yatırılmasından sonra onun iştirakçılarının bir hissəsi ayrı-ayrı dağ icmalarında gizlənir, digər hissəsi Qazı Məhəmmədin başçılığı altında gedən müridizm hərəkatına qoşulurlar. Beləki, Car-Balakənli üsyançıların bir hissəsi dağlara çəkilən müridlərlə birlikdə getmiş, digər hissəsi isə çar hakimiyyətinin təqiblərindən dağlara qaçaraq müridizm tərəfdarlarına qoşulmuşdular. Təsadüfi deyildi ki, ikinci imam Həmzət bəyin hətta şəxsi müfizəsində car-balakənli mühacirlər yer almışdılar[5,c.131].

Müridizmə qoşulmuş car-balakənlilərin yaxından iştirakı ilə Azərbaycanın şimal-qərb bölgəsinə vaxtaşırı baş verən yürüşlər rus komandanlığını ciddi narahat etməklə onun qarşısının alınması məqsədilə müəyyən tədbirlər görmək məcburiyyəti qarşısında qoymuşdu. Car-Balakən vilayətinin rəisi gen-m Reut Əlahiddə Qafqaz Korpusunun qərargah rəisinə yazdığı raportunda Dağıstana qaçmış car-balakənlilərin yerli əhali arasındakı nüfuzundan istifadə edərək burada həyəcanlar törətməsinin qarşısının alınması, eləcə də onları dağıstanlılardan aralamaq məqsədilə əfv etməyi təklif edirdi[21,v.213].

Qazı Məhəmmədin eyni zamanda bu yürüş ərəfəsində keçmiş Quba və Dərbənd hakimi Şeyxəli xanın həmin vaxtı Qacar İranında olan oğluna da xəbər göndərməsi, bu dəvətin nəticəsi olaraq onun İranda sığınacaq tapmış Şimali Azərbaycanın digər xan ailələrinin nümayəndələri ilə birlikdə Qafqaza yola düşməsi barədə də məlumatlar vardır[11,v.174].

Qalaya yürüş ərəfəsində qala komendantına və şəhər əhalisinə müraciət edən Qazı Məhəmməd komendantı qalanı təslim etməyə[12,v.174] şəhər əhalisini isə kafirlərə itaət göstərməməyə, imanlarında sabitqədəm olmağa çağırırdı. İmam müraciətində qeyd edirdi ki, biz müsəlmanlar üçün xeyirxah, kafirlər üçün isə qorxuluyuq və müsəlmanlara kömək etmək üçün yola çıxmışıq. Şəhərin əhalisi kafirlər üçün müəyyən olunmuş əzabdan qurtulmaları üçün imanında möhkəm olmalıdırlar. Onlar ruslara tabe olmamalı və heç nədən qorxmamalıdırlar, çünki İslam dini zəfər çalacaq[22,c.175-176].

Səkkiz milik qüvvə ilə avqustun 20-də Dərbənd qalasına hücuma başlayan müridlər qalada və ətrafdakı bağlarda mövqe tutan rus hissələrinin top atəşləri ilə qarşılaşırlar. Top mərmiləri üsyançıların sıralarında ciddi tələfatlar törədirdi. Buna baxmayaraq Dərbənd qalasının bir həftə davam etmiş mühasirəsi zamanı müridlər hər gün qalaya hücüm təşkil etmişdilər[19,c.534]. Bu müddətdə müridlər qalaya girmək üçün bir-neçə dəfə uğursuz cəhdlər etmiş,

ayrı-ayrı mövqelərin ələ keçirilməsi uğrunda tərəflər arasında şiddətli döyüşlər getmişdi.

Yeni hissələrin Dərbəndə doğru hərəkət etməsi Qazı Məhəmmədi avqustun 27-də mühasirədən əl çəkməyə vadar edir. Rus mənbələrində Dərbəndin 7 gün davam etmiş mühasirəsi zamanı (avqustun 20-dən 27-ə kimi) rus hissələrindən 6 əsgərin öldüyü, 19 əsgərin yaralandığı qeyd olunur[4,c,27].

Zissermanın yazdığına görə Qazı Məhəmmədin Dərbənd yürüşü uğurla nəticələnəcəyi təqdirdə bu hərəkat, Şamaxıya kimi bütün müsəlman əhalisinin həyəcanlarına səbəb olardı. Onun sözlərinə görə Dərbəndin süqutu ilə şübhəsiz ki, Quba qəzası üsyana qalxacaqdı, həyəcanlar buradan Zaqatala dairəsinə və Nuxa qəzasına, nəticə olaraq bütün müsəlman diyarına yayılardı.[11,c.98-99]

Dərbənd bölgəsindən geri çəkilən Qazı Məhəmməd müridlərin əsas hissəsi ilə Tabasaranı tərk edərək Burnaya qalasına çəkilir[6,c.98-99]. Müridlərin Dərbənd ətrafındakı məğlubiyyətinin başlıca səbəbini Zisserman onların“...yoldaşlarının qalaqlanmış meyitləri üzərindən düşmənin qala divarlarına dırmaşmağa adət etməməsi...” ilə izah edirdi [11,c.703].

1832-ci ilin yayında Azərbaycanın şimal-qərb bölgəsi olan Car-Balakən vilayətində növbəti dəfə həyəcanlar baş verir. Baron Rozenin Car və Zaqatala kəndlərindəki ruslar tərəfindən yandırılmış, lakin dağılmamış evlərin tamamilə dağıdılması, Zaqatala dərəsindəki ağacların kəsilərək yolların təmizlənməsi tədbiri əhalinin ciddi narazılığına səbəb olmuşdu. Bölgənin dağətəyi kəndlərinin sakinlərinin çoxu Alazansahili düzən ərazilərə köçürülmüş, bundan yaxa qurtarmaq istəyənlərin bir hissəsi isə dağlara qaçmışdılar. Bolkonskinin yazdığına görə Azərbaycanın şimal-qərb bölgəsi sərhəddə yerləşmiş Dağıstanın cənub-qərb icmalarında mövqe tutmuş qaçqın car-balakənlilər Çanka Vəli, Xala Mahama, Bibil və Tahirin başçılığı altında bu bölgəyə tez-tez yürüşlər edirdilər[3,c.174].

1832-ci ilin mayında Qazi-Məhəmməd iki carlının vasitəsilə çar-balakənlilərin məskunlaşdığı Tlenserux icmasının sakinlərinə məktub göndərir və bildirir ki, tezliklə onların yanına cəsur komandir Çupanı göndərəcək. Onlar Çupan üçün ordu toplamalı, 10-16 günlük ərzaq verməli və onunla birlikdə Muxax dərəsinə (Muxax Azərbaycanın şimal-qərb bögəsində, Car-Balakəndə kənddir) getməlidirlər. Tlenseruxlular imama cavab verirlər ki, əgər o, Qotsatldan olan Həmzətlə birlikdə onlara rəhbərlik etsə, hərəkətə keçməyə hazırdırlar[24,c.223].

Rusların verdiyi məlumata görə artıq həmin ilin iyunun sonlarında Həmzət bəyin, qardaşı Murad bəyin və qardaşı oğlu Çupanın başçılığı altında olan qüvvələrin (onların tərkibində 1830-ci il üsyanının məğlubiyyətindən sonra qaçaraq Dağıstanın cənub icmalarında məskunlaşmış carlılardan ibarət 300 nəfərlik dəstənin də olduğu bildirilir) Curmut kəndi vasitəsilə Car-Balakən vilayətinə yürüş etmək məqsədilə Dindi dağında toplaşmışdı[24,c.223]. Baron

Rozen də hərbi nazir knyaz Çernışevə yazdığı 1832-ci il 15 iyul tarixli raportunda 400 nəfərlə Curmut icmasına gələn Həmzət bəyin oradan topladığı qüvvə ilə Car-Balakənə enərək yerli əhalini həyəcanlara qaldırdığı bildirilirdi[13,c.553].

Həmzət bəyin mürid dəstəsinin carlıların dəvətilə bu bölgəyə gəlişi ilə bölgənin Car, Tala, Katex, Matsex və Almalı kəndlərinin üsyançı dəstələri də ona qoşulmuşdular. Tsarskiye Kolodsadan gələn qüvvələrlə Muxax dərəsinə enmiş müridlərə qarşı hərəkətə başlayan Car vilayətinin rəisi gen-m Karpovun başçılığı altındakı rus hissələri ilə ilk toqquşma iyulun 17-də Muxax, ardınca isə üsyana qalxmış Tala kəndinin yaxınlığında olur. Bu döyüşlərdə üsyançılardan 20, ruslardan 2 nəfərin öldürüldüyü, 12 nəfərin isə yaralandığı barədə məlumat verilir. Qısa bir vaxtda üsyançılara qarşı gen-m Çavçavadze və gen-l baron Rozenin başçılığı altında 10 min nəfərə yaxın qüvvə səfərbər olunur.[13,c.554]

Bu arada isə bölgənin Masex, Katex, Şambul və Balakən kəndlərini tutan Həmzət bəy yerli əhalinin də ona qoşulması ilə əsas qüvvələrin toplaşdığı Qabizdərə kəndinə gəlir. Buradan iyulun 27-də hərəkətə başlayan Həmzət bəyin başçılığı altındakı üsyançı dəstə bölgənin ən böyük ingiloy kəndi olan və daim çarizmin zorakı xristianlaşdırma siyasətinə qarşı mübarizənin önündə getmiş Əliabadı tutsa da, müridlər tezliklə Tsarskiye Kolodsadan gələn baron Rozenin başçılığı altındakı rus hissələrinin təzyiqi nəticəsində kəndi tərk etməli olurlar. İyulun 30-da bölgənin Muxax yaxınlığında tərəflər arasında baş vermiş döyüş baron Rozenin başçılığı altındakı rusların qələbəsi ilə başa çatır. Bu zaman Həmzət bəyin dəstəsindən 20-ə qədər adamın əsir alındığı və onların içərisində 1830-cu ildə baş vermiş Car-Balakən üsyanının rəhbərlərindən olmuş, onun məğlubiyyətindən sonra isə dağlara qaçaraq müridizmə qoşulmuş, Qazı Məhəmmədin yaxın silahdaşlarından birinə çevrilmiş carlı Molla Tsetovun olduğu göstərilirdi.[13,c.555-556] Bu, əvvəlki üsyanın məğlubiyyətindən sonra car-balakənlilərin bir çoxunun müridizmə qoşulması faktını bir daha təsdiqləyir.

Bu arada, iyulun 26-da Novqorod Draqun alayının bir divizionu, 1-ci gürcü piyada alayının 800 piyadası və 500 milisdən ibarət böyük qüvvə Dedoplis-tskarodan Alazan çayı istiqamətində hərəkətə başlayır. Nəticədə ləngliyərək Zaqatala qalasına hücum üçün fürsəti əldən verən Həmzət bəy ruslarla qəti döyüşə girməkdən çəkinərək dağlara çəkilir. Tədqiqatçıların yazdığına görə Həmzət bəyin uğursuzluğuna səbəb onun uzun müddət gözləmə mövqeyi tutması, bu səbəbdən də isti iqlim şəraitinə öyrəşməyən dəstəsindəki dağlılar arasında müxtəlif yoluxucu xəstəliklərin yayılması idi.[24,c.224]

Qeyd etmək lazımdır ki, Şimal-şərqi Qafqaz dağlılarının azadlıq hərəkatının ilk iki imamı Qazı Məhəmməd və Həmzət bəyin mübarizələri Azərbaycanla sıx şəkildə bağlı olmuşdur. XIX əsrin 30-cu illərinin əvvəllərində Azərbaycanın şimal-qərb bölgəsində baş vermiş üsyanlarda onlar yaxından iştirak etmişdilər.

## Ədəbiyyat

**Azərbaycan dilində**

1. Əliyeva İ.H. İngiloylar: zorakı xristianlaşdırmaya və gürcüləşdirməyə qarşı mübarizə tarixindən. Bakı: 2019,– 372 səh.

**Rus dilində**

2. Волконски Н.А. Война на Восточном Кавказе с 1824 по 1834 гг. в связи с мюридизмом. //Кавказский сборник, т.XII, Тифлис, типография окружного штаба, 1888, с. 109, 133
3. Волконски Н.А. Война на Восточном Кавказе с 1824 по 1834 гг. в связи с мюридизмом. Кавказский сборник, т. XII, с. 116-118
4. Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско- горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг. Тифлис: Издательство военно-исторического отдела при штабе Кавказского военного округа, 1901, 222 с.
5. Даниялов Г.А. Имамы Дагестана. По долинам и скалам Дагестана. Махачкала, 1996. 246 с.
6. Движение горцев Северного Кавказа в 20-50 гг. XIX века. Махачкала: Дагестанское книжное издательство. 1959, 430 с.
7. Доклад нач-ка гражданского управления Закавказским Краем ген-л. Бебутова Кавказскому Наместнику, от 12-го августа 1850 года. GMTA, f. 3, siy. 1, iş 907. v. 309.
8. Докладная записка о переселении государственных крестьян-хизанов и имеретинских жителей в Джаро-Белоканскую область от 17-го ноября 1831 года. GMTA, f.2, s.1, iş2670,v.46-48ar
9. Докладная записка управляющего гражданской частью в Закавказском крае ген.-адъютанта Панкратьева от 11-го июля 1831 года на имя главноуправляющего Грузией GMTA, f.4, s.2, iş.2498, v.39-42 arxa
10. Доного Х.М. Аманаты. Заложники большой политики. http://www.gazavat.ru/history3.php?rub=1&art=951#_ftn6
11. *Зиссерман А.Л. Осада Бурной и Дербента Кази-Муллой в 1831 году. // Русский Вестник, 1864, № 12, с. 723*
12. Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура: Изд. Русская типография, 1906, 648 с.
13. Отношение барона Розена к гр. Чернышеву, от 15-го июля 1832 года. АКАК, т. 8, с.553
14. Отношение главнокомандующего Отдельным Кавказским корпусом ген.-фельдмаршала Паскевича-Эриванского Грузинскому гражданскому губернатору от 25-го апреля 1831 года о переселению джарцев в Грузию. GMTA, f.16, s.1, iş 4415,v.4

15. Петрушевский И.П. Джаро-Белоканские вольные общества в первой половине XIX в. Махачкала, 1993, 166 с.
16. Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях.Том 5-й, вып. 1-й. Время Паскевича. Тифлис: Типография Окружного Штаба Кавказского военного округа, 1889, 335 с.
17. Представление Шемахинского военного губернатора нач-ку гражданского управления Закавказским Краем ген-л. Бебутову, от 8-го сентября 1849 года. GMTA, f. 3, siy. 1, iş 907. v. 49-50 arxa.
18. Проект прокламации гр. Паскевича к Джарскому и Белоканскому обществам, от 25-го февраля 1830 года. АКАК, т. 7, с 439-443
19. Рапорт ген.-адъют. Панкратьева гр. Чернышеву, от 5-го сентября 1831 года // АКАК, т. 8. Тифлис, 1881, с. 534
20. Рапорт начальника Армянской области главнокомандующему Отдельным Кавказским Корпусом ген.-адъютанту барону Розену от 21-го ноября 1831 года о переселенных жителях сел. Белокан Джаро-Белоканской области в числе 132 душ в Армянскую область. GMTA, f.4, s.2, iş.2498, v.86-89
21. Рапорт начальника Джаро-Белоканской области ген.-м. Реутта начальнику штаба Отдельного Кавказского корпуса ген.-л. Панкратьеву от 20-го мая 1831 года, v. 213-213 arxa
22. Смирнов Н.А. Мюридизм на Кавказе. М.: Издательство Академии Наук СССР, 1963, 242 с.
23. Список лиц арестованных в Хачмазском и Кабалинском участках по подозрению в разных противозаконных действиях. GMTA, f. 3, siy. 1, iş 907. v. 69.
24. Шехмагомедов М.Г. и др. Тленсерух в конце 18-19 вв.: историко-документальное исследование (на основе изучения материалов коллекции «Усман-дибира ал-Ири»). М.Г. Шахмагомедов, Ш.М. Хапизов, Д.М. Маламагомедов. Махачкала, 2015. 378 стр.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2022, 2 (35), s.112-118

# AZƏRBAYCAN XALQININ ERMƏNİ TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏSİ (1905-1906-CI İLLƏR)

**Xəqani Məmmədov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**prof.khagani.mammadov@gmail.com**

***Açar sözlər:****Milli münaqişə, "Daşnaksütyun", soyqırım, "Difai", "Qeyrət", "Müdafiə", milli hərəkat.*

XIX əsrin sonları-XX əsrin əvvəllərində erməni qriqoryan kilsəsi və "Daşnaksütyun" partiyası "Dənizdən-dənizə böyük Ermənistan" yaratmaq ideyasını ortaya atdılar, təşkilatlanıb hərbi dəstələr yaratdılar. Onlar 1905-1906-cı illərdə münaqişə ocaqları yaradıb, xalqımıza qarşı soyqırımı törətməyə başladılar. Bu münaqişə çoxlu qırğınlara səbəb oldusa da, Azərbaycan milli hərəkatının inkişafını sürətləndirdi. Azərbaycan milli hərəkatının rəhbərləri "Difai", "Qeyrət", "Müdafiə" və s. siyasi təşkilatlar yaradıb, xalqımızı daşnakların terror və təcavüz siyasətinə qarşı mübarizəyə səfərbər etdilər.

## БОРЬБА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА ПРОТИВ АГРЕССИИ АРМЯНСКИХ НАЦИОНАЛИСТОВ (1905-1906 ГГ.)

**Мамедов Хагани**

***Ключевые слова:*** *Национальный конфликт, "Дашнаксутюн", геноцид, "Дифаи", "Гейрет", "Мюдафиа", национальное движение.*

В конце XIX, в начале XX веков Армянская григорианская церковь и национальная буржуазия выдвинули идею создания «Великой Армении от моря до моря», организовали и сформировали воинские части. В 1905–1906 годах они создали очаги конфликтов и начали геноцид против нашего народа. Хотя этот конфликт привел к множеству массовых убийств, он ускорил развитие национального движения. Лидеры азербайджанского национального движения создавая «Дифаи», «Гейрет», «Мюдафиа» и другие политические партии, мобилизовали нашего народа для борьбы против политики террора и агрессии дашнаков.

# THE STRUGGLE OF THE AZERBAIJANI PEOPLE AGAINST THE AGGRESSION OF THE ARMENIAN NATIONALISTS (1905-1906)

**Mammadov Khagani**

***Key words**: National conflict, "Dashnaksutyun", genocide, "Difai", "Geyret", "Mudafia", national movement.*

At the end of the XIX, at the beginning of the XX century, the Armenian Gregorian Church and the national bourgeoisie came up with the idea of creating a "Great Armenia from sea to sea", organized and formed military units. In 1905-1906 they created hotbeds of conflict and started genocide against our people. Although this conflict led to many massacres, it accelerated the development of the national movement.Leaders of the azerbaijani national movement creating "Difai", "Qeyret", "Mudafiə" and other political parties mobilized our poeple to fight against the policy of terror and aggression of the Dashnaks.

**Giriş.** XX əsrin əvvəllərində Cənubi Qafqazda erməni millətçilərinin həyata keçirdikləri erməni-azərbaycanlı münaqişəsi "Daşnaksütyun" partiyasının təcavüzkar siyasətinin ayrılmaz tərkib hissəsi idi. Burada əsas məqsəd Azərbaycan türklərini bütün vasitələrlə ata-baba torpaqlarından sıxışdırıb çıxararaq həmin ərazilərdə Türkiyədən, Qacar şahlığından və digər şərq ölkələrindən köçürülmüş erməniləri məskunlaşdırmaqdan ibarət idi. Onların fikrincə ermənilərin köçürülmə planını 1905-1906-cı illərdə Rus inqilabının doğurduğu hərc-mərcliklər dövründə reallaşdırmaq daha əlverişli idi. Çünki inqilab nəticəsində çar hökümətinin başı ümumdövlət problemlərinə, inqilabın qarşısını almağa çalışdığından milli münaqişələri daha da qızışdırmağa çalışırdı.

Erməni-azərbaycanlı münaqişəsində çar hakimiyyət orqanlarının ermənilərə dəstək verməsi azərbaycanlıları da siyasi cəhətdən təşkilatlanmağa, birləşməyə sövq etdi. 1906-cı ilin avqust ayında Əhməd bəy Ağayev tərəfindən "Difai" partiyasının əsası qoyuldu. ABŞ tarixçisi T.Svietoçovski "Difai"nin Gəncədə yarandığını qeyd edirdi. Hətta onun fikrincə Gəncədə yaranmış bu təşkilata Ə.Ağayev sonradan qoşulmuşdur. [12; s. 72]

Lakin, bu fakt yanlışdır. Çünki «Difai»nin Gəncə (Yelizavetpol) şöbəsigeniş fəaliyyət göstərsə də, partiya Ə. Ağayevin təşəbbüsü və rəhbərliyi ilə yaradılmışdır. [1; f. 62, v. 164] Partiyanın bütöv adı «Qafqaz ümummüsəlman ittifaqı» «Difai» olsa da, o, qısaca olaraq «Difai» kimi tanınmışdır. Arxiv sənədləri M. Ə. Rəsulzadənin də «Difai» sıralarında olduğu göstərilir. [1; f. 524, v. 10]

«Difai» partiyası 1909-cu ilə (Ə. Ağayevin Türkiyəyə mühacirət etdiyi dövrə qədər) qədərki fəaliyyəti müddətində Azəraycan xalqının daşnakların terrorundan müdafiəsində, onun qüvvələrinin səfərbər olunmasında ciddi rol oynamışdır. Partiyanın yaranmasının əsas səbəbi Azərbaycan xalqının ermənilər tərəfindən qırğına məruz qalması olmuşdur. Ərəbcə «Dəf etmək» feilindən yaranmış «Difai» sözü də «müdafiə», «mühafizə etmək», «qoruma» mənasında ifadə edilir.

«Difai» partiyasının 1906-cı ilin payızında gizli surətdə yayılmış proqram bəyanatında deyilirdi: «Firqənin ələlxüsus təqib edəcəyi şəxslər o adamlar olacaqlar ki, camaat arasında təfriqə və şuriş salırlar və camaatın cahillərini dəstə-dəstə edərək, düşmən partiyalar yaradaraq, aralarına ədavət buraxırlar və bu vasitə ilə millətimizin məhv və nabud olmasına səbəb olurlar» [6,s. 241].

«Difai» partiyasının 52 maddədən ibarət proqramının başlıca müddəaları aşağıdakılardan ibarət idi : «Hərbi işlərdən, xarici siyasət, ümumi qanunvericilik, dövlət vergiləri, yüksək vəzifəli dövlət məmurlarının təyini və bəzi ciddi cinayətlərə dair məhkəmə işlərindən başqa, müsəlmanların bütün ictimai-iqtisadi, mədəni-maarif, dini-əxlaqi, məhkəmə-şəriət işləri dövrün tələbinə cavab verən islam qanunları əsasında fəaliyyət göstərməli olan «Difai» partiyasının və onun göstərişi ilə hərəkət edən idarələrin, məclislərin ixtiyarına verilir. Müsəlmanların mülki və şəriət məsələləri, yerli və ali orqanlara nümayəndələr təyini, məktəb və mətbuat işləri və s. hamısı partiyanın ixtiyarına keçir». Partiyanın proqramında «zəmanəyə müvafiq müsəlman iqtisadi və maarifi idarəsi» yaradılması, «müsəlmanların məhsulatının kənar tayfanın əlinə keçməməsi»ndən ötrü ixracat şirkəti nəzərdə tutulurdu [6, s. 242].

1907-ci ilin martında Yelizavetpol şəhərində bəzi taktiki və proqram məsələlərini həll etmək üçün Zaqafqaziya, Şimali Qafqaz və Krım əhalisinin müsəlman nümayəndələrinin iştirakı ilə qurultay keçirilmişdir. Qurultayda aşağıdakı qərarlar çıxarılmışdır:

1. Ümumi müsəlman ittifaqı təşkil etmək məqsədilə yaxın gələcəkdə belə bir qurultayın Krımda keçirilməsi, terror vasitəsilə hökümətin güzəştə getməsinə nail olunması;
2. Cari ilin yazında (1907-ci il ) Qarabağda (Şuşa qəzası) «Difai»ni erməni «Xumbam»ına müqabil səviyyəyə qaldırmaq və rəhbər orqanlarını seçmək;
3. Hakimiyyət və məhkəmə nümayəndələrini hər şeydən əvvəl təşvişə salmaq;
4. Bakının müsəlman kapitalistlərinin köməyi ilə Ağdam stansiyasından Xocalıya qədər torpaqların yalnız müsəlman əhalisinin məskunlaşması üçün ermənilərdən pulla alınması.

5. Şuşalıların yalnız Şuşada yaşamasının məcbur edilməsi və Qarabağın müsəlman əyalətinə çevrilməsi.[5; s. 90]

Qurultaydan sonra «Difai» partiyası fəal surətdə öz ideyalarının müsəlmanlar arasında təbliğinə başladı və təşkilatın yeni şöbələri yaradıldı. Təşkilatın Bakı Komitəsindən əlavə Şuşada mərkəzi, Ağdam, Bərdə, Tərtər, Qaryagin, Cəbrayıl, Xocaqan, Kelnik, Naxçıvan şöbələri, Qarsda isə komitəsi yaradıldı. [1; f. 524, v. 14]

Bolşeviklər «Daşnaksütyun» partiyasına qarşı olduğu kimi, «Difai»yə qarşı da mübarizə aparmağa çağırırdılar. 1964-ci ildə nəşr olunmuş «Azərbaycan tarixi» kitabında «Difai» partiyasının yaradılması səbəbləri və fəaliyyət istiqamətləri yanlış şərh edilmişdir: «1905-ci ilin payızında Azərbaycanın Şuşa, Cavanşir, Qaryagin və s. qəzalarında tacirlərdən, qolçomaqlardan, burjua-mülkədar ziyalılarından və qismən də bəylərdən ibraət mürtəce «Difai» adlı təşkilat meydana çıxdı. Burjua-mülkədar ziyalılardan K. Mehmandarov, Ə. Ağayev, M. Hacınski təşkilata başçılıq edirdi. Müsəlmanları daşnakların basqınlarından müdafiə etmək pərdəsi altında çıxış edən «Difai» təşkilatı millətlər arası toqquşmaları qızışdırmaqda iştirak edirdi. Onun fəaliyyətindəki əsas metodlardan biri fərdi terror idi. Bəzi hallarda «Difai»nin üzvləri daşnaklara kömək etməkdə təqsirləndirilən məmurlara qarşı terror tətbiq edirdilər».[2; s. 613]

Şübhəsiz ki, təşkilatın fəaliyyətində fərdi terrordan istifadəni inkar etmək olmaz. Lakin Azərbaycan türklərinin səsinin hökümət dairələrində eşidilmədiyi, etirazlarına, haqlı tələblərinə məhəl qoyulmadığı təqdirdə millətin mənafeyini satanlara qarşı hansı tədbirlərə əl atmaq olardı? «Difai» təşkilatının üzvü, Qarabağın Gülablı kəndinin sakini Hüseyn Əli oğlu tərəfindən Şuşanın general-qubernatoru V.N. Qoloşşapov Azərbaycan türklərinə qarşı qırğında ermənilərə himayədarlıq etdiyi üçün 1906-cı il noyabr 8-də Tiflisdə qətlə yetirilmişdi.[1; f. 524, v. 18] Həmin ilin dekabrında Naxçıvan bazarında və Naxçıvan qəzasının Cəhri kəndsində talana bais olduğu üçün podpolkovnik Enkel öldürülmüşdü.[1; f. 524, v. 18]

«Difai»nin Şuşa şöbəsinin üzvü Seyid Miri partiyanın tapşırığı ilə ermənipərəst siyasət yeritdiyi üçün 25 aprel 1907-ci ildə rus generalı Kreşçinskini və kazak zabiti Qazarovu aradan götürmüşdü. [1; f. 524, v. 2] «Difai» partiyasının fəaliyyətinə mane olduğuna görə Seyid Miri Yelizavetpol quberniyasının polismeysteri İsrafilbəyovu qətlə yetirmişdi.[1; f. 524, v. 2] Tərtər polis rəisi Felikinski, Şuşada «dəli sudya» adı ilə məşhur olan hərbi hakim ermənilərə havadarlıq etdiklərinə görə görə aradan götürülmüşdülər.[4] «Difai»nin Malıbəyli şöbəsinin rəhbəri Əşrəf Məşədi İmran oğlunun verdiyi məlumata görə, 1906-cı ildə Malıbəyli kəndində Xankəndi postunun strajniki Şahmərdanov müsəlmanların sirrini ermənilərə satdığına görə komitə tərəfindən qətlə yetirilmişdi. [1; f. 524, v. 14] Azərbaycan xalqının düşmənlərinə qarşı

terror tətbiq edildiyinə görə çar hakim dairələri «Difai»ni «Müsəlman döyüş partiyası» adlandırırı.[1; f. 524, v. 20 ]

1909-cu ildə «Difai»nin fəaliyyətinə son qoyuldu. Partiyanın lideri Ə. Ağayev Türkiyəyə mühacirət etdi, onun fəal üzvləri, o cümlədən M. M Axundov, A. Rəfibəyov, H. Usubbəyov, Ə. Xasməmmədov, M. Rəfiyev, Cavad və Muxtar Qaziyevlər, A. M. Pişnamazzadə, M. Həmzəyev, Hacı Əli oğlu beş il müddətinə Qafqazın hüdudlarından kənara sürgün edildilər [1; f. 62, v. 165].

1907-ci ilin mayında yeni müsəlman partiyası «Müdafiə»nin əsası qoyuldu. Özünün yaydığı müraciətnamədə "Müdafiə" partiyası bəyan edirdi ki: "Müsəlmanlar! "Müdafiə" adlı yeni partiya təsis olunmuşdur. Təxminən «Difai»nin proqramı ilə işləyəcək bu partiya Yelizavetpol quberniyasının qərb hissəsində və Tiflisə yaxın qəzalarda fəaliyyət göstərəcəkdir. Bu partiya müsəlmanların ictimai həyatının bütün sahələrinə nüfuz etməyi, onların arasında cəmiyyət və birliklər yaratmağı, maarif və mədəniyyətin inkişafı qayğısına qalmağı öz qarşısına əsas vəzifə kimi irəli sürmüşdü[3,s.17]. Tiflisdə qeyrileqal şəkildə fəaliyyət göstərən «Müdafiə» partiyasının rəhbəri korpus topoqrafı, polkovnik İbrahim ağa Vəkilov olmuşdur.[1; f. 132, v. 65] Bəzi mənbələrdə isə partiyanın yaradıcısı kimi İsmayıl xan Ziyadxanov, Cəfər Axundov və İsmayılxan Ədilxanovun adları çəkilir [6,s. 240].

Yelizavetpol və Tiflis quberniyalarında daha çox fəaliyyət göstərən «Müdafiə» təşkilatının ömrü uzun olmasa da, təşkilat 1909-cu ildə fəaliyyətini dayandırmışdır. O, Azərbaycan milli hərəkatının inkişafında mühüm rol oynamışdır. Əslində «Müdafiə» təşkilatı «Difai» partiyasının proqramını qəbul edən və onun fəaliyyət metodlarını əsas tutan bir təşkilat olmuşdur. Lakin Azərbaycanın Yelizavetpol, Şəmkir, Zəyəm, Qazax, Borçalı və s. mahallarının nümayəndələri «müstəqillik» naminə öz partiyalarına «Müdafiə» adı verilmişdir. [6; s. 240]

«Difai» partiyası kimi «Müdafiə» təşkilatının da amalı Qafqaz müsəlmanlarının ittihadı, ümumi düşmənə qarşı mübarizə birliyi, Azərbaycan xalqının azadlığı, maarif və mədəniyyətin dirçəldilməsi, cəhalətə, nadanlığa və geriliyə qarşı mübarizə motivlərinə söykənirdi. Təşkilat erməni daşnaklarına qarşı mübarizədə uğur qazanmaq üçün millətin içərisindəki alçaqların, xainlərin, satqınların kökünü kəsməyə, hökumət məmurlarına həddini göstərməyə çağırırdı. O, bildirirdi ki, «Müdafiə»nin silahlı əli heybətli cəllad kimi həmişə yada salacaqdır ki, müsəlmanları daha bundan sonra incitmək olmaz.

«Qeyrət» təşkilatı da yuxarıda adları çəkilən qurumlar kimi erməni təcavüzünə qarşı mübarizə aparmaq, Azərbaycan türklərinin namusunu, qeyrətini, milli mənafeyini qorumaq məqsədi ilə yaradılmışdı. Arxiv sənədlərində «Qeyrət» təşkilatının 1906-cı ilin avqustunda Yelizavetpol şəhərində yaradıldığı qeyd olunur[9; f. 276; v. 1-3]. «Qeyrət» təşkilatına Ələkbər bəy Rəfibəyov rəhbərlik edirdi. Bəzi tədqiqatlarda «Qeyrət»in Şəfi bəy Rüstəm-

bəyov tərəfindən yarandığı qeyd olunmuşdur[10,s.87]. Təşkilatın sıralarında Xəlil bəy Xasməmmədov, Ələkbər Quliyev, Qafar Rəfiyev, Xanlar Xanəli Ağa oğlu və başqaları fəaliyyət göstərirdilər [9; f. 276; v. 1-3]. «Qeyrət» təşkilatının iclasları hər həftə Yelizavetpol şəhərinin baş məscidində keçirilirdi. Təşkilat öz məqsədlərini həyata keçirmək üçün xalq arasında təbliğat aparır, onların müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə çalışır və bu məqsədlə imkanlı adamlardan ianə toplayırdı.

**Nəticə.** Erməni-azərbaycanlı münaqişəsi Azərbaycan milli hərəkatının inkişafına böyük təkan vermişdirr. T.Svietoçovski yazırdı ki, bu münaqişə "Azərbaycan müsəlmanlarının birliyi üçün katalizator rolu oynamışdır. Azərbaycanlı-erməni savaşı ilk olaraq müsəlmanlar arasında yerəl və məshəb ixtilaflarını aşan bir həmrəylik yaratmışdır" (10, s.70].

Erməni-azərbaycanlı münaqişəsi hər iki tərəfdən çoxlu qırğınlara səbəb olsa da, Azərbaycan milli hərəkatının inkişafında çox mühüm rol oynamışdır;

- Bu münaqişədə Azərbaycanın türk-müsəlman əhalisi arasında milli birlik ideyasını gücləndirdi. Xalqımız erməni təcavüzünə qarşı yalnız əlbir mübarizə aparmaqla qələbə çalmağın mümkün olduğunu başa düşdü.
- Bu münaqişə kütlələrin siyasi şüurunun formalaşmasında mühüm rol oynadı. Münaqişənin aradan qaldırılmasında hakimiyyət dairələrinin erməni-pərəst mövqeyi bir tərəfdən xalqın hökümətə olan inamını azaltdı, digər tərəfdən hökumətin ikiüzlü siyasətinin arxasında mürtəce «parçala hökm sür» ideyasının gizləndiyini üzə çıxardı.
- Münaqişə Azərbaycan milli hərəkatının inkişafına ciddi təkan verdi, əvvəllər kor-təbii mübarizə aparan xalqın təşkilatlanmasında əhəmiyyətli rol oynadı. Eyni zamanda, milli hərəkatın düzgün səmtə yönəldilməsinə ciddi təsir göstərdi. Milli azadlıq hərəkatının görkəmli xadimi M.B.Məmmədzadənin qeyd etdiyi kimi, bu münaqişədən sonra Azərbaycan milli hərəkatı div addımları ilə irəliləməyə başladı.

## ƏDƏBİYYAT

1. ARDA, fond 62, siy. I, sax. vah. 59, v. fond 524, siy. I, sax. vah. 18, v. 14; fond. 524, siy.I, sax. vah. 18, v. 18; fond. 524, siy.I,. sax. vah. 20, v. 2 fond 524, siy. I, sax. vah. 20, v 2; fond 524, siy. I, sax. vah. 31, v. 67; fond 524, siy. I, sax. vah. 18, v. 14. fond 524, siy. I, sax. vah. 3, v 20. fond 62, siy. I, sax. vah. 35, v. 165; fond. 524, siy.I, sax. vah. 18, v. 14.
2. Azərbaycan tarixi. II hissə. Bakı, 1964. 613 s.
3. Документы по русской политике в Закавказье, Баку, 1920. с.17.
4. «Azerbaycan», yil 40, sayi 250, 1990.
5. Məmmədov X., Məmmədov N. Erməni iddiaları və Azərbaycanlıların soyqırımı. Bakı, 2008, s. 90.

6. Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. s. 240; s. 241; s 242.
7. Наджафов Б. Лицо врага, т. I, Баку 2001, с. 211.
8. Siyasi tarix. I hissə, Bakı, 1995.
9. SPİHMDA, fond 276, siy 8, iş 170, qov. 6, v 1-3
10. Svietoçovski.T. Rus Azerbaycanı (1905-1920). İstanbul. 1990.

**MÜNDƏRİCAT**

***Aybəniz Osmanova.*** HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA RİYAZİYYAT ELMİ...........................................................................3
***Aydın Məmmədov.*** XX ƏSRİN II YARISI – XXI ƏSRİN ƏVVƏLLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA AZƏRBAYCANIN ORTA ƏSR ŞƏHƏRLƏRİNƏ DAİR TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ.................................................................11
***Balamirzə Məmmədli.*** İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ SSRİ-DƏ QARAÇAYLARIN VƏ BALKARLARIN DEPORTASİYASI.......21
***Elçin Qarayev***. İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ TARİXİNDƏN (1881-1917).........................................................................33
***Эльмира Мамедова.***ШОРАГЕЛЬСКИЙ СУЛТАНАТ...............................40
***Əzizağa Qəni-zadə.*** 1992-Cİ İLİN MAY AYINDA ŞUŞA NECƏ İŞĞAL OLUNDU?.......................................................................................................45
***Ləman Hüseynova.***N. NƏRİMANOVUN “SOSİALİZM VƏ QADIN AZADLIĞI” ƏSƏRİ QADIN SİYASƏTİNİ ƏKS ETDİRƏN MƏNBƏ KİMİ...........................................................................................61
***Oksana Abbasova.*** NƏRİMAN NƏRİMANOVUN GENUYA KONFRANSINDA İŞTİRAKI VƏ ROLU......................................................71
***Sahibə Musayeva.***SAXURLARDA “XINAYAXDI” MƏRASİMİ.................81
***Səidə Həsənova.*** XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN İQTİSADİ VƏZİYYƏTİ (SOVET TARİXŞÜNASLIĞI ƏSASINDA)...................................................87
***Rəşad Rüstəmov.*** ERMƏNİ MİLLƏTÇİLƏRİNİN QARABAĞI İŞĞAL ETMƏ CƏHDLƏRİ (1917- Cİ İLİN FEVRALI – 1918 – Cİ İLİN MAYI).....94
***Vüsal İsgəndərov.*** MÜRİDİZM HƏRƏKATININ BİRİNCİ MƏRHƏLƏSİNDƏ AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ RUSİYA İŞĞALLARINA QARŞI MÜBARİZƏ (1829-1834-CÜ İLLƏR)...101
***Xəqani Məmmədov.*** AZƏRBAYCAN XALQININ ERMƏNİ TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏSİ (1905-1906-CI İLLƏR)...............112

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2022, 2 (35)*

***Çapa imzalanmış 27.06.2022-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 6***
***Sifariş 234, sayı 100***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***